www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 iyul 2014-cü il Çərşənbə axşamı № 173 (5882) Qiyməti 40 qəpik

**Xəbər**

## Çörək bahalaşa bilər

yazısı səh.2-də

**Gündəm**

### "Ölkədə məzhəblərarası toqquşma yaratmaq istəyən qüvvələr var"



Sabiq baş nazir Pənah Hüseyn Sabirabaddakı olaya münasibət bildirdi: "Camaatımızın, dindarların səviyyəsi buna yol verməz"; saqqalkəsmə hadisəsinə QMİ-dən də reaksiya gəldi...

yazısı səh.4-də

### Bağlanan türk məktəblərinə çıxış nöqtəsi - Kaspi liseyi

yazısı səh.10-da

### İŞİD-ə qoşulan Ucar sakininin hekayəti

Natiq Hüseynov Suriyadakı döyüşlərdə fərqləndiyinə görə bu qruplaşmaya çağırılıb

yazısı səh.4-də

### Fərahim İlqaroğlunu döyənin ailəsi üzr istədi, bəs Məmmədovlar?

yazısı səh.5-də

*Zeynal Məmmədli:*

### "Azan məsələsində Türkiyə təcrübəsindən istifadə oluna bilər"

yazısı səh.3-də

*Britaniya mətbuatı:*

### "Ərdoğan ilk turda qələbə qazansa, Atatürkdən çox Putin olacaq"

yazısı səh.11-də

### Pərviz Həşimlinin məhkəməsi istintaqsız keçiriləcək

Jurnalist hakimləri ədalətli hökm çıxarmağa səslədi

yazısı səh.3-də

### Braziliyanın qırılmış beli: Neymar

Almaniya ilə yarımfinal oyuna zədə səbəbindən çıxa bilməyən hücumçu kimdir?

yazısı səh.15-də

### Azərbaycan oliqarxlarının quldarlıq sistemi

Xaricdən Bakıya qul gətirən dəstə üzvləri 4 milyon dollar qazanıb

yazısı səh.10-da

**Ramazan ayının 10-cu günü**

İftar 21.29. İmsaq (azan) 4.49 (QMİ-nin cədvəli)

10-cu günün duası: "İlahi, bu gün məni Sənə təvəkkül edənlərdən qərar ver! Belə bir gündə Sənin hüzurunda yaxşı işlərə müvəffəq olanlardan hesab et! Məni Öz ehsanınla yaxın bəndələrindən qərar ver! Ey istəyənlərin Son İstəyi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Türkmənlərin qətliam hekayələri - şahidlər danışır

# "TÜRKMƏN VƏ XRİSTİAN QIZLARINI ŞƏHƏRİN ORTASINDA ZORLAYIRLAR"...

"İŞİD onun başının necə kəsildiyini internetdə yayıb" - anası görüb havalanıb; ananın gözü qarşısında oğlunu və iki qızını güllələyib maşına atdılar, sonra maşına od vurdular"; "Sistaninin fətvası olmasaydı"...

yazısı səh. 8 və 9-da



# Anar Məmmədov "qış yuxusu"ndan ayıldı, "Yeni Müsavat"a son pisliyini etdi...

"Ayı işi" qayıtdı; Ziya Məmmədovun oğlu "Yeni Müsavat" və "Azadlıq" qəzetlərinə kəsilən cərimələrin icraya yönəldilməsi üçün məhkəməyə üz tutdu; Rauf Arifoğlu: "Günah bizdən getdi..."

yazısı səh.5-də



### İlham Əliyevdən diplomatlara ciddi tapşırıqlar

yazısı səh.2-də



### Sərdar Cəlaloğlu Quranı-Kərimin təfsirini yazır

yazısı səh.12-də



### Şevardnadze vəfat etdi

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 173 (5882) 8 iyul 2014



**Müsavat Partiyasının başqanı İsa Qəmbər Kamal İbrahimlini 60 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Kamal bəy!**

**Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.**

**Siz, 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri sayılırsınız. 2003-cü ildən Müsavat Partiyası Sabunçu rayon təşkilatının üzvü olaraq, müsavatçılıq ideyalarının təbliğində və yayılmasında yorulmadan fəaliyyət göstərirsiniz. Eyni zamanda işgüzar, yorulmaz bir iş sahibi - müəllimsiniz. Apardığınız prinsipal və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz də heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Kamal bəy!**

**Bir daha Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**

## Çörək bahalaşa bilər



**Bakıda topdansatış mərkəzlərində unun bahalaşması halları müşahidə olunur. Ölkədə un istehsalı və idxalı ilə məşğul olan aparıcı şirkətlər bildiriblər ki, əlli kiloluq kisənin qiyməti 30-60 qəpik artıb. Mütəxəssislər bunu dünya bazarında taxılın qiymətinin artması ilə izah edirlər. Aqrar sahə üzrə ekspert Vahid Məhərrəmovun ANS PRESS-ə verdiyi məlumata görə, taxılın qiymətinin artmasına bir çox amillər təsir edir.**

"Bu il Amerikada quraqlıq ilidir. Bir müddət əvvəl isə Ukraynada baş verən hadisələr taxılın qiymətində 20 faiz artıma səbəb olmuşdu. Ona görə də dünya bazarında taxıl istehsalı müəyyən qədər azalıb. Bu da avtomatik olaraq buğda və unun bahalaşmasına səbəb olur", -deyə Vahid Məhərrəmov bildirir.

Ekspert deyir ki, Azərbaycanın taxıl aldığı ölkələrdə isə hazırda vəziyyət stabildir. Ona görə də hələlik bizim üçün təhlükə azdır.

"Biz taxılı Qazaxıstandan alırıq. Ötən il Qazaxıstandan 850 min ton taxıl idxal etmişik. Rusiyadan isə 550 min ton taxil almışıq. Hazırda Qazaxıstanda vəziyyət stabildir. Ona görə də orada buğdanın qiymətində artım ehtimal olunmur", - deyə Vahid Məhərrəmov vurğulayıb.

Ekspert onu da əlavə edib ki, bu il Azərbaycanda az məhsul gözlənilir. Bu isə vəziyyəti müəyyən mənada çətinləşdirə bilər. Ekspert deyir ki, hələlik bu baxımdan konkret nəsə demək tezdir. Dünya bazarında taxılın qiymətinin artması isə avqust ayında tam aydın olacaq.

## Daha bir ali məktəb bağlandı

### İctimai-Siyasi Universitetin lisenziya müddəti artırılmadı

**Təhsil naziri Mikayıl Cabbarov İctimai-Siyasi Universitetin lisenziya müddətinin uzadılmaması barədə qərar verib. AzVision.az xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında qurumun mətbuat katibi Cəsarət Valehov məlumat verib. Onun sözlərinə görə yaradılan işçi qrupun yoxlamaları zamanı məlum olub ki, bu ali təhsil müəssisəsində təhsil formal xarakter daşıyır və kafedralar qanunvericiliyə uyğun qurulmayıb.**

C.Valehov onu da vurğulayıb ki, qanunvericiliklə müəyyən olunmuş qaydalar yerinə yetirilərsə universitet yenidən lisenziya üçün müraciət edə bilər.

Nazirlik rəsmisi universtetdə hazırda 566 tələbənin təhsil aldığını, onların mərkəzləşdirilmiş qaydada başqa universitetlərə köçürüləcəyini bildirib. Təhsil xərclərinə gəlincə isə tələbələrin xərci artmayacaq.

### Başsağlığı

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı Əfruz Niftiliyə əzizi fizika-riyaziyi elmləri doktoru Ağaddin Niftilinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Həbsdəki gənc fəalın anası fəryad qopardı

## Orxan Əyyubzadənin həbsinin sifarişinin baş prokurorun müavini tərəfindən verildiyi iddia edilir

**Hazırda həbsdə olan bitərəf gənc Orxan Əyyubzadənin məhkəməsi başlamaq üzrədir. Haqqında 315.1 maddə ilə (hakimiyyət nümayəndəsinə müqavimət göstərmə) cinayət işi açılan gənc siyasi məhbusun bu ayın sonu istintaqı yekunlaşa bilər.**

Hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan Orxan Əyyubzadə qıcolma xəstəliyindən əziyyət çəkir. O, saxlanma şəraitindən narazıdır. Belə ki, gənc fəal 4 nəfərlik kamerada 7 nəfər məhbusla qalır. Bununla bağlı dəfələrlə təcridxana rəhbərliyinə müraciət edilsə də, nəticəsiz qalıb.

İyulun 5-də Orxan Əyyubzadənin ev dustaqlığına buraxılması ilə bağlı məhkəməsi olub. Hakim qərarı qüvvədə saxlayıb.

**Bu barədə musavat.com-a danışan vəkil Əsabəli Mustafayev bunları deyib:** "Orxanın ev dustaqlığına buraxılması ilə bağlı məhkəməyə müraciət etmişdik. Şənbə günü məhkəməsi keçirildi. Hakim qərarı qüvvədə saxladı. Hazırda bu qərardan apelyasiya şikayəti hazırlayırıq. Artıq istintaqı yekunlaşmaq üzrədir. Çox güman ki, bu ayın sonu məhkəməsi başlayacaq. Gələn həftə istintaqının bitəcəyi gözlənilir. Sonuncu dəfə onunla məhkəmədə görüşmüşəm. Səhhətindəki problemlər davam edir. Saxlanma şəraitinin ağır olması səhhətinə ciddi təsir edir. Bununla bağlı əlimizdən gələni etmişik. Təəssüf ki, əməl edən yoxdur. Bu ayın sonu başlayacaq məhkəməyə ciddi hazırlaşırıq".

Gənc siyasi məhbusun anası Rəhimə Məmmədova oğlu ilə görüşə əngəllər yaradıldığını bildirdi: "Oğlumla görüşə demək olar ki, icazə verilmir. İyulun 10-da görüşə icazə verəcəklərini bildiriblər. Heç inanmıram. Prokuror görüş üçün məktub vermək istəmir. Açıq şəkildə "sizə məktub verməyə borclu deyiləm" dedi. Həftədə bir dəfə görüşdür. Onu da uzadırlar. Saxlanma şəraiti də çox ağırdır. 4 nəfərlik yerdə 7 nəfər saxlayırlar. Tez-tez Orxanın əşyalarını "şımon" edirlər. Bununla bağlı Orxan rəisə müraciət edib. Hələ də nəticəsi yoxdur. Orxana maddə üzrə ən yuxarı cəzanı verəcəklər. Çünki müstəntiq açıq-aşkar "mənə qalsa, Orxanın işini şərti cəza ilə bitirərdim. Amma onun həbs edilməsi tapşırığını baş prokurorun müavini Azər Əsgərov verib" dedi. Övladımın cinayət işinə əlavə maddə artırılacağından qorxuram. Artıq hər yerdən əlim üzülüb".



Orxan Əyyubzadə

**R. Məmmədova A. Əsgərovun qəbuluna getdiyini də söylədi:** "Bu xəbərdən sonra Azər Əsgərovun qəbuluna getdim. Katibəsindən soruşduqdan sonra, o, məni qəbul etmədi. Mən görüş günü olduğunu bildirdim. Amma məni qapıdan kənara atıb, dedilər ki, kimə istəyirsən şikayət et. Övladımın xəstəliyi ilə bağlı qeydiyyatda olduğu xəstəxanadan deyirlər ki, onu müalicəsiz buraxmaq olmaz. Lakin prokuror Orxanın xəstəxanaya aparılmasına icazə vermir. Bu barədə hər kəsdən kömək istəyirəm. Gözüm görə-görə qanunsuz olaraq, oğlum həbsdədir. Bu azmış kimi, onun ölümünə çalışırlar. 19 yaşlı gəncə bu əzabı vermək heç bir insanlığa sığmır".

Xatırladaq ki, O. Əyyubzadə mayın 6-da NİDA-çılara oxunan hökmə etiraz etdiyinə görə, həbs olunaraq 20 sutka inzibati həbs cəzası almışdı. Mayın 26-da həbs müddəti bitən gənc fəal azadlığa buraxılmamış, haqqında 1 aylıq həbs-qətimkan tədbiri seçilmişdi. İyunda onun həbs müddəti 1 ay da uzadıldı. O. Əyyubzadəyə qarşı irəli sürülmüş maddə üzrə gənc fəalı 3 ilə qədər həbs cəzası gözləyir.

❑ **Cavanşir ABBASLI**

## Leyla Yunus istintaqa getmədi

### Hüquq müdafiəçisi şərtlərini açıqladı

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun iyulun 7-də saat 10-da Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırılması barədə xəbər vermişdik. Hüquq müdafiəçisi istintaqa getməkdən imtina edib. O bildirib ki, prokurorluq tərəfindən götürülən sənədləri qaytarılmayana qədər istintaqa getməyəcək.**

Hüquq müdafiəçisi musavat.com-a bunları deyib: "Hələ ki, sakitlikdir. İndiyə qədər heç kəs mənə zəng eləməyib. Özüm də bildirdim ki, mətbuat nümayəndələri əziyyət çəkib, evimin qarşısına gəlməsinlər. Telefonla əlaqə saxlayaq yetər. Nəsə olsa, xəbər verəcəm. Yəqin özləri də izləyib, görürlər ki, mən daima jurnalistlərlə əlaqə saxlayıram. Başa düşürlər ki, nəsə olsa, bütün mətbuata yayacam. Fikirləşirlər ki, neyləsinlər?"

**L. Yunus istintaqa getməməsinin səbəblərini də açıqladı:** "Başa düşə bilmirəm ki, bunlar nə üçün qanunla işləyə bilmirlər? Tələb edirəm ki, qanuna riayət eləsinlər. Demirəm ki, istintaqa gəlməyəcəm. Sənədlərimi, kupçamı qanunsuz olaraq saxlayırlar. Sənədlərimi qaytarsınlar, mən də istintaqa gedim. Heç bir problem yoxdur".

❑ **Cavanşir ABBASLI**

## Asim Mollazadə Almaniyaya gedib

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə beynəlxalq konfransda iştirak etmək məqsədilə Almaniyaya gedib. Berlində keçiriləcək konfransda Cənubi Qafqazda əməkdaşlıq məsələləri müzakirə olunacaq. A.Mollazadə konfransda mövzu ilə bağlı çıxış edəcək və müzakirələrə qatılacaq.**

❑ **Vüqar MURAD**

## Şevardnadze vəfat etdi



**Gürcüstanın sabiq prezidenti və vaxtilə SSRİ-nin xarici işlər naziri olmuş Eduard Şevardnadze vəfat edib. Bu barədə onun şəxsi köməkçisi Marina Davitaşvili «Reuters» agentliyinə bildirib. Qeyd edək ki, o, 1928-ci il yanvarın 25-də anadan olub. 1972-1985-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985-1990-cı illərdə SSRİ-nin Xarici İşlər naziri vəzifələrində çalışıb. 1995-2003-cü illərdə Gürcüstan Respublikasının Prezidenti olub.**

E.Şevardnadzenin bu həftənin bazar günü dəfn edilməsi planlaşdırılır.

## Müxalifət tətilə çıxacaq?

**Yay fəslinin istisi və Ramazan ayının fəslin ən isti dövrünə təsadüf etməsi Azərbaycan siyasətinə də təsirini göstərib. Artıq fərdlər yox, təşkilatlar şəklində yay tətilinə çıxmaq halları müşahidə edilir. Ötən həftə Azərbaycan Demokrat Partiyasının İdarə Heyəti iyul ayını bütünlükdə tətilə çıxmaq qərarı verib. Bəs, digər müxalif partiyaların hansının tətilə çıxmaq planı var?**

Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı təmsil olunduğu partiyanın təcrübəsində belə bir halın olmadığını bildirdi: "Yadıma gəlmir ki, Müsavat Partiyasında 1 aylıq tətil olsun. Ayrı-ayrı Divan üzvlərinin, partiya rəhbərliyinə daxil olan şəxslərin istirahət və ya müalicə üçün bir aylıq fasilə vermələri olub. Amma partiyanın bütövlükdə bir aylıq tətilə çıxması heç vaxt olmayıb. İndi də bu, gözlənilmir. Sentyabrın sonunda qurultay keçiriləcək. Ona görə də partiyanın bütün strukturları fəaliyyətlərini davam elətdirirlər.

**KXCP sədrinin müavini Xəzər Teyyublu** ADP-nin tətil qərarını normal qarşıladıqlarını desə də KXCP-nin tətilə çıxmaq fikrində olmadığını bildirdi: "KXCP-nin praktikasında, tarixində bütün partiyanın tətilə çıxması olmayıb. Hazırda da planımızda belə bir qərar vermək yoxdur. Partiyamızın qarşısında görülməli xeyli işlər var. Azərbaycan Xalq Cəbhəsinin 16 iyulda 25 illiyidir. KXCP bu tarix üçün tədbirlər nəzərdə tutub və buna hazırlaşırıq. İstər yay, istər qış olsun, KXCP tətilə çıxmır".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc da indiyə qədərki təcrübələrində bir aylıq tətilə çıxmaq kimi halın yaşanmadığını dedi:** "Biz onsuz da ictimai əsaslarla fəaliyyət göstərən bir partiyayıq. Hər həftənin üçüncü günü partiyanın rəhbər orqanının toplantısı olur. Ancaq konkret bir aylıq tətilə çıxmaq bu günə qədər təcrübəmizdə yoxdur. ADP-nin qərarını da normal qarşılayırıq. Ancaq özümüzün planımızda analoji addımı atmaq yoxdur".

**AMİP Mərkəzi Şurasının üzvü Əli Orucov təmsil etdiyi partiyanın yarandığı gündən indiyə qədər fasiləsiz, heç bir tətil keçirmədən fəaliyyət göstərdiyini bildirdi:** "AMİP havanın necə keçməsindən asılı olmayaraq həmişə fəaliyyətini davam etdirib. Qarşıya qoyulan iş planına uyğun fəaliyyət yay aylarında da davam edib. İndi də belədir və heç bir tətil qərarı yoxdur. Partiyanın rəhbərliyində ayrı-ayrı şəxslər fərdi şəkildə müəyyən müddətə məzuniyyətə çıxa bilər, amma bu, ümumilikdə partiyanın tətilə çıxması deyil. Yay aylarında bir neçə həftə, bir ay müddətinə tətilə çıxmaq təcrübəsini indiyə qədər ADP bir neçə dəfə tətbiq edib. Bu, onların ümumi müzakirələrdən sonra verdikləri qərardır və bizim buna qarşı çıxmağımız düzgün olmazdı".

❑ **E.SEYİDAĞA**



## İlham Əliyevdən diplomatlara ciddi tapşırıqlar

**İyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə iştirak edib.**

"Qafqazinfo"nun xəbərinə görə, Prezident İlham Əliyev müşavirədə nitq söyləyib.

Dövlət başçısı Azərbaycanın xarici siyasətinin öz prinsipiallığı və müstəqilliyi ilə seçildiyini deyib. O bildirib ki, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə xarici arenada öz sözümüzü deməyə, maraqlarımızı müdafiə etməyə imkanlar açıb. Prezident bu siyasətin beynəlxalq birlik tərəfindən də təqdirlə qarşılandığını, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artığını, Azərbaycanın özünü dünyada etibarlı dost və tərəfdaş kimi təsdiq etdiyini vurğuladı. Gənc müstəqil dövlət üçün BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimizi tarixi hadisə adlandıran dövlətimizin başçısı bildirdi ki, bu, ölkəmizin qısa müddətdə nə qədər böyük yol keçdiyini göstərdi.

Azərbaycan iki il ərzində bu nüfuzlu təşkilatda beynəlxalq hüququ və ədaləti müdafiə etdi və bundan sonra da hər zaman müdafiə edəcəkdir. Beynəlxalq imicimizin çox müsbət olduğunu qeyd edən Prezident İlham Əliyev diplomatik orqanların uğurlu fəaliyyətinin bu amildə rolunu qeyd etdi.

Xarici siyasətlə bağlı əsas məsələnin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olduğunu bildirən Prezident İlham Əliyev təəssüflə qeyd etdi ki, bu istiqamətdə nəticələr yoxdur. Dövlət başçısı Azərbaycanın məsələni dinc yolla həll etmək istəyini bildirdi və qeyd etdi ki, bununla yanaşı, Ermənistanın qeyri-konstruktiv mövqeyi, eləcə də beynəlxalq hüququn işləməməsi və güc amilinin əsas rol oynaması məsələnin hərbi yolla həllini istisna etmir. Prezident bu səbəbdən də ordu quruculuğumuzla bağlı aparılan ardıcıl siyasətimizin düzgün olduğunu vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, diplomatların fəaliyyəti ilk növbədə Qarabağla, o cümlədən İrəvan xanlığı ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasına istiqamətlənməlidir. Prezident İlham Əliyev bir daha vurğuladı ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranması qətiyyən mümkün deyil və Azərbaycan buna heç vaxt imkan verməyəcəkdir.

İ.Əliyev diplomatlara fəaliyyətlərində yeni uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

YENİ MÜSAVAT
N 173 (5882) 8 iyul 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# ATV-yə təşəkkürlər

**(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)**

**Yox, heç bir yanlış yoxdur. Doğrudan da ATV-yə təşəkkür edirəm. Yəqin ki, çox təəccüblənirsiniz, Tofiq Yaqublu "Lider"in əkiz qardaşı ATV-yə necə təşəkkür edə bilər? Tələsməyin, indi izah edirəm.**

İlham Əliyev Strasburqda AŞ PA-nın sessiyasında çıxış edərkən, zalda ona etiraz edən mühacirlərimiz var idi. Onlar Azərbaycanda azadlıqların boğulmasına və siyasi həbslərə işarə olaraq, ağızlarını qara lentlə bağlamış və sinələrindən siyasi məhbusların şəkillərini asmışdılar. Çıxışı zamanı ona bu cür orijinal və diqqətçəkən etiraz edənləri görən İlham Əliyev demişdi ki, bu insanlar 92-93-cü illəri görməyiblər, yoxsa etiraz etməzdilər. "92-93" deyəndə nəyin nəzərdə tutulduğunu zaldakı deputatların əksəriyyəti başa düşməsə də, biz nəyə işarə edildiyini dərhal anladıq. Əlbəttə ki, 1 illik Elçibəy hakimiyyətinin bostanına daş atılırdı. Çağdaş Azərbaycan tarixinin ən şərəfli səhifəsi olan bu birillik hakimiyyəti YAP düz 21 ildir ki, təhrif və təhqir etməklə məşğuldur. Bu yöndə ən "bərkgedən" qınaq da guya o vaxt ölkədə stabillik olmadığından qaranlıq düşəndən sonra adamların qorxudan küçəyə çıxa bilməməsi haqda uydurmalardır. Şəxsən mən bu mövzuda dəfələrlə yazı yazmışam, demişəm ki, əgər doğrudan da Elçibəy hakimiyyəti dövründə vəziyyət adamların küçəyə çıxa bilməyəcəyi dərəcədə təhlükəli idisə, onda həmin dövrdə heç olmasa burnu qanamış bircə adamın adını çəkin. Əks arqument kimi də "stabillik" dövründə qətlə yetirilmiş məşhurların adlarını sadalayırdım: Şəmsi Rəhimov, Afiyəddin Cəlilov, Ziya Bünyadov, Nadir Həsənquliyev, Fərəməz Maqsudovun ailəsi, Fətulla Hüseynov, Elmar Hüseynov, Rafiq Tağı, Rail Rzayev və s.

İlham Əliyevin "92-93" söhbətindən sonra bir sıra köşə yazarlarımız ona tutarlı cavab yazdılar. Məsələn, Azər Rəşidoğlunun yazısı çox xoşuma gəlmişdi.

İndi də gələk ATV məsələsinin üstünə. 02.07.2014 tarixində ATV polis gününə həsr olunmuş veriliş hazırlamışdı. Orada maraqlı bir fraqment var idi. DİN-in yubileyində Heydər Əliyevin çıxışını verirdilər. O deyirdi: "93-cü, 94-cü və 95-ci illərdə ölkədə xaos hökm sürürdü, adamlar qorxusundan axşam saat 7-dən sonra küçəyə çıxa bilmirdi..." Bu da Elçibəy hakimiyyəti haqda YAP yalanlarına ən tutarlı cavab. İndi buyursunlar, yapçılar mərhum Heydər Əliyevin dediklərini təkzib etsinlər görək necə edirlər.

ATV-yə də elə buna görə təşəkkür edirəm. Həmin kadrları eşələyib üzə çıxardıqları üçün. İndi buyursun Elçibəy hakimiyyəti haqda "palatka" toylarında ağzı-burnu yağlı gəyirə-gəyirə danışan tamadalar kimi danışan yapçılar "o vaxt camaat qorxudan küçəyə çıxa bilmirdi" tostunu yenə təkrarlasınlar. Yeri gəlmişkən, ATƏT PA-nın Bakıda keçirilən sessiyası zamanı AXCP sədri Əli Kərimlinin əcnəbi deputatlarla görüşünə imkan verilməməsi haqqında danışan, Gülər Əhmədovanın formalaşdırdığı parlamentciyin üzvü bir yapçı palatka toyu söhbəti eləyib...

❑ Tofiq YAQUBLU

# Səhhəti ağırlaşan Firudin Cəlilov Ankaraya getdi

## Sabiq nazir dövlət hesabına müalicə olunacaq

**Bu yaxınlarda səhhəti ağırlaşan professor Firudin Cəlilov dünən səhər saatlarında Ankaraya yola salınıb. Professora maddi yardım üçün tanınmış siyasətçilər media və sosial şəbəkələr vasitəsilə müxtəlif çağırışlar ediblər. Bununla bağlı dörd deputatın ölkə başçısına müraciəti də olub. F.Mustafanın təşəbbüsü ilə prezident İlham Əliyevə edilən müraciətə deputatlar İlyas İsmayılov, Sabir Rüstəmxanlı və İqbal Ağazadə qoşulub.**

Müraciətdə F.Cəlilovun türkologiya sahəsindəki xidmətlərinə görə Türk Dil Qurumunun fəxri üzvü olması, təhsil sahəsində apardığı islahatlara görə akademik Yusif Məmmədəliyev adına mükafata layiq görülməsi, müstəqilliyimiz uğrunda mübarizədə fəal iştirak etməsi, Azərbaycan dilinə və tarixinə aid çoxsaylı kitabların müəllifi olması, millət vəkili olduğu dövrdə elm, təhsil və dil komissiyasının sədri olaraq, onun təşəbbüsü ilə dövlət atributlarının - latın qrafikalı əlifbanın bərpası və dövlət himninin parlamentdə qəbul olunması, müxtəlif illərdə Azərbaycanın baş nazirinin müavini və təhsil naziri vəzifələrində çalışması göstərilərək onun xaricdə müalicəsinə köməklik göstərilməsi xahiş edilib.



Firudin Cəlilov

Bundan başqa, D18 Hərəkatı və Ümid Partiyası da ölkə rəhbərliyinə bu cür çağırışlar ediblər. Dövlət başçısı professor Firudin Cəlilovun müayinə, müalicə xərclərinin dövlət hesabına ödənilməsi ilə bağlı çağırışları nəzərə alıb.

**Çağırışlara qoşulan D18 Hərəkatının sədri Ruslan İzzətli dövlətin maddi yardımı ilə professorun Ankarada əməliyyat olunacağını bildirib:** "Biz D18 Hərəkatı olaraq Firudin müəllimin səhhəti ilə əlaqədar prezidentə müraciət etdik. İki gün bundan öncə Firudin müəllimin səhhəti yenə pisləşdi. Dövlət Gömrük Xəstəxanasında müayinə olundu və Ankarada əməliyyat olunması, müayinəsinin davam etdirilməsi üçün dövlət bütün xərcləri öz üzərinə götürdü. Hazırda Firudin Cəlilov Ankarada Bayandır Xəstəxanasındadır. Ürəyindən əməliyyat olunacağı deyilir. Bundan başqa, Firudin müəllimin ürəyi ilə yanaşı digər orqanlarında da problem var idi. Ona ürəyində problem olduğu üçün narkoz verə bilmirdilər. Əgər Firudin müəllim müalicəsini, müayinəsini ləngitsəydi, səhhəti daha da ağırlaşardı"

**Professorun səhhətinin ağırlaşması ilə bağlı Ümid Partiyası da prezidentə müraciət edib. Bu haqda Ümid Partiyasının sədr müavini Ramin Hacılı öz facebook səhifəsində də çağırışlar edib. "Yeni Müsavat"a danışan R.Hacılı edilən çağırışlara anında müsbət reaksiyalar gəldiyini dedi:** "İlk reaksiyalar mediadan, sosial şəbəkələrdəki vətəndaşlardan gəldi. Son vaxtlar adət halını alan, ictimailəşən belə məsələlərə dövlətin reaksiyası müsbət olur. Bu dəfə də reaksiya belə oldu və bütün xərcləri dövlət öz üzərinə götürdü. Təbii ki, biz buna görə cənab prezidentə təşəkkür edirik".

**F.Cəlilov özü də facebook səhifəsində Ankaraya getdiyini yazıb:** "Dostlar, müalicə üçün Ankaraya gedirəm, qayıdana qədər facebookda olmayacam. Sağlamlığımla bağlı narahat olan, şəfa diləyən bütün dostlara təşəkkür edirəm". F.Cəlilov 1995-ci ildən damar tıxanıqlığı xəstəliyindən əziyyət çəkir və indiyədək 3 dəfə əməliyyat olunub.

❑ Nərgiz YAQUBLU

# Telekanallarda azan verilməsi normaldır?

## Zeynal Məmmədli: "Bir azanın səslənməsində qeyri-adi heç nə yoxdur"

**Məlum olduğu kimi, Azərbaycanın Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri Nuşirəvan Məhərrəmli ANS televiziyası efirində Ramazan ayında azanın səsləndirilməsinə qadağan qoyub. Sədr bunu belə açıqlayıb ki, Azərbaycan dünyəvi dövlətdir və burada kim nə istəyirsə onu edə bilməz:**

"Azanlar yalnız dini ibadət edilən binalarda, yerlərdə olmalıdır. Yoxsa ki, hər kəs öz evində, televiziya kanalında, radiosunda və sairə azan verməli deyil. Ümumiyyətlə, bu məsələni jurnalistlər də anlayışla qarşılamalıdır. Yəni bu məsələni lazım olmayan formada işıqlandırmaq bütövlükdə heç kəsə faydalı deyil. Yaxşı olar ki, azan ancaq dini ibadət olan yerlərdə, o cümlədən məscidlərdə verilsin. Yoxsa sabah kim harda istəsə, azan verər. Bu isə düzgün deyil".

**Xatırladaq ki, sözügedən məsələ ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin İçərişəhərdəki məscidlər üzrə səlahiyyətli nümayəndəsi Hacı**



Zeynal Məmmədli

**Surxay Məmmədli** aznews.az-a açıqlmasında deyib ki, İslam dininin atributu olan azanın Ramazan ayında ANS kanalında səsləndirilməsi təmin olunacaq: "Azan İslam dininin atributlarındandır və onun Azərbaycanda səsləndirilməsi də bir müsəlman ölkəsi kimi vacibdir. Hesab edirəm ki, azanın ANS-də səsləndirilməməsinin səbəblərini araşdırmaq lazımdır. Mən bunun təfərrüatını bilmirəm və bu haqda geniş heç nə deyə bilmərəm".

### "Türkiyə təcrübəsindən istifadə oluna bilər"

Əslində televiziyalarda azan verilməsi qonşu Türkiyə təcrübəsində də var və bu, bir norma kimi qarşılanır. Azərbaycanda bunun hansısa bir təhlükə yarada biləcəyi ehtimalı sual doğurur. Üstəgəl, bunun televiziyaçılıq ənənəsinə yad olması ilə bağlı deyilənlər də birmənalı qarşılanmır.

**Media mütəxəssisi Zeynal Məmmədli isə hesab edir ki, Azərbaycanda din mövzusunun televiziyada necə işıqlandırılması ciddi müzakirə mövzusudur. Onun fikrincə, ateist ölkədən miras qalan Azərbaycanın hazırkı dövrü kifayət qədər keşməkeşlidir:** "Tərslikdən bu dövr də dünyadakı radikal dini, terrorçu cərəyanların dövrünə düşüb. Ona görə də belə qadağaları bəlkə anlamaq olar. Amma bununla belə, dini kəsimin mədəni, informasiya tələbatını ödəməliyik. Dövlətdən maliyyələşən kanallar, o cümlədən İTV bununla bağlı məsuliyyət daşıyır. Məsələn, Qafqaz Müsəlmanları İdarəsi İTV üçün bu dönəmdə bir veriliş hazırlaya bilər. Bu televiziya ictimai xarakterlidir və burada dindarların da rəyi nəzərə alınmalıdır. Bütün qalan məsələləri başqa cür qoyanda "sələfilərin önündə geri çəkilmək" kimi anlaşıla bilər. Əslinə qalsa, bu, ölçüb-biçilməli, məsələ yasaqla yox, müzakirə, qarşılıqlı anlaşma yolunda müzakirə olmalıdır".

**Ekspertin fikrincə, bu durumu qrip xəstəliyi ilə müqayisə etmək olar. Bir az çətin və dərinə işləmiş xəstəliyi mütləq keçmək lazımdır:** "Onu görməzdən gəldikcə böyüyür. Yasaqlar xroniki hala gətirib çıxara bilər. Çıxış yolunu birgə tapmalıyıq. Bir azanın səslənməsində qeyri-adi heç nə yoxdur. Buna alışdırmaq bizim borcumuzdur. Televiziyalarda dindar, eləcə də ateist verilişlər olmalıdır. Birini yayımlamaqla kifayətlənmək olmaz".

**Z.Məmmədli hesab edir ki, bu məqamda Türkiyə təcrübəsindən istifadə etmək mümkündür. Müsahibimizin sözlərinə görə, yasaq yolu ilə dinin mənfi təzahürlərini yaymış oluruq:** "Yasaqlarla dindən radikal yolla istifadə edənlərə yol açırıq. İstənilən məsələni müzakirə yolu ilə həll etmək mümkündür".

❑ Sevinc TELMANQIZI

# Pərviz Həşimlinin məhkəməsi istintaqsız keçiriləcək

## Jurnalist hakimləri ədalətli hökm çıxarmağa səslədi

### "Bilərəkdən ədalətsiz hökm və qərar çıxaran şəxs 3 il azadlıqdan məhrum edilir"

**İyulun 7-də Bakı Apelyasiya Məhkəməsində hakim Vaqif Mursaqulovun sədrliyi ilə jurnalist və hüquq müdafiəçisi Pərviz Həşimlinin barəsindəki hökmdən verilmiş apelyasiya şikayəti üzrə ikin baxış iclası keçirildi.**

İclasda jurnalistin hər üç vəkili - Elçin Sadıqlı, Fariz Namazlı və Bəhruz Bayramov iştirak edib. Prosesdə vəkillər P.Həşimlinin işi ilə bağlı əlavə şahidlərin dindirilməsi və prosesin qismən məhkəmə istintaqı ilə aparılması barədə vəsatətlər veriblər. Vəsatətlər aşağıdakı kimi olub: "İfadələrdə deyildiyinə görə, Pərviz Həşimlinin evində silah tapılıb. Onun evində isə təhlükəsizlik kameraları quraşdırılıb, biz həmin videogörüntüləri istəsək də, onları bizə vermirlər. Bundan başqa, ifadələrdə Pərviz Həşimlinin bu silahları guya İrandan aldığı bildirilir. Elə isə müvafiq orqanlar İrana sorğu göndərsinlər və bu məqamları müəyyən etsinlər".

Jurnalist də vəkillərin vəsatətini müdafiə edib. Hakimə müraciətində P.Həşimli verilən vəsatətləri müdafiə edərək hakimlərə müraciət edib. Jurnalist deyib ki, Cinayət Məcəlləsinin 295-ci maddəsinə əsasən, bilərəkdən ədalətsiz hökm və qərar çıxaran şəxs 3 il azadlıqdan məhrum edilir: "Ona görə də mən sizi ədalətli hökm çıxarmağa səsləyirəm".



Pərviz Həşimli

Müşavirədən sonra elan olunan qərara əsasən vəkillərin vəsatətləri təmin olunmayıb.

Mahiyyəti üzrə baxış iclası 14 iyul, saat 10.45-ə təyin edilib.

Pərviz Həşimli Təvəkkül Qurbanov adlı şəxslə 2013-cü il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyatla saxlanılıb. Onlara qarşı odlu silahın və döyüş sursatının qaçaqmalçılığı və odlu silah saxlama maddələri ilə ittiham irəli sürülüb. Pərviz Həşimli ittihamları qəbul etmir, T.Qurbanovun MTN-in adamı olduğunu deyərək, onun vasitəsilə şərləndiyini və siyasi sifarişlə, saxta ittihamla həbs edildiyini bəyan edib. Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 may 2014-cü il tarixli hökmü ilə Pərviz Həşimli 8 il, Təvəkkül Qurbanov isə 8 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 173 (5882) 8 iyul 2014

**Sabirabadda vəhhabi bir şəxsin saqqalını qırxmaqla gündəmə gələn Rəmzi Zeynalovla bağlı qəzetimiz yeni məlumatlar əldə edib. Yerli sakinlərdən "Yeni Müsavat"a çatan məlumata görə, əslən Masallı rayonundan olan Rəmzi Zeynalov Sabirabad bazarında alverlə məşğuldur.**





# "Ölkədə məzhəblərarası toqquşma yaratmaq istəyən qüvvələr var"

## Sabiq baş nazir Pənah Hüseyn Sabirabaddakı olaya münasibət bildirdi: "Camaatımızın, dindarların səviyyəsi buna yol verməz"; saqqalkəsmə hadisəsinə QMİ-dən də reaksiya gəldi...

Rayonun "Masallı bazarı" kimi tanınan hissəsində xırda ticarətlə məşğul olan R.Zeynalov şiədir. Rayondakı dini mərasimlərdə daima vəhhabilərə qarşı çıxışları ilə tanınan Rəmzi Zeynalov yerli dindar çevrəyə çox yaxındır. Üstəlik də söhbətləşdiyimiz dindarların bir çoxu onu çox müsbət xarakterli şəxs kimi təqdim etdilər. Sabirabadın bütün xeyir-şər məclislərində yaxından iştirak edən Rəmzi Zeynalovun təxribatçı olması ilə bağlı səsləndirilən iddialara isə onlar inanmadıqlarını söylədilər.

Xatırladaq ki, polis tərəfindən saxlanılan Rəmzi Zeynalovun iddiasına görə, əslən Kürdəmirdən olan və vəhhabi təriqətinə mənsub Cavanşir Zərbəliyev Sabirabad bazarına tez-tez gəlirmiş. Növbəti dəfə meyvələrin qiyməti ilə maraqlanan zaman o, Rəmzi Zeynalovla qarşılaşıb. İddia var ki, R.Zeynalov C.Zərbəliyevlə əvvəlcə mübahisə edib. Çünki yayımlanan videogörüntülərdə də Zeynalov Zərbəliyevə "Sənə deməmişdim ki, səni Sabirabadda görməyəcəyəm" deyə bir ifadə işlədir. **Polisə ifadəsi zamanı isə Zərbəliyev hadisəni bu şəkildə təqdim edib:** "Gilasın qiymətini soruşan zaman bir nəfər qolumdan tutub məni hədələməyə başladı. Sonra digərləri üstümə düşdü. Məni döyməyə, təhqir etməyə başladılar. Saqqalımı qırxdılar. Nə qədər and-aman etdim xeyri olmadı. Hamının gözü qarşısında mənə qarşı qeyri-insani hərəkət etdilər. Onların bu hərəkəti hansı təriqətdən olursa-olsun heç bir müsəlman əhlinə yaraşmır".

**Məlumdur ki, sosial şəbəkələrə yerləşdirilən video böyük səs-küy yaradıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ehsan Zahidov məsələyə aydınlıq gətirib:** "Vəhhabinin saqqalını kəsən şəxs əməlini etiraf edərək bildirib ki, aralarında mübahisə yaranıb və əsəbiləşərək bunu edib, Onun bu əməli qanunla xuliqanlıq kimi qiymətləndirilir. Faktla bağlı qanun çərçivəsində tədbirlər görəcəyik. Amma məsələyə başqa cür don geyindirənlərin niyyətini başa düşmürəm. Məncə, məsələni başqa istiqamətlərə yozmaqla onlar təxribat yaratmaq istəyirlər".

Həmin hadisənin ertəsi günü isə bir qrup vəhhabi ilə Müşfiqabad camaatı arasında qarşıdurma olub. Məlumatda deyilir ki, vəhhabilər namaz üçün məscidə gələn şiə əhlini Sabirabaddakı saqqal məsələsinə görə təhqir ediblər. Hətta hər iki qrup arasında baş verən dava nəticəsində yaralananlar olub. Qeyd edək ki, bu məsələ ilə bağlı iyulun 7-də məscidin imam-camaatı Qaradağ rayonu 10-cu polis bölməsinə çağırılıb. Saxlanılan radikal təkfirçilər izahatlarında bildiriblər ki, dindarların imam-camaatı Rauf Əhmədov vəhhabilərə bədən xəsarəti yetirib və onlardan birinin barmağını sındırıb. Rauf Əhmədov isə izahatın həqiqəti əks etdirmədiyini söyləyib və təhlükəsizlik kameralarının qeydə aldığı videoların araşdırılmasını tələb edib. Məlumata görə, təhlükəsizlik kameraları araşdırılır.



Daha sonra sosial şəbəkələrdə xəbər yayılıb ki, vəhhabilər 160 maşınlıq karvanla qisas məqsədi ilə Sabirabada gediblər. Deyilirdi ki, maşın karvanından yalnız 15-i Sabirabada daxil olub. Bakının Qaraçuxur qəsəbəsindən yola çıxan vəhhabilərin qarşısının alınması üçün yol boyu postlar qurulub, avtomobillər yoxlanılıb. Silahlı xüsusi təyinatlılar tərəfindən avtomobillərin Sabirabad rayonuna getməsinin qarşısı alınıb. Lakin 15 avtomobil barrikadalara baxmayaraq Sabirabada daxil ola bilib. Sabirabadda avtomobildən düşən vəhhabilər polis əməkdaşları tərəfindən qarşılanıb. Onlar yerli əhalini təhqir etdikdən sonra avtomobillərinə minərək geri qayıdıblar. Polis avtomobilləri Bakıya qədər müşayiət edib.

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov ANS-ə açıqlamasında bildirib ki, kimlərsə qarışıqlıq yaratmaq istəyir:** "Yayılan söz-söhbətin hamısı əsassızdır. Hazırda Azərbaycanda ictimai təhlükəsizlik tam nəzarət altındadır".

### Pənah Hüseyn: "Buna heç cür haqq qazandırmaq olmaz..."

**Sabirabaddakı hadisəyə münasibət bildirən sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn hadisəyə bu şəkildə şərh verdi:** "Mən rayonda ünsiyyətdə olduğum şəxslərlə, AXP rayon təşkilatı ilə əlaqə saxlayıb məlumat almışam. İstisna eləmək olmaz ki, məsələ bir qədər şişirdilib. Mənə deyilənə görə, zorakılığa məruz qaldığı bildirilən şəxs guya bazarda ticarət aparan şəxslərlə şiələrin dini hisslərini qıcıqlandıran mübahisələr yaradıb, təbliğat aparırmış. Buna görə ona bir neçə dəfə xəbərdarlıq edilib ki, bunu etməsin və bazara gəlməsin. Əlbəttə ki, heç bir şey əsas ola bilməz ki, kimsə kiməsə linç məhkəməsi qurub, özü hökm verib cəza kəssin və yerinə də yetirsin. Xüsusən saqqal kəsmək kimi hərəkətlər bəyənilə bilməz, buna heç cür haqq qazandırmaq olmaz. Lakin "şiələr bütlərə etiqad edir, müsəlman deyil, və canları malları, ailələri "möminlərə" halaldır" da demək olmaz. Bu, dini təbliğat deyil, insanları təhqir və cinayətə təhrikdir, müsəlmanlığa, islami və milli birliyə, qardaşlığa ziddir, nifaqdır, düşmənçilikdir. Fəsadları da olacaq və necə ki, olur. Əgər biri şiəyəm deyib digər məzhəblərə, ümumiyyətlə, dinə münasibətə görə fərqli düşünənlərə qarşı fərqli mövqedə durursa, o da eyni qiymətə layiqdir".

**Pənah Hüseyn saqqal kəsən Rəmzi Zeynalovla bağlı da danışdı:** "Mənə mətbuatda adı çəkilən rayon sakinini normal xarakterizə etdilər. Lakin onunla bağlı yayılan şəkillər montaj-filan deyilsə, hər halda, bəzi məsələləri aydınlaşdırmaq lazımdır. Mənə onu da dedilər ki, sələfilərin bir neçə yüz avtomobillə Sabirabada yürüş etməsi şayiəyə oxşayır. Belə ki, onu demək olar, görən olmayıb, hamı kimdənsə eşidib. İstənilən halda mən güman etmirəm ki, Sabirabadda dini zəmində iri təxribat salmaq mümkün olsun. Camaatımızın, dindarların səviyyəsi, ənənəsi buna yol verməz. Eyni zamanda Azərbaycanda bu istiqamətdə nifaq salınması cəhdlərinə də göz yummaq olmaz".

**"Bu addımı kim atıbsa çox ciddi səhv edib və həmin şəxs özbaşınalığa görə cəzasını almalıdır". Bunu isə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə Sabirabadda vəhhabi təriqətindən olan şəxsin saqqalının qırxılmasını "Turan"a şərh edərkən bildirib.**

**Paşazadə bu addımın daha çox təxribat xarakterli olduğunu, hansısa qüvvələrin ölkədə daxili sabitliyi pozmaq istədiyini bildirib. Onun fikrincə, ölkə daxilində məzhəbdaxili qarşıdurmalar yaratmağa qadir qüvvələr yoxdur. Ayrı-ayrı şəxslər arasında "kiçik söz-söhbət" ola bilər, amma bu, elə şəxslər arasında məsələ kimi də qalacaq:** "Azərbaycanda geniş mənada dini tolerantlıq var, bu səbəbdən məzhəblərarası toqquşmaların baş verməsi mümkün deyil". **QMİ sədri mətbuata tövsiyə verməyi də unutmayıb. Onun fikrincə, mətbuat bu məsələyə həssas yanaşmalı, hadisəni şişirtməməlidir.** "O ki qaldı kimlərinsə neçə maşınla buradan Sabirabada hərəkət etməsi, vəhhabilərin kimlərəsə kütləvi hücum etməsi kimi əsassız xəbərlərin yayılmasına bu daha çox hadisələrin qızışdırılmasında maraqlı olan qüvvələrin təxribatına oxşayır", - QMİ sədri qeyd edib.

Əlavə edək ki, sosial şəbəkələrdə Rəmzi Zeynalovun elə vəhhabi təriqətinə mənsub olduğu güman edilən saqqallı şəxslərlə fotosu yayılıb və böyük marağa səbəb. Bu üzdən bir çoxları onun təxribatçı olduğunu vurğulayıblar.

❑ Fərahim İLQAROĞLU

# İŞİD-ə qoşulan Ucar sakininin hekayəti

## Natiq Hüseynov Suriyadakı döyüşlərdə fərqləndiyinə görə İŞİD-ə dəvət olunub

**İraq Şam İslam Dövləti (İŞİD) silahlı qruplaşması yaranandan Azərbaycandan onlara qoşulanlar olub. Onlar arasında vaxtilə Suriyaya gedərək Bəşər Əsədə qarşı döyüşənlər üstünlük təşkil edir. Ancaq İŞİD İraqı işğal edərək dağıntılar törətməyə başladıqdan sonra ölkəmizdən bu terror təşkilatının sıralarına qoşulanların sayı artıb.**



Düzdür, zaman-zaman ölkəni tərk edərək İŞİD-ə qoşulmaq istəyən şəxslər hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Amma Azərbaycanda hazırda İŞİD-ə qoşulmaq istəyənlərin axınının qarşısını almaq tam mümkün olmayıb. Azərbaycanda ailəsini atıb, İŞİD-ə görə İraqa döyüşməyə gedənlərdən biri də Ucar sakini Hüseynov Natiq İnqilab oğludur. "Yeni Müsavat" İraqa gedərək İŞİD tərəfindən vuruşan Ucar sakini haqqında bəzi məlumatları toplaya bilib. 1978-ci ildə Ucarda anadan olan Natiq Hüseynov ailəlidir və iki uşaq atasıdır. Uzun müddət idmanın boks növü ilə məşğul olub. Rayondakı işsizlik ucbatından bir müddət Rusiyada yaşayıb. Orada bir müddət işləyib. Ailəsinə də vaxtı-vaxtında pul göndərirmiş. Bir müddət sonra isə deportasiya olunub. Ailəsi ilə Bakıya köçməli olan N.Hüseynov burda öz qohumlarına qoşulub. O tez-tez bağlanan "Əbu-Bəkr" məscidinə gedirmiş. Bütün nəsli şiə olan N.Hüseynov bu yoldan imtina edərək Bakıda vəhhabilərə qoşulub. Atası İnqilab bunu öyrənəndə onun rayona qayıtmasını tələb edib. Lakin Natiq atasını dinləməyib. Natiqdən polisə şikayət olunub və Ucarda polis şöbəsinə çağırılarkən deyib ki, heç kim və heç nə onu bu yoldan döndərə bilməz.

Natiqin növbəti addımı isə vəhhabi olduğuna görə onu qəbul etməyən ailəsindən uzaq durmaq və həyat yoldaşından ayrılmaq olub. Evdən qaçan Natiq Hüseynovun sorağı Suriyadan gəlib. O burda müxaliflərə qoşularaq Bəşər Əsədə qarşı döyüşüb. Suriyada olarkən Natiq tez-tez ailəsinə zəng vurub. Hətta ailəsini Suriyaya aparmaq istəyib. O ailəsi ilə hər dəfə danışanda İŞİD-in yaranacağının və hər şeyin yaxşı olacağının anonsunu da verirmiş. Natiq Suriyadakı döyüşlərdən sonra İraqa keçib. İŞİD-dən təklif alan N.Hüseynov bu təklifə müsbət cavab verib və İŞİD-in keçirdiyi böyük hərbi təlimlərə qatılıb.

İndi isə onun İraqda gedən döyüşlərdə vuruşduğu bildirilir. Ancaq nə öldüsündən, nə də ki qaldısından xəbər var. Atası İnqilab oğlunun dərdindən ağır xəstəliyə tutulub, anası isə onu bu yola çəkənlərə lənət oxuyur.

N. Hüseynov barəsində isə Ucar Rayon Polis Şöbəsində cinayət işi açılıb, axtarışa verilib.

❑ Fərahim İLQAROĞLU

YENİ MÜSAVAT
N 173 (5882) 8 iyul 2014

# Anar Məmmədov "qış yuxusu"ndan ayıldı, "Yeni Müsavat"a son pisliyini etdi...

## "Ayı işi" qayıtdı; Ziya Məmmədovun oğlu "Yeni Müsavat" və "Azadlıq" qəzetlərinə kəsilən cərimələrin icraya yönəldilməsi üçün məhkəməyə üz tutdu; Rauf Arifoğlu: "Günah bizdən getdi..."

**Nəqliyyat nazirinin oğlu Anar Məmmədov "Yeni Müsavat" və "Azadlıq" qəzetləri üzərində olan məhkəmə cərimələrini yenidən icraata yönəltdirib. Bu barədə "Yeni Müsavat" qəzetinin redaksiyasına daxil olan məhkəmə qərarında deyilir. Nizami Rayon Məhkəməsinin hakimi Burcayev İmranın sədrliyi ilə qəzetlərin iştirakı olmadan keçirilən məhkəmə prosesində bir qərar alınıb. Orada deyilir: "Tələbkar Məmmədov Anar Ziya oğlunun nümayəndəsi Məmmədov Ruslan Tofiq oğlu 19 iyun 2014-cü il tarixdə şikayət ilə məhkəməyə müraciət edərək, Bakı şəhər Nizami Rayon Məhkəməsinin 14 fevral 2014-cü il tarixli 8(007) - 174/2014 saylı qərardadının ləğv edilməsini xahiş etmişdir.**

Məhkəmə şikayəti və iş materiallarını araşdırıb hesab edir ki, tələbkar Məmmədov Anar Ziya oğlunun nümayəndəsi Məmmədov Ruslan Tofiq oğlu tərəfindən verilmiş şikayət təmin edilməlidir".

Məsələnin məğzi sadədir: Anar Məmmədov 2010-cu ildə Qəbələdə kəsdirib yediyi ayı haqda yazan iki qəzetə kəsdirdiyi 4 min manatlıq cəriməni dondurmuşdu, onu yenidən icraata yönəltdi. Məhkəmə də "nervilənmiş", dəcəl nazir oğlunun kaprizlərinə alət olaraq, tərəf kimi qəzetlərə xəbər etmədən, gizlicə hökm çıxarıb... Xatırladaq ki, qəzetlərə qarşı 500 min iddia ilə qaldırılan, 4 minlə yekunlaşan proses tərəflərin anlaşması ilə nəticələnmişdi. Anar Məmmədov bu məbləğdən imtina etməmişdi - onun icraatını müvəqqəti olaraq dayandırmışdı. Gerizəkalı bir zehniyyət ortadadır - nazir oğlu düşünürmüş ki, bu cərimələr üzərlərində qaldığı sürəcdə qəzetlər ondan yazmağa cəsarət etməzlər.

***

Bəlkə də belə də olacaqdı. Anarın əmisi oğlu Aynar Məmmədov əməkdaşımız Fərahim İlqaroğluna qarşı sui-qəsd sifariş etməsəydi, bu məsələ də açılmasaydı, şübhəsiz, bizim Anar Məmmədovla problemimiz olmayacaqdı. Üstəlik, hətta mümkün idi ki, onun ətrafındakı ağıllı adamlar sayəsində bu qəzetlərlə münasibətlər yenidən qurulacaqdı. Qeyd etmək lazımdır ki, bu istiqamətdə təşəbbüslər var idi. Lakin gözlənilmədən ölkənin ən böyük qəzetinin tanınan reportyoru sui-qəsdə məruz qaldı və onu döydürənlər ifşa olundu. Ziya Məmmədov klanına aid növbəti "tərbiyəli cocuq" jurnalistə qəsd sifariş veribmiş!

Bununla da savaş yenidən qızışdı və arada Anar Məmmədovun da adı zərbələrə məruz qaldı. Onun atası, ölkənin ən korrupsioner və həm də güclü naziri traktorçu İlqar kişinin oğlu Fərahimlə mübarizəyə başladı. Qardaşı oğlunu onun davamlı şikayətlərindən qorudu və nəhayətdə, Aynarı həbsdən yayındırdı. Amma bu qələbə Məmmədovları ölkədə növbəti dəfə rəzil etdi. Ziya Məmmədov oğlu Anarın adına bağlanan "Ayı işi"ndən daha ağır zərbə aldı...



Anar Məmmədov

İndi də Anar Məmmədov növbəti dəfə düşünülməmiş, emosional addım atıb. Onu qəzetlərdən qoruyan zəif divarı - məhkəmə cərimələsini - öz üstünə uçurub. Cərimələrin icraatına növbəti dəfə hərəkət verməklə, Anar Məmmədov yenidən hədəfə çıxdı və 4 il öncə yediyi ayını qəzetlərin daha bir dəfə qusdurmalarına şərait yaratdı...

***

"Yeni Müsavat"ın hüquqşünası Vaqif Hüseyn açıqlamasında bildirdi ki, bu qərarla bağlı müvafiq sənədlər hazırlanır, apelyasiya şikayəti veriləcək. Hüquqşünas qəzetin sona qədər öz hüquqlarını müdafiə edəcəyini qeyd etdi.

**"Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu isə musavat.com-a bildirdi ki, Anar Məmmədov səhv edib:** "Onu bizdən hörmət etdiyim adamlar xahiş etmişdilər. Lakin deyəsən, o gənc elə bilir biz üstümüzə düşən iki min manat cəriməyə görə susmuşduq. İndi aradakı xahişləri də, aylarla davam edən "Ayı" sükutunu da yerə vurdu. Bunun altını özü çəkəcək - günah bizdən getdi. O da atası kimi Fərahimin üzərində qələbə çalmaq üçün özünün cinayətkar əmisi oğluna dəstək verməyə qalxıbsa, səhvə yol verib. Fərahim İlqaroğlu məhz onun əmisi oğlunun sifarişi ilə döyülüb, 4 dişi sınıb, xəstəxana yollarında qalıb; üstəlik, Anarın nazir atası onu himayə edir. Və təbii ki, bu halda biz Ziya Məmmədov və onun çevrəsindən yazmalıydıq. Əgər Anar Məmmədova bu toxunursa, dünəndən toxunsun".

**Baş redaktor qeyd etdi ki, Məmmədovlar terrorist bir klana çevrilib:** "Buna dair əlimizdə sübutlar var. Onlar əməkdaşımıza qarşı pusqu qurub, müxbirimiz vəhşicəsinə döyülüb. Son günlərin gedişatı belə bir şübhə yaradır ki, bu, bir ailənin cinayətidir, ortaq planlaşdırılıb. Anar Məmmədov bu addımı ilə göstərir ki, jurnalistin döyülməsi ilə bağlı sifarişin verilməsində özü də iştirak edib və məsələdən xəbəri olub".

**R.Arifoğlu Məmmədovların tarixdə biabırçı adla qalacaqlarını söylədi:** "Ziya Məmmədov və çevrəsindəkilər bilsinlər ki, "Yeni Müsavat" 25 illik tarixə malikdir. Bu qəzeti çoxları çökdürmək istəyib, amma bacarmayıb. Onlar da bu istəklərinə müyəssər ola bilməyəcəklər. Əksinə, özləri tarixə biabırçı adla düşəcəklər".

❑ E.SALAMOĞLU

# Fərahim İlqaroğlunu döyənin ailəsi üzr istədi, bəs Məmmədovlar?

## Jurnalistə qarşı sui-qəsdin sifarişçisi nə onun səhhəti ilə maraqlanıb, nə barışıq təklif edib; hüquq müdafiəçiləri vəziyyətin bu həddə çatmasından narahatdır



Fərahim İlqaroğlu

**"Yeni Müsavat"ın döyülən əməkdaşı Fərahim İlqaroğlundan yalnız bu cinayəti edən Feyruz Termişinin ailəsi üzr istəyib. F.Termişinin anası və qohumları jurnalistin yaşadığı evə gələrək övladlarının bağışlanmasını istəyiblər.**

F.İlqaroğlu isə onlara döyülmə kadrlarını əks etdirən videonu göstərib. Ailəsi F.Termişinin bu cinayəti təsir altında törətdiyini qeyd edib.

Adı bu işin əsl sifarişçisi kimi keçən deputat Elton Məmmədovun oğlu Aynar Məmmədov isə bir dəfə də olsun müxbirimizlə təmas yaratmayıb və üzrxahlıq etməyib.

Onun deputat atası da jurnalistin taleyi ilə maraqlanmayıb. F.İlqaroğlu isə deyir ki, Məmmədovlar ondan üzr istəyəcəyi halda nə qərar verəcəyini düşünməyib. Amma indiki şəraitdə hər hansı bir təmas olmayıb. Bəs üzrxahlıq, barışıq hüquqi rəy sayılırmı? Əgər doğrudan da Məmmədovlar qeyri-rəsmi şəkildə üzrxahlıq etsələr, tərəflər arasında barışıq olsa, istintaq və məhkəmə buna adekvat qərar verə bilərmi? Yəni F.İlqaroğlundan üzrxahlıq edilsə, bu hal cinayət işinə xitam verilməsi üçün əsas sayıla bilərmi?

***

**Qəzetimizin hüquqşünası Vaqif Hüseyn deyir ki, F.İlqaroğluna qarşı sui-qəsd olub və bu, ictimai təhlükəli əməldir. Hüquqşünasın sözlərinə görə, jurnalistin işində Cinayət Məcəlləsinin 221-ci maddəsi (xuliqanlıq) ilə cinayət işi açılıb:**

"Bir çox hüquqşünaslar hesab edirlər ki, bu işdə Cinayət Məcəlləsinin 73-cü maddəsi mümkün deyil. Çünki Fərahim İlqaroğluna qarşı xuliqanlıq, yəni ictimai təhlükəli əməl həyata keçirilib. Ancaq 73-cü maddəyə görə, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda, ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.



Lakin jurnalistə qarşı xuliqanlıq ictimai təhlükəli əməldir, onun üçün tərəflərin barışması cinayət işinə xitam verilməsinə əsas ola bilməz".

**V.Hüseyn bunu yalnız bir halda mümkün sayır:** "Əgər jurnalistə qarşı sui-qəsdi təşkil, sifariş edən şəxsə cəza tətbiq edilərsə, o halda bu maddə yüngülləşdirici hal kimi qeyd edilir".

***

Hüquq Müdafiəçilərinin Monitorinq Qrupunun üzvü Səidə Qocamanlı "Yeni Müsavat"a deyib ki, bu işi daim nəzarətdə saxlayırlar. Hüquq müdafiəçisinin sözlərinə görə, iqtidar nümayəndələri ilə görüş olub və jurnalistin məsələsini qaldırıblar.

**S.Qocamanlı istintaqın dondurulmuş vəziyyətdə saxlanmasını belə şərh etdi:** "Bilmirlər ki, məsələyə hansı tərəfdən yanaşsınlar. Sadəcə, özbaşınalıqdır, ağını çıxarıblar. Buna nə ad verəsən? Ancaq bilin ki, bu iş hər zaman nəzarətimizdədir".

**Hüquq müdafiəçisi beynəlxalq təşkilatların da məsələdən agah olduqlarını qeyd etdi:** "Biz jurnalistlərlə, söz azadlığının vəziyyəti ilə bağlı görüşlərdə Fərahimin işini də onların diqqətinə çatdırmışıq. Bu iş hesabatlarda yer alacaq. Jurnalistə qarşı bu cinayət yolverilməzdir".

***

Qeyd edək ki, F. İlqaroğlu aprelin 25-də yaşadığı binanın qarşısında vəhşicəsinə döyülüb. Onu döyən Feyruz Termişi həbs edilsə də, bu əmri verən kikboksinq üzrə idmançı Tural Bayramov cəmi 20 sutkalıq inzibati həbslə cəzalandırılıb.

T.Bayramovun bu günə qədər ifadəsi alınmayıb. İdmançının istintaqa ifadəsi ən vacib məqamdır ki, jurnalistin hansı səbəblə və kimlər tərəfindən döyülməsinin sifariş edildiyi üzə çıxsın. Əslində ictimaiyyətə və "Yeni Müsavat"a məlumdur ki, T.Bayramov bu tapşırığı Aynar Məmmədovdan alıb. Lakin deputat oğlunu və idmançını istintaqdan qoruyur.

Çünki idmançı istintaqa məsələnin bütün təfərrüatını açıqlasa, bu, Məmmədovlar üçün yaxşı nəticələnməyəcək.

Xatırladaq ki, "Yeni Müsavat" və musavat.com kollektivi Z.Məmmədovun rəhbəri olduğu Nəqliyyat Nazirliyi yaxınlığında piket keçirməyə qərar verib. Artıq bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunub.

Meriya piketə icazə verməyib. Qəzet əsassız cavaba görə BŞİH rəhbəri Hacıbala Abutalıbovu məhkəməyə verməyi planlaşdırır. Eyni zamanda aksiya ilə bağlı yenidən BŞİH-ə müraciət etməyi və gələn həftədən etirazlara başlamağı qərarlaşdırıb.

❑ E.SALAMOĞLU

YENİ MÜSAVAT
N 173 (5882) 8 iyul 2014



# Nifaq toxumu səpənlər

Xalid KAZIMLI

**Ölkəmizdə körüklənməkdə olan məzhəb qarşıdurması ilə bağlı narahatlıqlar təbiidir. Belə bir təhlükə gerçəkdən də mövcuddur.**

**Birincisi,** ortalığı qarışdırmaq istəyənlər göz önündədir və onların xarici himayədarlarının olması da sirr deyil.

**İkincisi,** bu sayaq qarşıdurmanın tarixi kökləri var və o qədim dövrlərə dayanır. Hiss olunur ki, icmalar arxaik nifaqları unudub irəliyə, gələcəyə baxmaq səviyyəsinə çatmayıblar, tərəflər tez-tez tarixə ekskurs etməyə və 500, 1000, 1400 il əvvəl yol verilmiş ədalətsizliyə dair ayırdetmə proseduru başlatmağa hazırdırlar.

**Üçüncüsü,** beynəlxalq vəziyyət elədir ki, regionumuzda baş verən hadisələr istər-istəməz ölkəmizə də inikas edir və insan kütlələrini həyəcanlandırır. Bəzən ayrı-ayrı qruplar hansı dövlətdə yaşadıqlarını, öz dövlətinin qayda-qanunlarını unudaraq, başqa dövlətlərin daxilində gedən hərbi, siyasi, dini münaqişələrdə tərəf tutmağa meyllənirlər.

Bizim öz dövlətimizin dərd-səri, problemləri isə başdan aşır, özümüzə yeni cəbhə-cinah açmasaq da olar.

Ancaq bu xüsusda ürəkaçan bir durum da var. O da əhalinin mütləq əksəriyyətinin məzhəb, sekta mübahisələrinə qoşulmaması, qarışmamasıdır. Dini təfriqə salmaq istəyənlər bir ovucdurlar. Hətta ölkəmizdəki möminlərin, ibadət edənlərin əksəriyyəti də gərgin anlarda ağıl-kamal nümayiş etdirməyin, hisslərə qapılmamağın tərəfdarıdır.

Başqa sözlə, təbii şəraitə qalsa, bu ölkədə məzhəblər arasında nifaq toxumunun cücərməsi mümkün deyil. Əhali etina etməyəcək, möminlərin çoxu pasifist mövqe tutacaq.

Yetər ki, dövlət orqanları öz işlərində ayıq-sayıq olsunlar, situasiyaya nəzarəti əldən verməsinlər, meydanı təfriqəçilərə buraxmasınlar.

Bir sıra qaragüruhçu dairələr var ki, vaxtaşırı dövlətin nəbzini yoxlayır, araqarışdırıcı, hədələyici bəyanatlarla çıxış edirlər. Onlar öz cavablarını vaxtında və sərt şəkildə almasalar, bir sonrakı addımları daha radikal ola bilər.

Ancaq açıq-aşkar hiss olunur ki, ortalığı qarışdırmaq istəyənlər dərhal nəzarətə götürülür. Onlara qarşı aparılan pofilaktik tədbirlər ləngimədən nəticə verir və dünən qisasdan danışan, dövlətə vaxt verən adamlar dönüb multukulturalizmdən, tolerantlıqdan bəhs edirlər.

Demək, başqalarını hədələyənin özünü babat hədələyəndə hansı ölkədə yaşadığını, başına nələr gələ biləcəyini başa düşür.

Bu coğrafiyada başqa cür mümkün deyil. Hələ sovet vaxtında da beləydi. Öz ateist baxışlarıyla məşhur olan kompartiya hakimiyyətinin din siyasəti əslində o qədər də aqressiv olmasa da, qətiyyətli idi. İnsanlar o qədər təmtəraqla olmasa da, dini mərasimlər təşkil edir, ibadət yerlərində toplaşırdılar. Fəqət heç kəsə dini dövlətin işinə qarışdırmağa, başqa dinlərə və məzhəblərə qarşı nifrət aşılayan təbliğat aparmağa icazə verilmirdi. Bu, o dövrün cinayət qanunvericiliyində də nəzərdə tutulmuşdu. Uzun illər ərzində sünni-şiə, müsəlman-xristian söhbətləri üzərinə qoyulmuş yasaq elə bir vəziyyət yaratmışdı ki, artıq çoxları "insan insandır, nə fərqi var, kimin dini, məzhəbi nədir" deyəcək səviyyəyə çatmışdılar.

SSRİ-nin dağılmasıyla çox şeylər dağıldı, milli özünüdərk prosesi ilə yanaşı, dini mənsubiyyət faktoru da ön plana çıxdı. O vaxta qədər sərt qanunlarla və inzibati üsullarla tənzimlənən din sektoru birdən-birə azadlıq əldə etdi və öz təsir dairəsini xeyli artırdı.

Beləcə, bir zamanlar dindar və ateist insanların arasında fərq qoyulmayan ölkədə hazırda məzhəb fərqini dərinləşdirməyə çalışan, "bizdən olanlar" və "bizdən olmayanlar" ayrı-seçkiliyi aparmaq istəyənlər var.

Hakimiyyət strukturları bir qədər boş tərpənsələr, regiondakı başqa ölkələrin rəsmi dövlət dini halına gəlmiş məzhəblərin ölkəmizdəki tərəfdarları bir-biriylə açıq qarşıdurmaya gedəcək və əhalinin bitərəf kəsimini qızışdıraraq onlardan dəstək ummağa, xalqı iki tirəyə bölməyə çalışacaqlar.

Bu adamları öyüd-nəsihətlə, müdrik tövsiyələrlə yollarından döndərmək, sülhə, anlaşmaya çağırmaq mümkün deyil. Çünki başqa yerdən veriləsi əmrə müntəzirdirlər. Belə adamların qarşısını yalnız dövlətin sərt qanunları ala bilər.

# AXCP ilə ADP arasında gərginlik

**ADP sədri Sərdar Cəlaloğlu aznews.az-a müsahibəsində Müsavat Partiyasının və AXCP-nin ünvanına sərt sözlər işlədib. O bildirib ki, Müsavatla AXCP-nin tutduğu mövqe Azərbaycan müxalifətini məhv edib: "Nə qədər ki, bu iki partiya var, ölkədə müxalifətin gücü, potensialı ilə nəsə etmək mümkün olmayacaq".**

**İttihamlara qarşı tərəfin də cavabı gecikməyib. AXCP sədrinin müavini Fuad Qəhrəmanlı S. Cəlaloğlunu cəsarətsizlikdə qınayıb:** "Azərbaycanda vəziyyətin dəyişməməsinin səbəbi nə Xalq Cəbhəsidir, nə də digər partiyalar. Ölkədə bu vəziyyətin davam etməsinin səbəbi ancaq hakimiyyətdir. Sərdar Cəlaloğluna üzümü tutub deyirəm ki, əgər özündə cəsarət tapıb hakimiyyəti tənqid edə bilmirsənsə, bu nə AXCP-nin, nə də Müsavatın problemidir. Sərdar Cəlaloğlu hakimiyyəti tənqid etmək əvəzinə, iqtidarla mübarizə aparanlara qarşı çıxış edir. Bu isə nəticədə onun iç üzünü ortaya qoyur".

F.Qəhrəmanlı onu da bildirib ki, S.Cəlaloğlu kimiləri öz yolunu müəyyənləşdirə bilməyincə, müxalifət qələbədən kənarda qalacaq.

**S.Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında F. Qəhrəmanlının onun fikirləri ilə dəqiq tanış olmadan münasibət bildirdiyini söylədi:** "Belə görünür ki, Fuad Qəhrəmanlı mənim fikirlərimi oxumayıb, nə dediyimdən xəbəri yoxdur. Oxusaydı görərdi ki, mən iqtidarla müxalifəti eyni dərəcədə tənqid eləmişəm. Mən demişəm ki, iqtidar, Müsavat və AXCP Azərbaycan xalqını inkişafdan saxlayır. Mənim guya iqtidarı tənqid etmədiyimi iddia eləmək boş-boş sözlərdir. Mənim öz yolumu müəyyənləşdirməyimə gəlincə, mən öz yolumu seçəndə və bu yolla addımlayanda Fuad Qəhrəmanlı hələ orta məktəbdə oxuyurdu. 1989-cu ildə mən Azərbaycanın azadlığı uğrunda xalq hərəkatına qoşulanda Fuad Qəhrəmanlı orta məktəbdə "Lenin baba" şeirini söyləyirdi. İndi mənə yol göstərməyi onun nə yaşına, nə başına, nə mövqeyinə, nə də əxlaqına uyğundu. Özü bilər, amma insan gərək başqasına yol göstərəndə birinci növbədə özü hansısa üstünlüyə malik ola. Mən Müsavatla AXCP-yə ona görə yol göstərirəm, ona görə onların yanlışlıqlarını dilə gətirirəm ki, Azərbaycan xalq hərəkatının ilk təşkilatçılarından, rəhbərlərindən biri olmuşam, Azərbaycanda 10 il radikal müxalifətin avanqard partiyasına rəhbərlik eləyən bir adam olmuşam. Mənim haqqım var kiməsə irad tutam. Amma Fuad Qəhrəmanlı kimi adamların mənə irad tutması üçün gərək ən azı mənim qədər xidmətləri olsun".



**Sərdar Cəlaloğlu:** "Əli Kərimli belə, mənə cavab versə, yenə də məni narahat eləməz, çünki gərək əvvəlcə o, mən səviyyəyə qalxa"



**Fuad Qəhrəmanlı:** "Sərdar Cəlaloğlu kimiləri öz yolunu müəyyənləşdirə bilməyincə, müxalifət qələbədən kənarda qalacaq"

**S.Cəlaloğlu onu da dedi ki, bu gün onun fəaliyyəti təkcə Azərbaycan müxalifətinin yox, Azərbaycan Elmlər Akademiyasının bütünlükdə fəaliyyətindən, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinə daxil olan bütün dini alimlərin fəaliyyətindən qat-qat üstün və səmərəlidir:** "Mən indiki halda beynəlxalq şəraiti nəzərə alıb aktiv siyasi mübarizənin əleyhinəyəm. Amma bekar da dayanmamışam. Müqəddəs Quranla bağlı bir təfsir yazmışam, elə bir sistem vermişəm ki, teologiyada inqilab edəcək. Eyni zamanda yeni bir elm hazırlamışam. Bu, təkcə Azərbaycan səviyyəsində yox, tarix səviyyəsində bir nailiyyətdir. Mən bu nailiyyətimlə özümü nə Platonla, nə Aristotellə müqayisə edə bilərəm. Çünki mənim hazırladığım sistem onların hazırladığı sistemdən fərqli olaraq mütləq həqiqətlərin dərk edilməsinə imkan verir. Bilirsiniz, insanlar çox vaxt Allahı ona görə tanımırlar ki, Allah o qədər böyük, o qədər alidir həmin insanların ağlına yerləşmir. Mən indi məcbur olub bu sözü deyirəm ki, bəzi adamların mənə irad tutmaları mənim onların ağlına yerləşməməyimlə bağlıdır. Qoy Fuad Qəhrəmanlı da nə deyir desin. O yox, Əli Kərimli belə, mənə cavab versə, yenə də məni narahat eləməz. Çünki gərək o, mənim səviyyəyə qalxa ki, mənə adekvat cavab verə bilə. Həqiqətin meyarı təcrübədir. Azərbaycanda Müsavatla AXCP-nin müxalifətin avanqardı olması 20 ildə hakimiyyət dəyişməsinə, demokratiyanın bərqərar olmasına, dünyada müxalifətin nüfuzunun qalxmasına gətirib çıxarıb? Bu sualın cavabı "yox"dur. Həqiqətin üzünə dik baxmaq üçün insanda kişilik, qeyrət lazımdır. Mən müxalifətin qeyrətini çəkən kişi kimi həqiqətin üzünə dik baxıram və deyirəm ki, Azərbaycanda AXCP ilə Müsavatın 20 illik fəaliyyəti ilə iqtidarın fəaliyyəti arasında fərq yoxdur. Mən alimlik eləmirəm, sadəcə, nəticəyə və təcrübəyə baxıb həqiqəti deyirəm".

Etibar SEYİDAĞA

# Müsavatdan Sülhəddin Əkbərin partiya yaratmasına münasibət bildirildi

## "Həmin partiyadan əməkdaşlıq üçün müraciət olarsa, müzakirə edilib cavab verilər"

**Xəbər verdiyimiz kimi, iyulun 6-da Azad Demokratlar Partiyasının təsis qurultayı keçirilib və Sülhəddin Əkbər partiyanın sədri seçilib. Məlumdur ki, Sülhəddin Əkbər uzun illər Müsavat Partiyasının rəhbərliyində təmsil olunub. 2010-cu ildə partiyadan istefa verdikdən sonra bir qrup tərəfdarı da onunla gediblər. S. Əkbər Rəsul Quliyevin lideri olduğu Açıq Cəmiyyət Partiyasına sədrlik etdiyi dövrdə Müsavat Partiyası ilə həmin partiyanın ikitərəfli əməkdaşlığı olmadı.**

Bunu bir çoxları əsasən R.Quliyevin Müsavata qarşı vaxtaşırı hücumları ilə əlaqələndirirdilər. İndi isə S. Əkbər R. Quliyevdən tamamilə uzaqlaşaraq özünün partiyasını qurub. Bəs Müsavat Partiyası S. Əkbərin yeni partiya yaratmasını necə qarşılayıb? Müsavat Azad Demokratlar Partiyası ilə münasibətlər quracaqmı və hansısa mərhələdə əməkdaşlıq edə bilərmi?



Sülhəddin Əkbər



Gülağa Aslanlı

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı dedi ki, hazırda partiyanın mövqeyinin necə olduğunu söyləyə bilməz. Çünki bu məsələ hələ Müsavatda müzakirə olunmayıb:** "Şəxsi mövqeyimsə ondan ibarətdir ki, Azərbaycan qanunlarına uyğun olaraq hər bir vətəndaşın siyasi partiya yaratmaq hüququ var. Kimsə yeni partiya yaradırsa, biz ona ancaq uğurlar arzulaya bilərik. Təki o partiya demokratiyanın inkişafı istiqamətində fəaliyyət göstərsin. Yeni yaranmış partiya ilə Müsavat Partiyasının münasibətlər, əlaqələr qurması məsələsinə gəlincə, hələ bu məsələ partiyada müzakirə olunmayıb. Əgər həmin partiyadan əməkdaşlıq üçün Müsavata müraciət olarsa, partiyamızın strukturlarında müzakirə edilib cavab verilər".

**"Sülhəddin Əkbərin yeni yaratdığı partiyaya Müsavat üzvlərindən keçənlərin olması gözlənilirmi" sualına isə G.Aslanlı belə cavab verdi:** "İndiyə qədər gedənlər gediblər. Bundan sonra kiminsə getməsi o qədər reallığa oxşamır".

Etibar SEYİDAĞA

# "Azərbaycan hakimiyyəti də tez və ya gec seçim etmək məcburiyyətindədir"

## Taleh Əliyev: "Siyasi partiyaların əsas vəzifələri xalqı seçki prosesinə hazırlamaq, öz ideya və siyasi platformasını xalqa çatdırmaqdır"

**Ümid Partiyası İcra Aparatının rəhbəri Taleh Əliyev bələdiyyə seçkilərinə hazırlıq, ölkədə və regionda baş verən ictimai-siyasi proseslərlə bağlı partiyanın mətbuat xidmətinin suallarını cavablandırıb. Taleh Əliyevlə müsahibəni təqdim edirik.**

***- Taleh bəy, Ümid Partiyasının sədri İqbal Ağazadə İcra Aparatının nəzdində Bakı və ərazisi işğal olunmuş rayon təşkilatlarının fəallarından ibarət məşvərətçi şura -Bakı Məclisinin yaradılması haqda sərəncam imzalayıb. Bakı Məclisi hansı məqsədlə yaradılır?***

- Sərəncamda da qeyd edildiyi kimi partiyada təşkilatlanma və təbliğat işinin gücləndirilməsi, partiya idarəçiliyində demokratikliyin və kollegiallığın artırılması, qərarların qəbulu zamanı daha çox üzvün rəyinin öyrənilməsi məqsədilə Bakı Məclisi təsis edildi. İnanıram ki, yeni qurum qarşısına qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək və bu müsbət təcrübə gələcəkdə digər siyasi partiyalarda da tətbiq olunacaq. Bu günə qədər belə bir struktur təkcə bizim partiyada deyil, başqa partiyalarda da mövcud olmayıb.

***- Ümumiyyətlə, son struktur dəyişikliklərindən və yeni şöbələrin yaradılmasından sonra partiyanın işlərində hansı yeniliklər var?***

- Ənənəvi istiqamətlərdə keyfiyyət dəyişiklikləri ilə yanaşı bəzi yeniliklər də etməyə çalışırıq. Yeni fəaliyyət istiqamətlərimizdən biri partiya üzvü olan gənclərin xarici dil biliklərinin artırılması və gənclər üçün müxtəlif mövzularda təlim və seminarların keçirilməsidir. Artıq keçən həftədən bu istiqamətdə fəaliyyətimizə start vermişik. İkinci istiqamət partiya saytının yenidən dizayn edilərək aktivləşdirilməsidir. Düşünürük ki, bu sayt təkcə partiyamızın virtual qərargahı funksiyasını oynamamalı, eyni zamanda elektron partiya funksiyasını özündə ehtiva etməlidir. Bilirsiniz ki, son illər bütün inkişaf etmiş dövlətlərdə olduğu kimi ölkəmizdə də elektron xidmətlər əhalinin rahatlığının və ən başlıcası şəffaflığın təmin edilməsi baxımından xeyli populyarlıq qazanıb. Saytımız fəaliyyətə başladıqdan sonra Ümid Partiyası Azərbaycanda ilk partiya olacaq ki, üzvlərinə və ölkə vətəndaşlarına e-partiya xidmətləri göstərəcək. Digər yeni bir fəaliyyət istiqamətimiz isə üzvlərimiz üçün müxtəlif sosial layihələr həyata keçirməkdir. Artıq bu istiqamətdə də müəyyən işlər görülüb, xüsusilə də partiyanın Qadınlar Təşkilatının təşəbbüsü ilə qadın üzvlərimiz üçün "Sağlamlığın Alternativi Yoxdur" adlı sosial aksiyalar təşkil edilib. Həkimlərin, psixoloqların və digər peşə sahiblərinin iştirakı ilə silsilə görüşlər keçirilir və bu tip tədbirlərin bundan sonra da davam etdirilməsini düşünürük. Ümumiyyətlə, üzvlərimizlə iş partiya fəaliyyətinin əsas istiqamətlərindən biri kimi bundan sonra da diqqət mərkəzində saxlanılacaq. Hesab edirik ki, üzvlərə yönəlik siyasətimiz sıralarımızın genişlənməsinə və xalq arasındakı etimadımızın daha da möhkəmlənməsinə gətirib çıxaracaq.

***- Bildiyimiz kimi, 2013-cü ilin prezident seçkiləri bitdikdən dərhal sonra Ümid Partiyası bu il keçiriləcək bələdiyyə seçkilərinə hazırlığa start verib. Seçkilərə hazırlıq necə gedir?***

- Qeyd etdiyiniz kimi, Ümid Partiyası 2013-cü ilin prezident seçkiləri bitdikdən dərhal sonra bu il keçiriləcək bələdiyyə seçkilərinə hazırlığa start verib. Ali Məclisin 8 fevral tarixli iclasında bələdiyyə seçkilərinə hazırlığa dair müvafiq qərar qəbul etdikdən sonra iki dəfə ümumrespublika müşavirəsi keçirilib və hazırlıqlarla bağlı vəziyyət dəyərləndirilib. İndiyə olan məlumata əsasən 700 bələdiyyə subyekti üzrə 2000 nəfər namizədimiz müəyyən olunub və hazırlıq işlərimiz davam etdirilir.

***- Bələdiyyə seçkilərinə hansı gözləntilərlə qatılırsınız?***

- Azərbaycanda hakimiyyətə gəlməyin yeganə yolu kimi seçkilərdə xalqın etimadını qazanmağı qarşısına məqsəd qoyan Ümid Partiyası bütün seçki prosesinə ciddi formada hazırlaşır. İnanırıq ki, apardığımız ardıcıl və məqsədyönlü siyasi mübarizə öz bəhrəsini verəcək. Xalqın seçimi iqtidarların qədərini müəyyən edəcək.

***- Partiyaların çoxu bələdiyyələrin statusunun olmamasını əsas gətirərək bələdiyyə seçkilərinə qoşulmaqda həvəssiz görünürlər. Onlardan fərqli olaraq Ümid Partiyası ciddi şəkildə seçkilərə hazırlaşır. Statusu olmayan bir qurum üçün seçkilərə qoşulmağın əhəmiyyəti varmı?***

- Bu gün doğrudan da bələdiyyələrin statusunun olmaması xalqda bu qurumlara qarşı inam və etimadı azaldıb. Amma bu əsas vermir ki, bələdiyyələrə qarşı eyni münasibəti siyasi partiyalar da nümayiş etdirsin. Siyasi partiyaların əsas vəzifələri xalqı seçki prosesinə hazırlamaq, statusu olmayan bələdiyyələrdən imtina etmək əvəzinə, bələdiyyələrin statusunun artırılması istiqamətində ardıcıl iş aparmaq və ölkədəki qeyri demokratik şəraiti nəzərə alaraq seçki müddətində olan imkanlardan maksimum yararlanaraq öz ideya və siyasi platformasını xalqa çatdırmaqdır. Açığı mən hesab edirəm ki, bələdiyyələrin statusunun olmamasını əsas gətirərək seçkilərə qatılmaq istəməyən siyasi partiyaların başlıca problemi namizəd məsələsidir. Nəzərə almaq lazımdır ki, prezident və parlament seçkilərindən fərqli olaraq bələdiyyə seçkiləri daha mürəkkəb seçkidir. Belə ki, 1718 bələdiyyə subyekti üzrə təxminən 17000 namizəd irəli sürülməlidir. Bu isə seçki prosesinə qatılan siyasi partiyalardan daha çox insan resursu tələb edir. Təbii ki, bu resursları olmayan və ya çox məhdud olan partiyalar da bu imkanı nəzərə alaraq seçki prosesinə qatılmaq istəmir və çox zaman boykot taktikasına üstünlük verirlər. Amma çox yaxşı olardı ki, yuxarıda sadalanan şərtləri nəzərə alaraq siyasi partiyalar bələdiyyə seçkilərində vahid seçki qərargahı yaratmaq istəməsələr də, seçkiləri birgə müşahidə etmək və namizədlərini əleyhinə təbliğat aparmamaq haqqında əməkdaşlıq etsinlər. Gələn il ölkəmizdə daha mühüm bir seçki - parlament seçkilərinin olacağını nəzərə almaq lazımdır. Bu baxımdan siyasi qüvvələrin bələdiyyə seçkilərində iştirakı və əməkdaşlığı çox önəmlidir.

***- Son dövrlər ölkənin iç siyasətində sanki bir durğunluq yaranıb. Mətbuatda bəzi bəyanatlar və müsahibələr istisna olmaqla siyasi arenada ciddi bir hadisəyə, prosesə rast gəlinmir. Bu nə ilə bağlıdır?***

- Bu gün dünyada baş verən geosiyasi qarşıdurmalar, xüsusən də regionda baş verən siyasi proseslər ölkədəki hazırkı situasiyanı diqtə edir. Mövcud iqtidarın uzun illər apardığı balans siyasətinin məntiqi nəticəsidir ki, bu gün qlobal güclər dövlətimizdən birmənalı seçim gözləyirlər. Amma bu gün belə bir seçim etmək gerçəkdən asan məsələ deyil. Ukrayna baş verənlər göstərdi ki, qəti seçim qarşı tərəfi sərt qərarlar qəbul etməyə vadar edir. Yanukoviç Avropa Birliyi ilə assosiativ sazişi imzalamaqdan imtina edən kimi Qərb onu hakimiyyətdən devirdi. Yeni hakimiyyətin açıq qərbyönlü bəyanatları isə Krımın Rusiya tərəfdən işğalı və Şərqi Ukraynada separatizmin baş verməsinə gətirib çıxardı. Amma eyni münasibət nə Belarusa, nə də Ermənistana tətbiq olundu. Çünki hər iki dövlət uzun illər idi ki, Rusiyanın yanında yer almışdı. Rusiya Ukrayna kimi Gürcüstan və Moldovanı eyni dərəcədə cəzalandıra bilmədi. Buna səbəb bu ölkələrin xeyli müddətdir ki, qərbyönlü siyasət həyata keçirməleridir. Azərbaycan isə Ukrayna kimi, daha dəqiq ifadə etsək Yanukoviç hökuməti kimi həm Qərblə həm də Rusiya ilə əməkdaşlıq etmək istəyir. Düzdür, Ukraynadan fərli olaraq Azərbaycan təkcə əlverişli geosiyasi məkanda yerləşmir. Rusiyanın təzyiq aləti Qərbin isə ən çox ehtiyac duyduğu enerji resurslarına malikdir. Azərbaycan hakimiyyəti Yanukoviç hökumətindən daha çox avtoritar olsa da, ölkədə baş verəcək siyasi proseslərə daha çox nəzarət edə bilir. Amma bütün bunlara rəğmən Azərbaycan da tez və ya gec öz seçimini etmək məcburiyyətindədir. Əslində bu gün ölkədəki səssizlik də regionda baş verən bu siyasi proseslərlə bağlıdır. Siyasi hakimiyyət müxalifəti iflic etməklə artan xarici təzyiq qarşısında tək qalıb. Hər iki tərəf həm Qərb, həm də Rusiya ondan birmənalı seçim gözləyir. Siyasi qüvvələrin isə bu mərhələdə bəyanat və müsahibə verməkdən başqa çıxış yolları qalmayıb və prosesə təsir etmək imkanları məhduddur. Ümid Partiyası olaraq biz dəfələrlə hakimiyyətin diqqətin problemin ciddiliyinə cəlb edərək həm xalqla, həm də siyasi müxalifətlə ümummilli məsələlər ətrafında yubanmadan dialoqa başlamağı təklif etmişik. Bu gün sözün həm yaxşı, həm də pis mənasında seçim imkanı hakimiyyətə məxsusdur. O istəsə həm millətin, həm dövlətin həm də özünün işıqlı sabahını seçə bilər, həm də yeni faciələrə bais ola bilər.

***- İraqda baş verən son hadisələrdən sonra orada yaşayan türkmənlər bir insanlıq darmı yaşayır. Buna münasibətiniz necədir?***



- İraq Şam İslam Dövləti adlı qruplaşmanın son dövrlər İraqda hərbi-siyasi fəaliyyəti, xüsusilə türklərin kompakt yaşadıqları əraziləri hədəfə alması, dinc əhaliyə qarşı xüsusi amansızlıq göstərilməsi, insanların kütləvi şəkildə qəddarlıqla öldürülməsi İraq türklərini çox ağır bir vəziyyətə salıb. Ölkədə yaşanan dəhşətli hadisələr səbəbi ilə köç etmək məcburiyyətində qalan türkmənlər böyük bir insanlıq dramı yaşayır. Evlərini tərk etmək məcburiyyətində qalan türkmənlər köhnə çadırlarda, yarımçıq tikililərdə və yol kənarlarında həyat mübarizəsi verirlər. Qarşıdurmalar nəticəsində qaçqın düşən türkmənlərin sayı 300 mini keçib. Bu bizi həqiqətən də çox narahat edir. Ümid Partiyası olaraq həm partiya, həm də "Qarabağ" Bloku səviyyəsində baş verənlərə münasibət bildirmişik. Hadisəni qəti şəkildə pisləmişik. Qeyd etmişik ki, hadisənin başlanmasından günlər keçsə də, hələ ki, İŞİD hücumundan əziyyət çəkən, qaçqın düşən əhaliyə beynəlxalq təşkilatlar təşkil olunmuş formada humanitar yardım göstərmir və vəziyyət çox kritik həddə çatıb. İraqda yaşanan böhranın ən böyük qurbanı olan türkmən xalqına yardım etmək üçün bütün beynəlxalq təşkilatlar oraya yardım etməli, bütün vasitələrdən istifadə edilərək baş verən faciələrin qarşısını almaq üçün ciddi addımlar atılmalıdır.

Biz dinləri, təriqətləri qəbul edirik. Hər kəs öz dini inancını ifadə etməkdə, vicdan azadlığı məsələsində sərbəstdir. Heç kim, heç bir dövlət, hərbi struktur ona müdaxilə edə bilməz. Bu gün Kərbəlanın hədəf seçilməsi Yaxın Şərqdə yeni bir vəziyyətin yaranmasına, süni surətdə konfliktin dərinləşməsinə xidmət edən bir məsələdir. Hədəf seçilən yerlər şiələr üçün müqəddəs bir yerdir və hər kəs buna hörmət etməyə borcludur.

İŞİD İraqda insanlığa sığmayan fəaliyyətlər həyata keçirir. Təşkilatın törətdikləri beynəlxalq konvensiyaların bütün müddəalarına ziddir.



# Saqqalabad

Zamin HACI
zaminhaci@mail.ru

## “Kəndə təzə dəllək gəlib, kəkili yandan qoyur”

*(Azərbaycan ata sözü)*

**Sabirabaddakı saqqal qırxılması olayına polisin münasibəti yetərincə dövlətçilik siyasətimizə uyğun oldu: “Dərhal hadisə yerinə getdik, tərəflərin izahatı alındı, tərəfimizdən araşdırma aparılır”. Əcəb də “dərhal” idi. Videodan görünürdü ki, bir nəfər vəhhabini bazarın içində ora-bura qovurlar, təhqir eləyib saqqalını yolurlar, ancaq polisdən əsər-əlamət görünmür. Nəinki polisdən, heç onun mülki geyimli qoçularından da.**

Səyavuş Novruzov YAP-ın 1 milyon üzvündən, üzvlüyə qəbulun sərtləşdirilməyindən-filandan danışıb. Görəsən, həmin o yapçılardan niyə bircəciyi həmin vaxt kütlənin içərisində olmayıb, siyasi sabitliyi polis gələnə qədər tənzimləməyib? Hanı xalq drujinaları? Müxalifətin mitinqlərində qoca və qadınlara şıllaq atan mülki geyimli, boynu dönməyən gədə-güdələr hara baxırlar?

Bunlar ritorik suallardır, əslində mən bir çox vətəndaşımız kimi Sabirabad olayının elə hakimiyyətin öz əliylə quraşdırdığı düşük bir oyun olmasına əminəm. Hakim qrup 21 ildir Azərbaycanı bu tip fırıldaqlarla idarə eləmirmi? Guya dini qarşıdurma varmış, guya sələfilərlə şiələr düşməndir, guya xaricdən casuslar gəlirlər, guya qeyri-hökumət təşkilatları vətənə xəyanət edirlər, guya, guya, guya... Suyu bulandırırlar, balıqlarını tuturlar.

Cəmiyyətin özünü idarə etmə, özünü qoruma mexanizmlərini - bələdiyyəni, seçkiləri, medianı, siyasi partiyaları məhv edəndən sonra balıq tutmağa nə var? Ona görə də cəmiyyətlə istənilən manipulyasiyanı, oyunu oynayırlar. Gah bir səfeh roman tapıb ətrafında “hırra-patriot” *(bu, ura-patriotizmin milli növüdür)* qışqırıqlar qopardırlar, aylar ötür, korrupsiya yaddan çıxır. Halbuki, məsələ “sənin içdiyin hər damcı çayın, xörəyə vurduğun hər qram yağın, xiyara səpdiyin hər çimdik duzun pulu bizim ailəvi ofşor şirkətimizin hesabına gedir” qədər sadədir. Gah fişəng atıb indiyə qədər keçirilməmiş, mənasız bir çempionatın bayramını 1 il qabaqdan qutlamağa başlayırlar. Dəli deyillər. Əylənirlər. Həmişə Trafalqar meydanında, Yelisey çölündə, nə bilim, Alp dağlarında əylənmək olmaz ki? Hərdən Sabirabad bazarında da tamaşalar qurulmalıdır.

Dünən internetdə gördüm, yarıgülməli, yarıağlamalı bir xəbəri də həvəslə yayırdılar. Guya vəhhabilər saqqalı qırxılan həmfikirlərinin *(dində ümumiyyətlə nə fikir ola bilər, daha bunu müzakirə eləmirəm)* qisasını almaq üçün 150 maşınla (!) Sabirabada gediblər, orda camaatı söyüb qayıdıblar. Bəzi sadəlövh insanlarımız isə “Niyə bu cür xəbər yayırsınız, cəmiyyətdə gərginlik artır, təfriqə çoxalır, İŞİD elə getdi, terror belə gəldi” tipində şərhlər verirdilər. Halbuki, açıq-aydın görünür ki, bu söhbətlərin yayılması, cəmiyyətdə təşviş, qorxu mühiti hakimiyyətə hava, su qədər lazımdır. Bütün Yaxın Şərq bu cür qorxu üzərində oturmuş sülalə rejimləri ilə doludur. Hamısı dindən qəşəng yararlanır, lazım gələndə bunun günahını həyasızlıqla Amerikanın-filanın üstünə atırlar.

Özü də bizimkilər fırıldaqçılıqda balans siyasəti yürüdürlər, hərtərəfli çalışırlar. Məsələn, bir gün İŞİD qorxulu olursa, sabah Avrasiya İttifaqı, Rusiya “canavarını” bədbəxt xalqa göstərirlər. Bax, gələr sizi yeyər ha! Sakit durun uşaqlar, mamanızın sözünə qulaq asın, kim tez yatsa səhər ona qoğal qırığı da verəcəyik, sümürər!

İstəsən bu anası ölmüş xalqın anasını qəbirdən çıxardıb yerlə yeksan da edə bilərsən. No problem! Mücərrəd xalqı söymək - buyur, nə qədər istəyirsən! Xalq... Axı onun heç yiyəsi də yoxdur! Konkret məmurlarla işin olmasın. Onların buynuzu var. Adamın qarnına soxurlar.

İndi yadıma düşdü, bir vaxtlar polislər özləri Zaqatalada-filanda bu vəhhabiləri aparıb elə şöbədə qırxırdılar.

Mən başqa bir saqqallını da xatırladım. Karl Marksın Bakının gözəl yerlərindən birində əzəmətli heykəli var idi. O yerdə yapistlər yanacaqdoldurma məntəqəsi açıblar. Buqələmunlar istənilən rejimdə xoşbəxt yaşayırlar. Daha buqələmun xoşbəxtliyinin önəmi nədir sualını verməyək. Bundan bizə nə?..

# Türkmənlərin qətliam hekayələri - şahidlər danışır

**Elbəyi Həsənli yaşadığı Sürix şəhərində İsveçrəyə sığınmış türkmənləri danışdırıb. Və ürək parçalayan, insanın qanını donduran bir yazı hazırlayıb. Həmin yazını təqdim edirik.**

***



Bəri başdan sünni və şiə qardaşlarımdan üzr istəyirəm. Çünki bu yazıda istər-istəməz bu ayrıntıları vurğulamaq gərəkdi. Yoxsa mahiyyəti anlamaq zor olar. Onu da vurğulayım ki, bu ayrı-seçkiliyin qəti əleyhinəyəm. Və İslam dünyasını birlik və bərabərlik içində, mədəni və iqtisadi intibah dövründə görmək arzusundayam. Ona da əminəm ki, xalqımız məzhəb savaşının dağıdıcı qasırğa kimi ölkələri necə xaraba qoymasından gərəkən nəticələri çıxarıb. Biz şərin hökmü ilə İslam aləmini qana çalxamış bu yabançı dalğanın təsir dairəsindən kənarda qalmağı bacaracağıq...

## Sürixdəki iraqlı qonşularım

Yaşadığım Sürix şəhərində 5-6 qonşum əslən İraqdandır. Bəziləri sünni, bəziləri isə şiədir. Türkmən soylu Əli şiədir. Onun haqqında ötən yazılarımın birində söhbət açmışdım. Bu dəfə isə onun haqqında daha geniş danışmalı olacam. Əli bir müddət Bakıda yaşadığından Azərbaycanı çox sevir. Söhbətimiz zamanı bizim türkcəyə xas olan sözləri həvəslə işlədir. O gün onun qapısını ürək ağrısı ilə döydüm. Qardaşının İraqda şəhid olması xəbərini yenicə duymuşdum. Ağlamaqdan qan çanağına dönmüş gözləri şişmişdi. İçəri keçdim. Elə yenicə oturmuşduq ki, qonşuluqdakı kürd əsilli iraqlı da öz xanımı ilə məclisə buyurdu. Onlar öz aralarında ərəbcə danışırdılar. Arada Əli etdikləri söhbətin məzmunu barədə mənə məlumat verirdi. Dediklərindən bəlli oldu ki, kürd qonşumuz Bağdadda kürdlərə divan tutulmasından bərk narahatdır. Sən demə, peşmərgələr vəziyyətdən istifadə edərək Kərkükü ələ keçirdikdən sonra İraqın mərkəzi hökuməti ilə kürd muxtariyyəti arasında münasibətlər kritik həddə gərginləşib. Belə ki, İŞİD-in terrorçu bölmələri qarşılarına çıxan şiələri qırıb-çatdığı bir vaxtda sünni kürdlərin Kərkükü işğal etməsi vətənə xəyanət kimi dəyərləndirilib. Nəticədə hazırda kürdlər kütləvi şəkildə Bağdadda qətlə yetirilir. Bu işi isə yeni yaranmış “Əsəhülhəqq” adlı partiyanın tərəfdarları həyata keçirirlər. İraqda dəngələr elə pozulub ki, kimin kimlə dost və ya düşmən olması belə bəlli deyil...

Yaxşı ki, kürd qonşum xanımı ilə birlikdə bizlərdən tez ayrıldı. Fürsətdən istifadə edib uzaq İraqda baş verən faciəli olaya aydınlıq gətirməyə çalışdım.

## Əlinin anlatdıqlarından...

- Həyatım, *(türkmənlər ehtiram bəslədikləri şəxsə belə müraciət edərlər),* qardaşım İsam Eyvaz şəhid düşdü. 30 yaşı vardı. 2 yaşında qızı yetim qaldı. Hələ üstəlik xanımı da hamilədir. İsam xəstəxanada erkək xəstə baxıcısı qismində çalışırdı. Xanımına söyləyib ki, bu gecə işdə olmalıyam. Xanımı deyib ki, axı bu gün sənin iş günün deyil. “Arkadaş xəstədir, onu əvəzləməyim gərəkir”, deyib... Sən demə, iyunun 28-də 600 min əhalisi olan Duz Xurmat şəhərindən *(bu şəhər həm duzu, həm də xurması ilə məşhur olduğundan belə adlanır)* 30 nəfər yaraqlı-yasaqlı toparlanıblar. Təzə Xurmatdan və Kərkükdən də xeyli adam onlara qoşulub. Bəşir şəhərindən qaçmış şiələr də Təzə Xurmatda bunlara qoşulub. Məqsəd bu imiş ki, Bəşirə hücum etsinlər. Çünki oranı İŞİD işğal edibmiş və yerli şiələrə divan tuturmuşlar. Bu arada isə İraqda dünya şiələrinin mənəvi rəhbəri kimi qəbul olunan Seyid Əli Sistani fətva verdirib ki, bütün şiələr silaha sarılsın və İŞİD-ə qarşı cihada qalxsın. Qardaşım da bir çoxları kimi bu fətfaya cavab olaraq Bəşiri xilas etməyə gedənlərə qoşulub. Müxtəlif yerlərdən şiələri bir yerə Əbu-Eyyub toparlayıb, Abbas Coma isə hərbçi olduğundan onlara rəhbərlik edib. Plan belə olub ki, üç yerə bölünmüş qruplar müxtəlif istiqamətlərdən Bəşir şəhərinə hücum etsinlər. Gecə ilə yola çıxıblar. İsam özündən böyük olan qardaşım Mühənnədə zəng vurub deyib ki, mən savaşa gedirəm. Salamat qalın...

Qardaşımgil Bəşirlə Təzə Xurmatın arasındakı Şəmsə adlı balaca bir kənddən keçiblər. Bir qədər irəlilədikdən sonra Şəmsə tərəfdən onları atəşə tutublar. Sən demə, bu kənd İŞİD tərəfdarları tərəfindən tutulubmuş. Onlar qardaşımgilin dəstəsinə öncə bilərəkdən atəş açmayıblar ki, kənddən topa halında çıxanda güllələbaran eləsinlər. Bəşir tərəfdən də atəş açmağa başlayıblar. Beləliklə, qardaşımgil hər iki tərəfdən atəş altına düşüb. Nə geriyə, nə də irəli yolları olub. Sağdan və soldan irəliləyən qruplarla əlaqə saxlayıblar. Məlum olub ki, hər iki qrup minalanmış sahəyə düşüb və xeyli itki verərək geri çəkilib...



## “Cənazələr 50 dərəcə istidə ortada qalıb”



## Telefonlarını terrorçular götürdü: “Hamısını qırdıq...”

Qardaşımgilin dəstəsində olan 30 nəfərin mobil telefonuna zəng vururuq. Terrorçular götürür. Onlar da deyirlər ki, hamısını qırmışıq, meyitləri də ortada qalıb. İraqdakı qardaşım Mühənnəd terrorçularla danışıb. Deyib ki, bu mənim qardaşımın telefonudur. O, hardadır? Deyiblər ki, öldürmüşük. «Niyə öldürdüz»,-deyə sual edib. Deyiblər ki, qardaşın Bəşirə hücum edib bizimlə savaşa çıxıb. Biz də öldürmüşük. Hələ öləndən sonra da başına 8 güllə sıxmışıq. Qardaşım deyib ki, axı siz gəlib Bəşiri işğal etmisiz, insanları qırmısız. Hazırda 45-50 dərəcə istidə 400-500 meyit Bəşirin küçələrində qalıb. İydən baş çatlayır. Nə özünüz onları dəfn edirsiz, nə də meyitləri şiələrə verirsiz ki, özümüz basdıraq...

*Əli yenidən kövrəlir. Özünü ələ alıb söhbəti davam etdirməyə çalışır...*

- Bəşirdə ələ keçən qadınları zorladıqdan sonra asıblar, yaşlı adamları güllələyiblər. Cavanlara isə heç aman verməyiblər. Qardaşım da düşünüb ki, bizim də ana-bacımız var. Nə qədər gəlib Duz Xurmatı tutmayıblar, biz terrorçuları elə kənardaca məhv edək. Amma istəkləri baş tutmayıb. Qardaşım son anlarında Ərcan adlı dostunu arayıb, deyib ki, biz bu savaşdan sağ çıxmarıq, haqqınızı halal edin. Deyim ki, belə savaşlarda qardaşım öncələr də olmuşdu. Ona görə bilib ki, burası sondu, qurtuluş yoxdu...

*Yenə fikrə gedir. Qarşısında çoxdan soyumuş çaydan bir qurtum alıb, sanki fikrini toparlamaq istəyir...*

- Qardaşımla bir yerdə döyüşmüş Həmdi Çayçıoğlu da Ümid adlı dostunu arayaraq, deyib ki, hər kəs ölüb, biz 3 nəfər qalmışıq. Ancaq gülləleri tükənib. Ona görə hərəmiz bir tərəfə tək-tək atəş açırıq. Bizə güllə çatdırın. Ümid də geri dönən ikinci qrupda olub. Deyib ki, biz oradan çox geridəyik, mümkün deyil...

Başqa bir qohumum Adnan - qardaşını aramış və o da deyib ki, canımda 5 güllə var. Məni qan aparır. Haqqınızı halal edin. Bir saata ölərəm. Sonra xanımını arayıb, deyib ki, mən sənə yalan demişdim. Əslində savaşa gedirdim. Uşaqlar sənə əmanət. Haqqını halal et, sonuma bir şey qalmadı...

## “İŞİD başını kəsib, videonu youtubeyə qoydu, anası baxdı, havalandı”

**Əli İphonundakı qətlə yetirilmiş insanların fotolarını mənə göstərir:** “Abi, bu fotoları terrorçular özləri youtubeyə qoyublar. Bax, bu şəkildəkilər mənim qardaşımla bir dəstədə olublar. Biz də interneti ələk-vələk etmişik, hələ ki İsamın fotosu çıxmayıb. Bu arada isə terrorçular bu fotoları səhifələrindən sildilər. Hələ bu fotolar yaxşıdır. Bizim qonşuluqda bir ailə var. Əri də, xanımı da həkimdir. Çox hörmətli insanlardı. Onların bir oğlu vardı, Murtaza, 20 yaşındaydı. O da Bəşərə yardıma gedənlərə qoşulub. Ömründə silah görməmiş adam. Əsir düşüb və İŞİD terrorçuları onun başını necə kəsdiklərini videoya çəkib internetdə yayıblar. Ata-anası o videonu görüb havalanıb. Bu, deyiləsi dərd deyil. Bir ailə isə İrandan qonaq gəlibmiş. Ata oğluna zəng vurub ki, dərhal ananı, bacılarını maşına qoyub, şəhərdən çıx, terrorçular hər tərəfdən gəlirlər. Gənc də atası deyən kimi edib. Elə maşın yerindən təzə tərpənib ki, terrorçular maşının qabağını kəsiblər. Ananın gözünün önündə 20 yaşlı oğlunu güllələyiblər, 4-5 yaşlı qızları da vurublar. Bu mənzərəni gözü ilə görən şəxs mənə dedi ki, Əli, terrorçular sonra oğlanı da, onun iki bacısını da maşına qoydular. Elə anasının gözünün qarşısında da maşına od vurdular. Dünyada belə müsibət olmayıb. Vallah. olmayıb... ”

***- Eşitdim ki, meyitləri döyüş meydanlarından götürmək olmur...***

- Kərkükdəki sünni ərəblərlə anlaşıblar ki, onlar İŞİD-lə danışsınlar, şiələr öz meyitlərini götürüb basdıra bilsinlər. Öncə 50 min dollar istəyiblər. İraqda 50 min dollar böyük paradır. Nəsə, onu toplamışıq. Amma Bəşiri tutan İŞİD qüvvələrinin komandiri əslən Əfqanıstandan olan birisidir. O, deyib ki, para gərəkməz. Şiələrin məyiti elə çöllərdə də qalmalıdır...

# “Türkmən və xristian qızlarını şəhərin ortasında zorlayırlar”...

### “İŞİD onun başının necə kəsildiyini internetdə yayıb” - anası görüb havalanıb; ananın gözü qarşısında oğlunu və iki qızını güllələyib maşına atdılar, sonra maşına od vurdular"; “Sistaninin fətvası olmasaydı”...

## Kürdlər Kərkükü necə tutdular...

***- Əli, kürdlərin Kərkükü tutması necə olub?***

- Gəlib hökumət nümayəndələrinə deyiblər ki, silahı qoyub gedin, biz sizinlə savaş istəmirik. Buralar bizim torpaqlardı. Hökumətin ordusu da silahı kürdlərə təhvil verib, mülkü paltarda ərazini tərk edib. Topları, tankları, iri çaplı silahları qoyub gediblər. Ailəmizin yaşadığı Duz Xurmatlı da kürdlərin nəzarətinə keçib. Hazırda bizim şəhərdə Bağdad hökumətinin təmsilçisi yoxdur, sadəcə, kürdlər var. Kürdlər xalqa deyirlər ki, bizə tabe olmasanız, dərhal geri çəkilərik. İŞİD gəlib kökünüzü kəsər. Sevinin ki, biz sizi öldürmürük. Bilirsən, biz şiəyik, türkmənik, kürdlər bizi heç sevməz. Heç biz də onları sevmərik. Onlar İranın kəndlərindən bizim torpaqlara ayaq açdılar. Gəlib oralarda məskunlaşdılar. Öncə önəm vermədik. Bir də gördük ki, bunlar bizim torpaqlarda ağalıq edirlər...

## İraqdakı sünnilər İŞİD-in hücumunu alqışlarla qarşılayırlar

***- İŞİD-lə yerli sünni ərəblərin münasibəti necədir?***

- İraqdakı sünnilər İŞİD-in hücumunu alqışlarla qarşılayırlar, elə bil ki, xilaskarları gəlib. İŞİD də onlara ciddi dəstək verir. Düzü budur ki, öncə şiələr sünnilərə zülm etdilər. Hökumət sünniləri aşağıladı. Ona görə də sünnilər özlərini haqlı bilirlər. Bizim bir dərdimiz də odur ki, indi sünni ərəblərlə sünni kürdlər arasında mühasirədə qalmışıq. Bu işin axırı necə olacaq, bunu kimsə bilmir. Düzdür, indi türkmənlər silahlanıb. Çünki hər kəs bilir ki, İŞİD hara girirsə oranı xaraba qoyur və insanları zülmlə məhv edir.

## Türkiyə arxamızdan çəkildi, bizi tək qoydu

***- İraq Türkmən Cəbhəsi nəsə bir iş görə bilirmi?***

- Əvvəllər Türkiyə İraq Türkmən Cəbhəsinə ciddi dəstək verirdi. Bizdəki məktəblərdə uşaqlarımız Türkiyə türkcəsində təhsil alardı. Müəllimlərin maaşını Türkiyə verərdi. Çox şeydə Türkiyənin dəstəyi vardı. Amma indi Türkiyə açıq şəkildə bu dəstəkdən imtina edib. Məktəblər qapadılıb. Səbəb də odur ki, Türkiyə İraqdakı kürdlərlə anlaşıb. Onlardan su qiymətinə neft alır. Onlarla biznes qururlar. Yəni bizim şiə olmağımız bu məsələ də bizə problem yaradır. Öncə Türkiyə deyirdi ki, Kərkük qırmızı cizgidir. Onu keçən olsa, biz varıq. Amma indi o vədlər çoxdan yaddan çıxıb. Türkiyə türkmənlərə arxa çevirib və onu düşmənlərin əhatəsində yalnız buraxıb.

## Qızları aparıb, zorla yatağa basırlar, sonra da...

***- Ərəbcə cihadi-nikah deyilən bir nəsnə ortaya atıblar...***

- İŞİD-in İraqda həyata keçirdiyi əməllərdən biri də budur. Gəlirlər, soruşurlar, neçə qızın var, özü də ancaq qız olmalıdır. İkidirsə birini verməlisən. Xoşluqla versən, işləri olmaz. Etiraz etsən, həmən qafana sıxarlar. Apardıqları qızları da zorla yatağa basarlar. 3-4 gündən sonra da gətirib geri verərlər. Bu şərəfsizlər bütün bunları İslam adından yapırlar...

Bütün türbələri, şiələrə aid müqəddəs yerləri yerlə-yeksan etdilər. Xristianlardan heç danışmağa dəyməz. Onların kilsələrini göyə sovurdular. Xristian qızlarını isə elə şəhərin ortasında zorlayırlar. Deyirlər ki, bunların malı da, qadınları da bizə halaldır.

Bir şeyi də deyim. İŞİD xalqın rəğbətini qazanmaq üçün gör nə edir. Kim harada işləyirsə yenidən işini davam etdirməlidir. İnsanlara alacaqları maaşın üç mislində para paylayıblar. Deyiblər ki, bu sizin 3 aylıq paranız, işinizi davam etdirin. Əlbəttə ki, bu paralar Səudiyyədən, Qətərdən gəlir...

## İraqdakı evimizin pəncərələri...

***- Söhbətlərimizin birində demişdin ki, İraqdakı evinizin pəncərələri ayda heç olmasa 2-3 dəfə partlayışdan sınıb tökülür...***

- Hə, düşün ki, elə ay olub ki, bizim ərazidə terrorçular 25 dəfə partlayış törədiblər. Elə yerdə şüşəmi qalar. Həmişə para göndərirdim ki, heç olmasa şüşələri yeniləsinlər. Axırda anam dedi ki, oğul, bu iş düzələn deyil, sənin qazançın elə bu sınan şüşələrə gedir. Daha pəncərələrimiz şüşəsiz qalsa yaxşıdır...

Abi, indi vəziyyət tamam başqa, daha Kərkükdə partlayış yox. Yaşadığımız Duz Xurmatda da partlayışdan əsər-əlamət gözə dəymir. Çünki bu partlayışları kürdlər törədirdi. İndi Kərkükü tutublar, daha partlayış onların işinə yaramaz. Bu iş o qədər aşkar ki, yaşlı anam da bundan danışır...

## Seyid Əli Sistaninin fətvası olmasaydı...

***- Seyid Əli Sistaninin fətvası nəyi dəyişdi?***

- O fətva olmasaydı, Bağdad da əldən getmişdi. O ki insanları cihada səslədi, şiələr ayağa qalxdı. İndi İŞİD İraqda daha irəliləyə bilmir. Çünki müqavimət çox gücləndi. İŞİD-in istəyi o idi ki, İraqı bütövlükdə ələ keçirsinlər. Şiələrin Kərbəla və Nəcəf kimi müqəddəs yerlərini darmadağın etsinlər. Seyid Əli Sistani bir fətva ilə bunun qarşısını aldı...

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**





## “Türkiyə türkmənlərə arxa çevirib və onu düşmənlərin əhatəsində yalnız buraxıb”



# İŞİD Bəşər Əsədi necə xilas etdi?

Azər RƏŞİDOĞLU

**İŞİD terroru İraqı xarabazara çevirməkdədir. İraqda son vaxtlar cərəyan edənlər artıq Bəşər Əsədi və Suriyanı unutdurmağa başlayıb. Halbuki İŞİD İraqı belə rəzil vəziyyətə salana qədər nəzərlər yalnız Suriyaya dikilmişdi. Yalnız B.Əsəd “qanlı diktator” kimi təqdim olunurdu. Maraqlıdır ki, artıq B.Əsəd əvvəlki qədər mənfur çalarlarla təqdim edilmir. Bir sözlə, proseslərin gedişatı B.Əsədə sərf edir.**

Ümumiyyətlə, proseslərin İraqa transfer etməsi Bəşər Əsədə ona son dərəcə zəruri olan zamanı qazandırdı. İndi super güclərin hədəfində B.Əsəd deyil, başqalarıdır.

İŞİD terroru bütün diktatorların qanlı görkəmini təmizlədi. İŞİD- lə müqayisədə istər B.Əsəd, istərsə də digər despotlar “müqəddəs mələk” qismində görünürlər.

İraqdakı savaşda sələfilərin hərbi uğurlar qazanması dünyada bir şok effekti yaradıb. Bütün bölgəni terrorla hədələyən İŞİD istənilən diktatordan daha qorxuludur. Bu cərəyan artıq dünya üçün bir təhlükəyə çevrilməkdədir.

Nə N.Maliki, nə İŞİD B.Əsəddən daha cəlbedici tərəfdaş hesab oluna bilməz. Suriya prezidenti bütün mənalarda İŞİD lideri Əbu Bəkr Bağdadidən daha rasional siyasətçidir.

Elə bu baxımdan da B.Əsədin mövqeləri yenidən güclənməkdədir. Araşdırmaçılar hesab edirlər ki, sələfi və təkfirçilərə qarşı mübarizədə haradasa bir nümunə olan Suriya diktatoru Bəşər Əsəd İŞİD-lə savaşda da öndə olmalıdır. Bir sözlə, İraqdakı son olaylar B.Əsədin önəmini artırır. Burada daha bir mühüm amil də mövcuddur. İraq hökumətinin başında duran N.Malikidən fərqli olaraq B.Əsəd öz ölkəsinin əhəmiyyətli bir hissəsi tərəfindən dəstəklənir. Düzdür, bu, onun diktator olmaması anlamına gəlmir. B.Əsəd gerçək bir diktatordur, lakin Suriya lideri İŞİD kimi terrorçu qurumlardan fərqli olaraq beynəlxalq ictimaiyyəti də nəzərə alır, lazım gələndə geri çəkilməyi də bilir. Ölkənin idarə edilməsində B.Əsədin konkret strategiyası mövcuddur. Suriya prezidenti bütün nöqsanlarına baxmayaraq, əhalinin problemlərini həll etməyə, ölkədəki dini və siyasi azlıqların təhlükəsizliyinin təminatçısı olmağa çalışır. B.Əsəd Suriyası dünyəvi quruluşa malik olmaqla yanaşı, bölgədəki müsəlmanların son sekulyar qalası kimi təqdim olunur.

İŞİD-lə müqayisədə Qərb B.Əsədə minnətdar olmalıdır. Bu situasiyada lənət oxunacaq təşkilat İŞİD və ona bənzərləridir.

Bu gün İraqda N.Malikiyə qarşı Qərbin təhriki ilə savaş açan İŞİD B.Əsədi də hədəf seçir. Bu baxımdan, B.Əsəd və N.Maliki arasında anlaşmanın ola biləcəyi istisna edilmir.

N.Maliki ABŞ-a artıq mane olmağa başlayıb, odur ki, Qərb İraqda xaos yaratmaq istəyir. Bu oyunda isə İŞİD-dən istifadə edilir.

Maraqlıdır ki, B.Əsədin proseslərə müdaxiləsinə Qərb də göz yumur. Qərbə bölgənin tam xaosa sürüklənməsi vacibdir. Vaşinqton İranın da proseslərə müdaxiləsini istəyir. Qərb ideoloqlarına görə, bölgə başdan-ayağa məzhəb savaşına girməlidir. Artıq İraqda kürdlər müstəqillik əldə etməyə yaxın görünürlər. İŞİD-in törətdiyi vəhşiliklər İraq şiələrini də ayağa qalxmağa vadar edir. Bu günün reallığına görə, B.Əsəd İraq şiələrinin ən yaxın müttəfiqlərdən hesab edilir.

ABŞ Yaxın Şərqdə xaos yaratmaqla istəyinə nail olmaq niyyətindədir. Lakin terrorçulara həddən ziyadə yaxın məsafədə olmaq Qərb diplomatiyasına başağrısı gətirməyə bilməz.

Son proseslər də onu deməyə əsas verir ki, ABŞ diplomatiyası Yaxın Şərqdə çətin bir duruma düşüb.

B.Əsədin ABŞ-ın bütün səylərinə baxmayaraq hakimiyyətini qoruya bilməsi və yenidən fəal oyunçuya çevrilə bilmək şansı “Sem dayı”nın xarici siyasət kursunun fiaskosu kimi dəyərləndirilə bilər.

Vaşinqtonun siyasətindəki boşluq yalnız B.Əsədlə bitmir.

Səudiyyə Ərəbistanı, Qatar, Küveyt və Türkiyə hər biri bölgədə öz oyununu oynamağa başlayıb. Bu, Vaşinqtonun manevr imkanlarına öz təsirini buraxmaya bilməz.

ABŞ bölgədə “İslam düşməni” kimi təqdim olunmağa başlayıb. Belə münasibət Vaşinqtonun imicini əsaslı dərəcədə sarsıdır. Bu kimi vəziyyətlərdə köhnə müttəfiqlərə ehtiyac yaranır. B.Əsəd də yaranmış situasiyada yenidən cəlbedici fiqura çevrilir. Müəyyən vaxta qədər...

YENİ MÜSAVAT
N 173 (5882) 8 iyul 2014

# Bağlanan türk məktəblərinə çıxış nöqtəsi - Kaspi liseyi

## Yeni açılmış məktəbdən reportaj; Elşən Əliyev: "Şagirdlərə keyfiyyətli təhsil vermək üçün əlimizdən gələni edəcəyik"

**Azərbaycanda fəaliyyəti dayandırılan türk liseylərində 2013-2014-cü tədris ilində 3730 şagird təhsil alıb. Bu liseylər bağlandıqdan sonra orada təhsil almış uşaqların və orada işləyən müəllimlərin taleyi ilə bağlı bir sıra suallar yaranıb. Azərbaycanda başqa liseylər də fəaliyyət göstərir və onlardan biri də yenicə açılmış Kaspi liseyidir. Kaspi liseyi türk liseylərində təhsili yarımçıq qalan şagirdləri qəbul edəcəyini, oranın müəllimlərini işə götürəcəyini bildirir. Biz də oradakı şəraiti və qəbul qaydalarını öyrənmək üçün həmin liseyə baş çəkdik.**

Kaspi Təhsil Şirkətinin təsis etdiyi bu özəl orta məktəbdə illik təhsil haqqı 4500 manat təşkil edir. Gözəl, səliqəli binada yerləşən lisey dərs ilinə başlamağa demək olar ki, hazırdı. Burada şagirdlər 1-ci sinifdən başlayaraq, 11-ci sinfə qədər təhsil alırlar. Bundan başqa, liseydə məktəbəqədər bölmə də fəaliyyət göstərir.

**Olduqca səliqəli görkəmi olan liseydə bizi qəbul şöbəsinin əməkdaşı Elşən Əliyev qarşıladı. E.Əliyev lisey haqda geniş məlumat verərək bildirdi ki, burada təhsil almaq istəyən şagirdlər 9-cu sinfə qədər qəbul olunur:** "Bizim sistemdə şagird qəbulu 9-cu sinfə qədərdir. 10-cu sinifdən gələnləri qəbul etməyəcəyik. Kaspi liseyində illik təhsil haqqı 4500 manatdır. İllik təhsil haqqı doqquz ay ərzində ödənilə bilər. Bu məbləğə məktəbli forması, kitablar, günorta yeməyi, şagirdlərin məktəbə gətirilib-aparılması, dərsdən sonra müəllimlərin uşaqlarla məşğul olması daxildir. Günorta şagirdlərə 4 çeşid yemək təklif ediləcək. Direktor başda olmaqla, bizim əməkdaşlarımız hansı yeməyi yeyəcəksə, şagirdlərə də həmin yemək təklif olunacaq. Bizim prinsipimiz budur ki, şagird evə istirahət etmək üçün getməlidir. Dərslə bağlı hər şey məktəbdə həll olunur. Səhər saat 9-da dərs başlayır, saat 17-18-də qurtarır. Bizim liseydə günün birinci yarısında şagirdlərə dərs keçilir, ikinci yarısında isə məşğələlər olur. Həmçinin burada təhsil alan şagirdlər müxtəlif dərnəklərdən də istifadə edə bilərlər. Bizdə futbol, basketbol, şahmat və sairə kimi dərnəklər var. Şagirdlər bunlardan ikisini seçə bilər. Bunun üçün əlavə pul alınmayacaq".

**E.Əliyev Kaspinin ilk dəfədir ki, məktəb layihəsinə başladığını və bunun uğurlu olacağına inandığını dedi:** "Bizdə Kaspinin hazırlıq kursları olub. Ancaq məktəb sektoruna ilk dəfədir giririk. Kaspi liseyinin şagird tutumu 800 nəfərdir. Bizim qəbul sayımız hələ planlaşdırılmayıb. Hələ ki Kaspinin bir məktəbi var, o da buradır. Fəaliyyətimiz uğurlu olsa, növbəti illərdə layihəni genişləndirəcəyik. Şagirdlərimizin savadlı və hazırlıqlı olacağına inanırıq. Şagirdləri qəbul edərkən onların bizim liseyin qaydalarına uyğunlaşıb-uyğunlaşmayacağını öyrənəcəyik. Qəbul qaydalarına gəlincə, 1- 4-cü siniflərə müsabiqə yolu ilə qəbul edirik. Bu müsabiqədə uşaqlara hərflər və dünya görüşü ilə bağlı suallar verilir. 5-ci sinifdən 9-cu sinfə qədər isə qəbul imtahanla olacaq. İmtahanlar riyaziyyat və Azərbaycan dilindən olacaq. Biz burada müəyyən bal həddi qoyacağıq. Məsələn, kim ki, 50 faiz yaxşı göstərici göstərdi, o artıq qəbul olunmuş sayılacaq. Bu lisey keçən ildən açılmalı idi. Ancaq elə oldu ki, bu ilə qaldı. Bizim məktəbin reklamları artıq 1 aya yaxındır ki, gedir. Buranı açmaq məsələsi gündəmə gələndə türk liseylərinin bağlanacağını bilmirdik".






**Türk liseylərində təhsili yarımçıq qalmış şagirdlərin və işsiz qalan müəllimlərin bu liseydə yer alıb-almayacağına gəlincə, E.Əliyev şagirdlərin haradan gəldiyinin onlar üçün əhəmiyyət kəsb etmədiyini və kriteriyalara uyğun olan hər bir şagirdin liseyə qəbul ediləcəyini bildirdi:** "Bizim üçün şagirdin əvvəllər harada oxumasının heç bir əhəmiyyəti yoxdur. Müəllim qəbulunda da şərtlərimiz var. İstər əvvəllər türk liseylərində çalışın, istərsə də hər hansısa bir işsiz müəllim olsun, əgər şərtlərə cavab verəcəksə, işə qəbul ediləcək. Bizdə müəllimlərin imtahanı 3 mərhələdə aparılır. Birinci mərhələdə fənn biliyi yoxlanılır. Sonrakı mərhələdə isə müəllimin pedaqoji fəaliyyəti yoxlanılır. Ola bilər ki, müəllim savadlı olsun, ancaq öz bildiyini uşağa çatdıra bilməsin. Üçüncü mərhələ isə söhbət mərhələsidir. Burada müəllimin həyata baxışlarına, mənəvi keyfiyyətlərinə fikir verilir. Bu mərhələlərdən keçən müəllim bizim liseydə işləyə bilər. Bizdə baza müəllim heyəti var. Ancaq başqa müəllimlərə də ehtiyac olması mümkündür. Bizim məktəbin bir özəlliyi də o olacaq ki, yuxarı siniflərdə ingilis dili müəllimi xarici vətəndaş olacaq. Yüksək bilik nümayiş etdirən şagirdlərə gələcəkdə təhsil haqqında güzəştlərin olması da mümkündür".

Onu da qeyd edək ki, Kaspi liseyində Təhsil Nazirliyinin proqramına əsaslanan və beynəlxalq standartlara cavab verən xüsusi tədris proqramı olacaq. Liseydə Azərbaycan və rus bölmələri fəaliyyət göstərəcək, tədrisin periodik olaraq ölçmə və qiymətləndirilməsi aparılacaq. E. Əliyev şagirdlərin keyfiyyətli təhsil almaları üçün əllərindən gələni edəcəklərini bildirdi.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# "Dollardan imtinanın perspektivini görmürəm"

## Samir Əliyev: "Rublla alqı-satqı ölkəmiz üçün səmərəli olmayacaq"

**Rusiyanın dollardan imtina barədə çağırışı Azərbaycanda birmənalı qarşılanmır. Rusiya Dövlət Dumasının Maliyyə məsələləri komissiyasının sədr müavini, deputat Dmitri Savelyevin sözlərinə görə, Rusiya ilə Azərbaycan qarşılıqlı hesablaşmalar zamanı manata və rubla keçmək barədə razılaşmaqdadır: "Əgər biz özümüz öz aramızda milli valyutaya keçə, bununla da milli iqtisadiyyatımızın inkişafına güclü təkan verə biləriksə, onda başqa ölkələrin iqtisadiyyatını niyə gücləndirməliyik?! Azərbaycanın qızıl kimi manatı və bu valyutanın sabit kursu var. Bu isə Azərbaycan hökumətinin iqtisadi siyasətinin çox savadlı qurulduğunu və savadlı şəkildə də idarə olunduğunu göstərir".**

**İqtisadçı ekspert Samir Əliyev** isə bildirir ki, Qərbin, xüsusən də ABŞ-ın sanksiyalarına cavab olaraq, Rusiya maliyyə əməliyyatlarında, xarici ticarətdə dollardan tədricən imtina etməyə başlayıb: "Artıq Rusiya və Çin arasındakı ticarətdə ABŞ dollarından istifadə etməmək barədə razılığa gəlinib. Rusiya Dövlət Dumasının Maliyyə məsələləri komissiyasının sədr müavini, deputat Dmitri Savelyev olduqca maraqlı açıqlama verib. Onun sözlərinə görə, dollardan imtina ilə bağlı Rusiya və Azərbaycan müvafiq qərarı müzakirə edir. O bildirib ki, Rusiya ilə Azərbaycan qarşılıqlı hesablaşmalar zamanı manata və rubla keçmək barədə razılaşmaqdadır. Bəzi ölkələr buna cəhd edir və qarşılıqlı ticarətdə dollardan imtina etmək siyasəti yürüdürlər. Xüsusən də başda Çin və Rusiya olmaqla, BRİCS ölkələri bu işdə daha çox seçilirlər. Artıq Rusiya və Çin arasındakı ticarətdə ABŞ dollarından istifadə etməmək barədə razılığa gəlinib".

**Ekspertin sözlərinə görə, dollardan imtinanın və Rusiya ilə qarşılıqlı ticarətin ancaq milli valyutalarla aparılması təklifinin perspektivini görmür:** "Bu təklifin siyasi yükü onun iqtisadi səmərəliliyindən daha çoxdur. Ola bilsin məhdud mal qrupu üzrə ticarət əlaqələrində dollardan imtina edilərək milli valyutalara üstünlük verilsin. Bundan artıq perspektiv görmürəm. Ümumilikdə isə ideyanı qeyri-real və səmərəsiz hesab edirəm.

Sanksiyaların nəticəsi olaraq Rusiya iqtisadiyyatı getdikcə tənəzzülə yuvarlanır. Bu, ölkə iqtisadiyyatını zəiflətməklə yanaşı rublun məzənnəsinə mənfi təsir göstərir. Son dövrlər rubl əhəmiyyətli dərəcədə dəyərsizləşir.


Samir Əliyev

Rublla ilə alqı-satqı ölkəmiz üçün səmərəli olmayacaq. Digər tərəfdən, hesablaşmalarda manatdan istifadə bizə problemlər yarada bilər. Hazırda manatın bahalaşma problemi var. Mərkəzi Bank hələ ki bunun qarşısını alır. Belə vəziyyətdə hesablaşmaların manatla aparılması milli valyutamızı daha da bahalaşdıra bilər. Təbii ki, bu, arzuolunan hal deyil.

Bundan başqa, hər iki valyuta sərbəst dönərli valyuta deyil, xammal valyutasıdır. Bu isə o deməkdir ki, dünya bazarında neftin 100 dollardan aşağı düşməsi və ucuzlaşmanın uzunmüddətli davam etməsi həm manat, həm də rubl üçün təhlükəlidir. Bu hal hər iki valyutanı dəyərsizləşdirəcək. İki ölkə arasındakı ticarətdə enerjidaşıyıcıları böyük çəkiyə malikdir. Neft-qazın qiyməti dünya əmtəə bazarlarında dollara müəyyənləşdirilir. Dolların məzənnəsinin dəyişməsi neft-qaza birbaşa təsir göstərir. Buna görə də Rusiya ilə Azərbaycan öz aralarında neft satışını London əmtəə birjasındakı qiymətə bağlamalı olacaq. Bu isə qarşılıqlı hesablaşmalarda qiymətlərin kəskin dəyişməsinə gətirib çıxaracaq ki, bu da uzunmüddətli müqavilələrin bağlanması imkanlarını məhdudlaşdıracaq. Eyni zamanda məzənnə fərqi hesabına xərclər artaracaq. Belə vəziyyətdə valyuta riskini sığortalamaq üçün tərəflər daha çox güzəşt tələb etməli olacaqlar".

S.Əliyevin sözlərinə görə, başqa amil həm manatın, həm də rublun məzənnəsinin dollar əsasında müəyyənləşdirilməsidir. Burada rubl indeksinə avro da daxildir. Bu valyutaların məzənnələri birbaşa yox, çarpaz şəkildə müəyyənləşdirilir. Dolların dünya bazarlarında məzənnəsinin dəyişməsi manat-rubl məzənnəsinə də təsir göstərir. Bu isə manat-dollar arasında sabit məzənnənin müəyyənləşdirilməsinə imkan vermir.

"Güman ki, Rusiyaya ixrac zamanı hesablaşmalar manatla, idxal zamanı isə rublla aparılacaq. Belə bir vəziyyətdə şirkətlərin milli valyutalara sərbəst çıxış imkanları olmalıdır, pulun konvertasiyası üçün mexanizmlər olmalıdır. Azərbaycan iqtisadiyyatı neft üzərində qurulub və neftin dünya qiymətindən birbaşa asılıdır. Nə qədər ki, dünyada enerjidaşıyıcıları dollarla satılır, ondan imtina etmək səmərə verməz",- deyə o qeyd edib.

❑ **Röya RƏFİYEVA**

# Azərbaycan oliqarxlarının quldarlıq sistemi

## Xaricdən Bakıya qul gətirən dəstə üzvləri 4 milyon dollar qazanıb



**Azərbaycan oliqarxlarının tikinti sektorunda böyük layihələrə sahib olması haqda dəfələrlə yazılıb. Bir neçə gün əvvəl yayılan Bosniya prokurorluğunun Azərbaycanla əlaqəli araşdırmasında bu sektorda qul əməyindən istifadə edilməsi bir daha təsbit olundu. Məlum oldu ki, 2007-2009-cu illər arasında Bosniyadan yüzlərlə fəhlə Azərbaycana gətirilib və burada qul kimi istismar edilib. Həbs olunan mütəşəkkil cinayətkar qruplaşmanın 13 üzvü 2 il ərzində Bosniya, Serbiya və Makedoniyadan Azərbaycana 600-dən çox fəhlə gətiriblər. Həmin fəhlələr qul kimi Azərbaycanda satılıb! Bosniya prokurorluğu hələlik qul alıcısının və ya alıcılarının adını açıqlamayıb. Bəlli olan odur ki, qullar Azərbaycana gələndən sonra qeyri-insani şəraitdə saxlanılıblar. Onlara vəd edilən əmək haqqı ödənilməyib və ağır şərtlər altında işlədiliblər.**

Onların işlədildiyi məkanlardan biri də Azərbaycanın İdman və Gənclər Nazirliyinin sifarişi ilə inşa edilən Mingəçevirdəki Kür Avarçəkmə Olimpiya Bazası olub.

O da məlumdur ki, nazir oliqarxlar öz sahələrinə aid olan və dövlət büdcəsi hesabına tikilən obyektlərin inşasını elə özlərinin tikinti şirkətlərinə həvalə edirlər...

Bu məsələ üzə çıxandan sonra ölkədə qul əməyindən istifadə haqda məlumatlar təsdiqini tapıb. Bu gün də belə halların olması istisna deyil. Oliqarx-nazirlərimizin ayrı-ayrı fabrik, zavod və istehsal müəssisələrində əsasən Pakistan, Çin vətəndaşlarının işlədilməsi haqda məlumatlar var. Sadəcə xaricdən gətirilən işçi qüvvəsi qapalı şəraitdə saxlanıldığından, sənədləri, telefonları əllərindən alındığından, sərbəst hərəkətlərinə imkan verilmədiyindən onlar haqda məlumatlar mətbuat səhifələrinə çıxmır. "SerbAz"ın Serbiya və Makedoniyadan Azərbaycana gətirdiyi 600-dən çox fəhlə də aylarla belə bir şəraitdə saxlanılmışdı. Nəhayət, onlardan biri AzadlıqRadiosunun Bosniya xidməti ilə əlaqə yarada və adının açıqlanmaması şərti ilə Azərbaycanda başlarına gələnlər haqda danışmağa imkan tapmışdı. Bu faktın izi ilə aparılan araşdırma göstərib ki, Bosniya, Serbiya və Makedoniyadan Azərbaycana "SerbAz" şirkəti tərəfindən 700-ə yaxın qul gətirilib. Məlum olmuşdu ki, bosniyalı qullar 6 ay bir qəpik də əməkhaqqı almayıblar, üstəlik, 13 gün ac-susuz qalıblar. Villada onlar əsir düşərgəsində olduğu kimi çoxmərtəbəli çarpayılarda saxlanılıb, hər çarpayıda qulun adı yazılıb. Qeyri-insani şəraitdə yaşayan və amansızcasına istismar edilən fəhlələrdən ən azı ikisi ölüb. Onların harada basdırıldığı da məlum olmayıb.

Məlum olub ki, Badamdar qəsəbəsində daha bir neçə yerdə hərəsində 100-120 nəfərin saxlanıldığı evlər var.

Bosniya prokurorluğunun hesablamalarına görə, dəstə üzvləri qul alverindən 3 milyon avro, yaxud 4,1 milyon dollar qazanıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ekmeleddin İhsanoğlu seçki kampaniyasına başladı

## Britaniya analitiklərinin fikrincə, Ərdoğan ilk turda qələbə qazana bilsə, “Atatürkdən çox Putin” olacaq

**“Türkiyəyə prezident olacaq şəxs həm dövlətin, həm də 77 milyon vətəndaşın bütünlüyünü təmin etməlidir”. Bu sözləri Türkiyə müxalifətinin 10 avqust prezident seçkisində “çatı adayı” professor Ekmeleddin İhsanoğlu İzmirin Aydın bölgəsində seçicilərlə görüşərkən deyib.**

Professor İhsanoğlu bildirib ki, Türkiyədə xeyli sayda ləyaqətli prezidentliyə namizəd ola biləcək aydın var: “Biz əminik ki, 10 avqustda millət doğru qərar verəcək. Biz düşünürük ki, dinləri, məzhəbləri, ailələrinin etnik kökəni nə olursa-olsun, insanlara heç bir ayrımçılıq olmamalıdır. Bunlar bizim zənginliyimizdir. Biz zənginliyimizi qorumaq iqtidarındayıq”.

**Ailəsinin kökəni haqqında suala cavab verən “çatı adayı” anasının əslən Aydından olduğunu bildirib:** “1280-ci illərdən bu diyar bizim diyarımızdır. Mənim anamın ailəsi Rodosa Aydından gedib. Bu gün Türkiyə dövlətinin prezidentliyinə namizəd kimi Aydın insanları ilə görüşməyimdən böyük qürur duyuram. İnanıram ki, prezidentliyə namizəd kimi vətəndaşlarla ilk təmasımı Aydından başlamağım bizə uğur gətirəcək”.

**Müxalifətin vahid namizədi ona və ümumilikdə prezident seçkisi prosesinə diqqətinə görə Türkiyə mediasına xüsusi təşəkkürlərini bildirib:** “Bu kampaniyanın ən önəmli silahlarından biri medianın məsələləri obyektiv işıqlandırmasıdır. Mən izləyirəm, bir çox telekanallar seçicilərlə bütün təmaslarımıza geniş yer ayırır, hər yorumumuz müzakirəyə çıxarılır, siyasət gündəmində ən kiçik addımın bizim fəaliyyətimizə nə cür təsir edə biləcəyi dartışılır. Ölkə gündəminin əsas mövzusunu diqqətdə saxlayan, dövlət və millət təəssübü çəkən bütün media təmsilçilərinə təşəkkür edirəm. Xalqın bizə göstərdiyi səmimiyyət bizim bu seçim qələbə çalmağımızın ən böyük təminatıdır”.

**Professor Ekmeleddin İhsanoğlu onun AKP-nin namizədi Rəcəb Tayyib Ərdoğanla mübarizə aparmaq gücündə olmaması fikirləri haqqında da danışıb:** “Qarşı tərəfdən də, hətta yaxın çevrələrdən də bu cür təpkilər alırıq. Bizə deyirlər ki, sizdə dövlət imkanları yox, partiya imkanları yox, partiyanı dəstəkləyən böyük maliyyə qaynaqlarının dəstəyi yox, uçaqlarınız yox, hakim partiyanın namizədi ilə necə rəqabət aparacaqsınız. Bunlar yersiz suallar deyil. Rəcəb Tayyib Ərdoğanla bizim imkanlarımız müqayisəyə gəlməz. Ancaq bunların hamısından böyük Haqqın və xalqın iradəsi vardır. Biz də, inşallah, Haqqın rizası, xalqın dəstəyi ilə gələcəyik”.



İngiltərənin “Financial Times” qəzeti son sayında manşetə Türkiyədəki 10 avqust seçkilərini çıxarıb.

Baş nazir Rəcəb Tayyib Ərdoğanın namizədliyini dəyərləndirən qəzet yazır ki, baş nazirin psixoloji durumu və despotik davranışları ölkənin rifahını təhdid edir.

**Yazıda son 10 ildə Ərdoğanın Türkiyə iqtisadi və siyasi yüksəlişi üçün tərifləndiyi, ancaq bu tərifin heç də yerində olmadığı xüsusi vurğulanır:** "Əslində Ərdoğan Türkiyə iqtisadiyyatını yüksəltdiyi kimi böhrana sürükləməkdədir, ən böyük problem isə onun ölkənin beynəlxalq etibarını gözgörəcək dərəcədə zəiflətməsidir. Ölkənin beynəlxalq etibarının itməsinin ən ciddi səbəbi 2013-cü il dekabrın 17-də baş verən Böyük Rüşvət əməliyyatı oldu. Ərdoğanla Gülən camaatı arasında iqtidar mücadiləsində baş nazirin az qala bütün ailə üzvlərini adı korrupsiya və rüşvətdə hallandı. Onun komandasındakı önəmli nazirlər bu əməliyyatdan sonra istefaya getmək məcburiyyətində qaldılar. Ölkənin daxilindəki bu təlatümlər xarici kapitalın ölkəyə axışını azaltdı. Sərmayəçilər sabitlik olmayan ölkələrdə iri pulları riskə atmaq istəmir".

**“Financial Times” yazır ki, Ərdoğan prezidentlik kürsüsünə yiyələnməklə siyasi sistemi tamamilə dəyişməyə çalışır:** “Ərdoğanı seçib-seçməmək seçicinin qərarıdır. Ancaq Ərdoğan Türkiyə prezidenti seçilərsə, onun ölkəni rifaha çatdıracağını göstərəcək heç bir işartı yoxdur. 2011-ci ildən bu yana Ərdoğan sağı-solu bəlli olmayan, rahatsızlıq qaynağı bir siyasətçiyə çevrilib. O, prezident olarsa, bu durumun daha da irəli gedəcəyi və Türkiyəni böhrana salacağı olduqca gözləniləndir”.

**Ərdoğanın kürd açılımını xüsusi bir başlıq altında verən qəzet onun Orta Doğu açılımında ciddi yanlışlıqlara yol verdiyi qənaətindədir:** “Yaranan bu durum Türkiyə iqtisadiyyatını getdikcə çətin duruma salmaqdadır. Ona görə də Türkiyə iqtisadiyyatı yaxın illərdə ən yaxşı halda durğunluq yaşayacaq”.

**Müəllifin fikrincə, seçkinin ilk turunda Ərdoğanın əzici qələbə qazanmaması ölkənin xeyrinə olacaq:** “Əgər ilk turda öz rəqiblərini böyük üstünlüklə yenə bilsə, Ərdoğan ”Atatürkdən daha çox Putin" olacaq".

❑ **Aygün MURADXANLI**

# Ukraynada lazım gəldi...



**Hüseynbala SƏLİMOV**

**Bəli, hər şey öz dairəsinə qayıdır. Ukrayna tədricən şərq bölgələrində suverenliyini bərpa edir. Artıq Slavyansk şəhəri mərkəzi hakimiyyətin nəzarətindədir. Əslində lap əvvəldən belə olmalı idi. Ukraynanın şərqində bir-birinin ardınca rayonlar separatçılara təhvil verilərkən yazmışdıq ki, bu, yalnız və yalnız təxribat ola bilər, çünki böyük vilayətlərin heç bir müqavimət olmadan bir neçə yüz separatçıya təhvil verilməsini başqa cür izah etmək mümkün deyildi.**

Bizim gümanlarımızı sonradan Ukrayna xəbər agentlikləri və uzun müddət orada yaşayan azərbaycanlılar təsdiq etdilər. Belə ki, şərq bölgələrinin çoxunda keçmiş prezident V.Yanukoviçin adamları hakimiyyətdə idi.

Ukrayna və Rusiya dövlətlərinin, ayrılıqda ukraynalıların və rusların mövcudluğunu tarixin səhvi adlandıran keçmiş prezident hakimiyyətdə olduğu müddətdə demək olar ki, Ukraynanın müqavimət qabiliyyətini azaltmaqla məşğul olmuşdu.

İndi Ukrayna gücünü səfərbər etməyə, itmiş müqavimət qabiliyyətini bərpa etməyə çalışır. Bütün bunları etmək və həyata keçirmək üçün yeni prezidentə kart-blanş verilib. Demək lazımdır ki, o, da buna bütün qüvvəsi ilə cəhd edir, hətta bunun üçün öz maliyyə resurslarını belə əsirgəmir.

Rusiya da hələ ki, Ukraynanın şərqdə apardığı əməliyyatları sakit seyr edir. Bunu da təsadüf hesab etmirik. Rusiyanın Ukraynadan qopardığı yalnız Krım olacaq ki, bunu da əvvəllər qeyd etmişdik.

Hələ ötən ayın əvvəllərində Qərb dövlətləri bəyan etmişdi ki, Rusiyanın Ukraynanın şərqinə müdaxilə etməsi onun böyük tarixi səhvi olardı. Rusiya bunu yaxşı anladı və çətinliklə olsa da, qoşunlarını Ukrayna ilə sərhəddən çəkdi.

Ukrayna prezidenti P.Poroşenko da ağıllı hərəkət etdi. O, separatçılara Ukrayna ərazisindən çıxmaq üçün vaxt və dəhliz verdi.

Həm də fikirləşirik ki, üç ölkənin - Gürcüstanın, Moldovanın və Ukraynanın bütün çətinliklərə baxmayaraq Avropa Birliyi ilə assosiasiya sazişi imzalaması Rusiyanı müəyyən qədər düşünməyə vadar etdi.

Ona görə ki, Avrasiya İqtisadi Birliyi müəyyən mənada bu prosesin qarşısını almaq üçün düşünülmüşdü. Amma bu, alınmadı. Təsadüfi deyil ki, Avrasiya İqtisadi Birliyilə bağlı proses bir müddətdir ki, donub, indi əvvəlki eyforiya və optimizm yoxdur.

Prosesin lap başlanğıcında təsisçi dövlətlərin Birliklə bağlı baxışlarında böyük fərqlərin olduğu anlaşıldı. Qazaxıstan və Belarus Birliyin sırf iqtisadi qurum kimi qurulmasında israr etdilər.

İyunun 15-də Ermənistan da Avrasiya İqtisadi Birliyinə daxil olmalı idi. Amma hələ ki bu xüsusda bir hərəkət sezilmir. Əvvəl belə məlum oldu ki, iyulun 3-də Ermənistan və Rusiya prezidentləri görüşəcək.

Bununla bağlı da müəyyən yəqinlik hasil olmadı. Ermənistanda müşahidəçilər bunu müxtəlif cür yozur. Onların bəzisinin fikrincə, Rusiya daha çox Azərbaycanı bu qurumda görmək istəyir və Ermənistanın Azərbaycanla birlikdə quruma daxil olmasını arzulayır.

Amma Azərbaycanın ən azı yaxın vaxtlarda Avrasiya İqtisadi Birliyinə daxil olmaq fikri yoxdur.

Hiss olunur ki, Rusiyanın siyasi dairələrində məyusluq var. Onlar Avropa Birliyinin Şərqə daha bir addımının qarşısını ala bilmədilər.

Hamıya aydındır ki, bu prosesdə Rusiyaya Belarus və Ermənistan o qədər də lazım deyil. Bu iki ölkə onsuz da Rusiyanın “ovucundadır”.

Rusiyanın bəzi inteqrsiya formullarına baxanda bizim müxalifətin hərəkətləri yada düşür. Eyni təşkilatlardan nə qədər birlik yaratmaq olar?

Hətta belə qəbul etsək ki, Rusiya siyasətçilərinin fantaziyası olduqca zəngindir, bütün hallarda etiraf etməliyik bu proses sonsuz deyil, ən azı ona görə ki, riyazi kombinatorika var və o, eyni sayda təşkilatların müxtəlif kombinasiyalarının sayını məhdudlaşdırır.

Bəli, Rusiyaya ilk növbədə Ukrayna və Azərbaycan lazım idi. Ona görə ki, bu ölkələr cəlbedici bazardır. Birində istehlakçılar kütləsinin həcmi, digərində isə alıcılıq qabiliyyəti olduqca böyükdür.

Təbii ki, Rusiya bunun fərqindədir. Ermənistana gəldikdə isə o, Rusiyanı yalnız o halda hərəkətə gətirmək iqtidarındadır ki, Qərbə doğru hərəkət etmiş olsun. Amma o, bunu edərmi?

Prinsipcə, edər. Amma Rusiyadan vaz keçəcəyi halda Ermənistan qərbə yalnız dövlət simvolikalarını və bir də abreviaturasını aparacaq...

# Suriyada ən böyük radikal qruplaşma - “ən-Nusra Cəbhəsi”

## Bir zamanlar vahid qruplaşma olan Bağdadi və Colani artıq düşməndirlər, İŞİD və “ən-Nusra” arasında gedən döyüşlərdə son 6 ayda 5 mindən çox insan öldürülüb

**Sabirabadda bir vəhhabinin saqqalının qırxılması Azərbaycanda dini zəmində gərginliyin artırılması ilə bağlı təxribatlara səbəb olub. Hadisənin mediada, sosial şəbəkələrdə şişirdilməsi, nifrət çağırışları artıb. Hadisə ilə eyni gündə Müşfiqabad qəsəbə məscidində radikalların iftar süfrəsində olan şiə dindarlara hücum etməsi gərginliyi daha da artırıb.**

Hiss olunan odur ki, maraqlı qüvvələr bu tip olayların böyüyərək məzhəb qarşıdurmasına çevrilməsi, məzhəblər arasında nifrətin çoxalmasına çalışır. Suriyada Əsədə qarşı vuruşan “ən-Nusra” terror təşkilatı adından Azərbaycanın hədələnməsi xəbəri də yayılıb. Musavat.com-un xəbərinə görə, Suriyada döyüşən azərbaycanlıların sözçüsü olaraq bilinən Furkan Azeri adlı şəxs sosial şəbəkə vasitəsilə hədələrini yollayıb.

O, twitter hesabında “Sabirabadda yaşananların intiqamı alınacaq, unutmayacağıq”, “Sabirabad şəhərində zorla saqqalı kəsilən qardaşımızı əsla unutmayacağıq və unutdurmayacağıq” - deyə, bildirib. Təhdidin məhz “ən-Nusra Cəbhəsi” adından yayılması bu təşkilata diqqətləri artırıb. Suriyada ən böyük silahlı qruplaşmalardan biri olan “ən-Nusra” hazırda həm hökumət qüvvələri, həm də müxalif qüvvələrlə savaşır.

“Ən-Nusra Cəbhəsi” 2011-ci il sentyabr ayında Suriyada yaradılıb, ilk dəfə 2012-ci il yanvarın 23-də adı açıqlanıb. Qruplaşmanın tam adı “Cabhat an-Nusra li-əhli-Şam” Şam Əhli üçün Yardım Cəbhəsidir. Hazırda “əl-Qaidə”nin Suriya qolu hesab olunur. Qruplaşma lideri Əbu Muhəmməd əl-Culani 2013-cü ilin aprel ayında verdiyi bəyanatda məqsəd və vəzifələrinin digər islamçı qruplaşmalara dəstək olmasına baxmayaraq, “ən-Nusra”nın müstəqil bir təşkilat olduğunu bildirib. Həmin ilin noyabrında isə “əl-Qaidə” lideri Ayman Zəvahiri “ən-Nusra Cəbhəsi”ni rəhbərlik etdiyi təşkilatın Suriyadakı yeganə qanuni təmsilçisi elan edib. “Ən-Nusra Cəbhəsi” bütün dünyada terror təşkilatı kimi tanınır. ABŞ və bir sıra dövlətlər tərəfindən terror təşkilatı siyahısına salınsa da, bu il iyunun 18-də Türkiyə hökuməti Suriyada fəaliyyət göstərən “ən-Nusra Cəbhəsi”nin adını terror təşkilatları siyahısından çıxarıb. Buna səbəb qruplaşmanın Suriyada Bəşər Əsəd qüvvələrinə qarşı savaşmasıdır.

“Ən-Nusra” Suriyada hazırda 3 ən güclü müxalif qruplaşmadan biridir. Qruplaşmanın, bəzi məlumatlara görə, 6-10 min arası döyüşçüsü var. Suriyada savaşan ən qəddar qruplaşmalardan biri kimi tanınıb. Dəməşqdə bir sıra terror hücumlarının, eyni zamanda elə keçirilən hökumət tərəfdarlarının edam səhnələri ilə tanınıb. Qruplaşmanın lideri Əbu Məhəmməd Əl Colaninin əsl adı Usamə əl-Haddavidir, Suriyanın Deyr əz-Zor bölgəsindəki əş-Şəhil şəhərində doğulub. Bəzi məlumatlara görə, 2003-cü ildə Amerika İraqı işğal etdiyi zaman Dəməşq Universitetinin tibb fakültəsində təhsil alan Colani təhsilini buraxaraq İraqa gedib. Burda “əl-Qaidə”nin İraq qoluna qoşulub. 2010-da həbs olunub və bir il sonra həbsdən buraxılıb. Bu günə qədər yalnız bir dəfə “əl-Cəzirə” kanalına müsahibə verib, ancaq üzü görünməyib. Yalnız bir şəkli var, sosial şəbəkələrdə geniş yayılmış qara paltarlı, əli avtomatlı şəxsin Colani olduğu iddia olunsa da, onunla bağlı şübhələr də var.

Daha əvvəl “ən-Nusra” və İŞİD qruplaşması vahid bir təşkilat olub. Hətta mənbələrdə Colaninin İraqdan məhz İŞİD lideri Əbubəkr Bağdadi tərəfindən Suriyaya göndərildiyi haqda məlumatlar yer alıb. Bildirilir ki, “ən-Nusra” cəbhəsi Suriyada məhz İŞİD və “əl-Qaidə” adına savaşıb. Ancaq sonradan İŞİD qruplaşması da öz fəaliyyətini Suriyaya keçirib və Əbubəkr Bağdadi 2013-cü ildə iki qruplaşmasının birləşdiyi və “İraq-Şam İslam Dövləti”nin yaradıldığını elan etdikdən sonra iki lider arasında münasibətlər soyuyur. Colani İŞİD-ə qatılmaqdan imtina edir.

Daha sonra iki qruplaşma arasında kiçik toqquşmalar, zəbt olunmuş ərazilərə nəzarət uğurunda qarşıdurmalar qeydə alındı. İŞİD bir neçə “ən-Nusra” komandirini qaçıraraq qətlə yetirdi. 2014-cü il yanvarın 3-də isə iki qruplaşma arasında qanlı müharibə başlayıb. Bu toqquşmalarda Suriyada fəaliyyət göstərən digər islamçı qruplaşmalar “ən-Nusra” qruplaşmasını dəstəkləyib. Ancaq buna baxmayaraq İŞİD-ə üstün gəlmək mümkün olmayıb. Son məlumata görə, ötən 6 ay ərzində Suriyada islamçı qruplaşmalar arasında davam edən döyüşlərdə 5 min nəfərdən çox adam ölüb. Ancaq hazırda qruplaşma arasında münasibətlərin hansı səviyyədə olması ilə bağlı dəqiq məlumat yoxdur. Bir qədər əvvəl “ən-Nusra” İŞİD-ə qatılması və İraqda İŞİD-i dəstəkləməsi haqda xəbərlər də yayılıb. Qeyd edək ki, 2013-cü ildə iki qruplaşma arasında qarşıdurma yarananda “əl-Qaidə” lideri Əyman əl-Zəvahiri xüsusi müraciətlə çıxış edərək Suriyadakı İŞİD üzvlərini “ən-Nusra”ya qoşulmağa çağırıb. Zəvahiri bəyan edib ki, İŞİD “əl-Qaidə”yə bağlı qurum deyil, onların Suriyadakı dəstəklədiyi qruplaşma “ən-Nusra Cəbhəsi”dir.

İŞİD-də olduğu kimi, “ən-Nusra”də də xeyli sayda azərbaycanlı döyüşür. Bir neçə ay əvvəl Furkan Azeri adlı müəllifin başqa bir azərbaycanlı döyüşçüdən aldığı müsahibədə qeyd olunurdu ki, Suriyada savaşan azərbaycanlıların təxmini sayı 250 nəfərdir və onların 60 faizi İŞİD tərkibində, yerdə qalanları isə əsasən “ən-Nusra” qruplaşmalarında savaşır.

❑ **KƏNAN**



# Ukrayna nümunəsi

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Tarix müharibələr salnaməsidir - yadda qalanlar da qaliblərdir. Məğlublar yenildiklərinə görə, qaliblər isə zamanın axarını dəyişdiklərinə görə xatırlanırlar. Böyük xalqlar isə bu savaşlarda qalib gələn, ya da məğlub olsa da yenidən ayağa duran toplumlardır. Məğlubiyyətlə barışanlar isə unudulurlar, heç izi də qalmır... Belə nümunələrin sayı-hesabı yoxdur...**

Rusiya prezidentinin səfirlərlə görüşündəki nitqinə diqqət yetirdinizmi? Nə qədər özünü baş verənlərdən sarsılmayan dövlət başçısı kimi göstərmək istəsə də, bu dünyada təkləndiyini, böyük bir ölkəni dalana dirədiyini, bunun törəmə səbəblərini əsaslandıra bilmədiyini gizlədə bilmirdi... İndiyəcən dünyanın siyasi tərəzisinin bir gözündə bərabər çəkidə duran bir ölkənin lideri, əsəbi danışığı, dünyaya barmaq silkələməsi ilə tragikomik obrazı oynayan aktyora bənzəyirdi.

İmperiya xəyalları ilə yaşamaq olar, amma onu ənənəvi formada gerçəkləşdirmək mümkündürmü? Axı bunun üçün gərəkli olan resurslar tükənib. Bu dünyada daha böyük paya sahib durmaq üçün ölkələr fəth etməyə ehtiyac yoxdur... Kim çevikdirsə, o, maddi resurslara sahib durur, dünya bazarında rəqabətdə öndə gedir...

İstər iqtisadi, istərsə də siyasi resurslar daha cəlbedici olanda xırda dövlətlər kimin yanında dayanmağı özləri müəyyən edirlər. Qansız-qovğasız işğallar beləcə gerçəkləşir.

Dünyanın siyasi xəritəsində iz qoysa da, sovet imperiyası, demək olar ki, heç bir ciddi siyasi uğura imza atmamışdı. Halbuki dünyanın iqtisadi xəritəsini dəyişən ölkələr məhz sovet imperiyasından aldığı xammal hesabına ən modern həyat qurmuşdular. Onda bu geridə qalmanın obyektiv və subyektiv səbəbləri var idi. SSRİ dağıldı, Rusiya dotasiya ilə yaşayan respublikaların boyunduruğundan çıxdı, amma tarixi fürsətdən bəhrələnə bilmədi... Bu qədər neft, qaz satan ölkə bircə addım da qabağa getmədi...

Neft və korrupsiya böyük ümidlərlə yaşayan ölkənin taleyinin üstündən xətt çəkdi. Bu uğursuzluq Putinin hakimiyyəti dövründə daha davamlı, dönməz xarakter aldı. İndi yaşanan böhran onun az qala 14 ildən bəri davam edən hakimiyyətinin gözə görünən yeganə meyvəsidir...

Ukraynadakı məğlubiyyət hələ Rusiyanı hədəfə alan təhlükənin ilkin əlamətidir... Üç ay yetərli oldu ki, dünya Rusiya təhlükəsinin sovuşmadığını dərk etsin. Avropa Ukraynanı tapdamaq istəyən xislətə qarşı ciddi, düşünülmüş addım atdı. Ukraynanın azadlıq uğurundakı qətiyyəti də ruslara məğlubiyyət acısı yaşatdı... İndi çox adam sual verir ki, niyə Rusiya sonuncu addım kimi bu ölkəyə qoşun yeritməyə cəsarət etmədi...

Məsələ ondadır üç ay sürən, o qədər də dərin olmayan sanksiyalar öz işini gördü... Rusiyanın büdcə ehtiyaclarını doyuran "Qazprom" artıq 108 milyard dollar ziyanla üzləşib. Rusiyanın Avropanı qazla təhdid etməsi özünə qarşı yönəldi... Bax bütün bunlar Putini Ukraynada separatizmi sonadək dəstəkləməkdən çəkindirdi. İndi Rusiyanın dəstəklədiyi terrorçuları "unudub", sakitcə geri çəkilmək istəməsi dünyanın gözündə yenidən özünü doğrultmaq, bəraət qazanmaq cəhdidir... Yalnız bu yollara baş verənlərin unudulacağını güman edirlər...

Hər bir xalq, coğrafi ərazidə məskunlaşan toplum tarixi fürsətdən yararlanıb. Nədən indi işğal olunmuş torpaqlarımızı azad etməyək, bu məqamdan yararlanmayaq? Axı Ukraynadakı separatizmin də, bizim ölkəmizin böyük bir ərazisinin işğal olunmasının da arxasında məhz Rusiya dayanır... Nədən biz də qətiyyətli bir savaşla, bir həmlə ilə torpaqlarımızı təcavüzkarlardan azad etməyəcək. Belə bir məqamda Rusiya ikinci cəbhə aça bilməyəcək. Köhnə məkanda yeni qovğanın baş verməsi onun üçün ölüm təhlükəsi qədər qorxuludur...

Susmağı da bir hünər bilənlər, Rusiyanı qəzəbləndirməmək, onun nazı ilə oynamaq yolunu tutanlar yanılırlar. Əslində son günlər cəbhə xəttində atəşkəsin tez-tez pozulması ilə Rusiya bizə hələ ölmədiyini, ayaqda olduğunu, əslində isə yeni bir savaşdan qorxduğunu xatırlatmaq istəyir. Amma hər bir dövlət baş verənlərdən özü üçün nəticə çıxarmalıdır. Biz torpaqlarımızı azad etməklə, erməni separatizminə son qoymaqla həm də Rusiyanın Azərbaycana uzanan tamah əlini kəsmiş olarıq...

Bunun üçün təkcə Ukrayna nümunəsi yetərlidir...

# Sərdar Cəlaloğlu Qurani-Kərimin təfsirini yazır

## "Bir müddət əvvəl kəşf etdiyim condisiologiya elmi burada mənə kömək oldu, artıq 90 səhifə yazmışam"

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimi təfsir edib. O, bu təfsir barədə təsisçisi olduğu "Hürriyyət" qəzetində geniş və silsilə yazılar da verir. "Qurani-Kərimin condisioloji təfsiri" başlıqlı yazılarda bildirilir ki, bu kitabdakı mənaların tam açıqlığı ilə eyni dövrdə verilməsi insan idrakını məhv edərdi.**

"Ramazan ayının başlanması münasibətilə iman gətirmək istəyən din qardaşlarımıza bu qısa təfsirin kömək etməsini Böyük Yaradandan təmənna edirik",- deyə yazıda qeyd edilir.

**S.Cəlaloğlu** özü isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, təfsir barədə uzun müddət düşündükdən sonra yazmağa qərar verib: "Əvvəla, Quranla bağlı "Siratəl Müstəqim" adında bir kitab yazmağı planlaşdırırdım. 45 səhifə yazandan sonra condisiologiya elmini yazmaq fikrinə düşdüm. Həm də o 45 səhifə mənin özümü qane etmədi, orada indiyədək verilən təfsirlərdən fərqli bir şey yox idi. Bu, iki il əvvəl olub. Yazını saxladım, dedim yəqin hələ hazır deyiləm. Bu Ramazan ərəfəsində isə İŞİD-in törətdiyi cinayətlər, insanların kütləvi şəkildə başlarının kəsilməsi, istənilən qadının halal edilməsi, insanların kütləvi şəkildə basdırılması kimi məsələlər diqqətimi çəkdi. Bu kimi faktlar insanların dindən uzaqlaşmasına səbəb olur. Bununla bağlı suallar o qədər çox oldu ki, fikirləşdim ki, orucluqdur, özüm də orucam, Allaha xidmət kimi bu məsələlər barədə araşdırma apara, məqalə yaza bilərəm. İstədim İslamın məzhəblərə və dinlərə ayrılması ilə bağlı yazı yazım. Ancaq bunu araşdırmaq istəyəndə dəhşətə gəldim. Əsas səbəb odur ki, demə, əlimizdəki Quranda insanların müdaxiləsi var. O müdaxilə bütünlüklə Quranı dərdik etməyimizə mane olur. Ayrı-ayrı təriqət və məzhəblərə bölünməmizə səbəb olur. Fikirləşdim ki, artıq bir məqalə ilə bu mətləbi açmaq olmaz, geniş izahat lazımdır. Quranda 3, 4, 5 məsələ var ki, onun ilahi mahiyyətinə çox ciddi mane olur. Bu sualı verdim özümə ki, bu, müqəddəs kitabdır və bu səbəbdən elə bir mexanizm olmalı idi ki, nazil olandan sonra dəyişdirilməsini ifşa etmək mümkün olsun. Mən işarələnmə, şifrələnmə kimi məsələləri araşdırdım. Bir müddət əvvəl kəşf etdiyim condisiologiya elmi mənə bu işdə kömək oldu. Condisiologiya elmi mütləq həqiqətin dərk edilməsidir. İşarəetmənin mənbəsinin açılmasını o elmə əsasən etdim".



**S.Cəlaloğlu deyib ki, iyunun 28-də başladığı yazını hələ də yazmaqda davam edir:** "Orucluğun birinci günü başlamışam yazmağa, artıq 90 səhifə yazmışam". S.Cəlaloğlunun sözlərinə görə, təfsir üçün xeyli mənbələrdən, kitablardan istifadə edib: "Mən ərəb dilini bilmirəm. Təfsir üçün bu, vacib deyil. Ərəb dilinin İslama gətirdiyi ziyan qədər ikinci bir dil ziyan gətirməyib. Bu dil Quranı təhrif etməyə imkan verir. Əslinə baxsan, bu kitabı tərcümə olunmuş dildən oxusan, daha yaxşıdır. Hazırda əlimin altında müxtəlif din alimlərinin hədis açmaları, Quranın 2-3 variantı, sünni alimlərinin 20 cildlik təfsir kitabı və digər kitablar var. Allah mənə ağıl verib və buna əsasən yazıram. Əsas hədəfim budur ki, tapım, araşdırım, məzhəblər niyə yaranıb və niyə düşməndirlər. Vəhhabi də, şiə də, sünni də eyni kitaba istinad edir, amma bir-biri ilə düşməndirlər. Bu müqəddəs kitabın məqsədi onu oxuyanları birləşdirməkdir, amma bunlar qırırlar bir-birini. Mən bunun səbəbini bilmək və aydınlaşdırmaq istəyirəm".

Dini ekspertlərin fikrincə isə S.Cəlaloğlu, yəni ərəb dilini bilməyən, Quranı orijinaldan oxuyub başa düşməyən, həmçinin kifayət qədər dini bilgiləri olmayan şəxs Quranın təfsirini verə bilməz.

**Dini ekspert Rəsul Mirhəşimli də bildirir ki, Sərdar Cəlaloğlu Qurani-Kərimin təfsirini verə bilməz:** "O, sadəcə, Quranın Azərbaycan türkcəsindəki məalından öz anladıqlarının yozumunu verə bilər. Bunun adı təfsir deyil. Təfsir İslam elmində çox ciddi və məsuliyyətli bir sahədi. Ayələrin nazil olma ardıcıllığı, nazil olma səbəbi, hədislərlə şərhini bilmədən, klassik ərəb mətnlərini oxumadan kimsə təfsir yazmaq iddiasına düşürsə, yanılır".

**İlahiyyat üzrə fəlsəfə doktoru Aslan Həbibov isə qeyd edir ki, sözügedən təfsirdən xəbərsizdir və buna görə qəti bir söz deyə bilməz:** "Ondan xəbərim yoxdur. Bilmədiyim, görmədiyim üçün detallı danışmağım, bu barədə nəsə deməyim düzgün deyil. Çünki xəbərsizəm. Onun kimlərə, hansı mənbələrə istinad etdiyi, necə təfsir yazdığını, hansı nəticəyə gəldiyini oxumaq, sonra fikir bildirmək lazımdır. Amma şübhə yoxdur ki, Quranı təfsir edə bilmək üçün müəyyən elm, bilgi sahibi olmaq lazımdır. Ərəbcə bilmək lazımdır, İslam tarixini, Məhəmməd peyğəmbərin həyatını bilmək lazımdır. Ən azından bu sahədə məlumata sahib olmaq lazımdır".

❑ Röya RƏFİYEVA

# ADP-nin iki "adaxlısı" var...

## Sülhəddin Əkbərin yeni partiyasının abbreviaturası Sərdar Cəlaloğlunun partiyasının adına oxşayır

**Xəbər verildiyi kimi, iyulun 6-da Azad Demokratlar Partiyası təsis qurultayını keçirib. Bir zamanlar Müsavat rəhbərliyində, daha sonra eks-spiker Rəsul Quliyevin təşkilatında təmsil olunan Sülhəddin Əkbər partiyanın sədri seçilib. Yeni yaradılmış partiyanın adının qısaldılmış formasının necə yazılacağı çoxlarında maraq oyadır.**

Çünki ölkədə Azərbaycan Demokratik Partiyası (ADP) adlı təşkilat fəaliyyət göstərir. Azad Demokratlar Partiyasının qısaldılmış formasına fikir versək görərik ki, bu partiyanın abbreviaturası ADP-nin təkrarı olacaq. Doğrudur, "Siyasi partiyalar haqqında" Qanuna görə, qısaldılmış adları təkrarlamaq qadağandır. Amma istər-istəməz S.Əkbərin partiyasının abbreviaturasının bu iki partiyanı bir-birindən ayırmaqda çaşqınlıq yaradacağı şübhəsizdir.



**ADP Sərdar Cəlaloğlu ad məsələsində problem yaranarsa, məhkəməyə müraciət edəcəklərini bildirdi:** "Sülhəddin bəyin yaratdığı partiya ADP ola bilməz. Çünki "Siyasi partiyalar haqqında" Qanuna görə, qısaldılmış adları təkrarlamaq qadağandır. Bu partiyanı Ədliyyə Nazirliyi AzDP kimi qeydə alacaq. Əgər bu partiya ADP kimi qeydə alınsa, biz o zaman məhkəməyə müraciət edib, adı dəyişdirəcəyik. Azad Demokratlar Partiyası AzDP olmalıdır. Adın heç bir oxşarlığının mənası yoxdur. O partiya cəmiyyətdə özünə yer tutacaqsa, adından asılı olmayaraq, tanınacaq. Ona görə də bu məsələ məni qıcıqlandıra bilməz. Qanun pozulacaqsa, qanunazidd hansısa addım atılacaqsa, məhkəmələrlə həll edəcəyik. Azad Demokratlar Partiyası haqqında elə də dolğun məlumatım yoxdur. Biz onlara uğurlar arzulayırıq"

Onu da qeyd edək ki, Azad Demokratlar Partiyasının problemi təkcə adı ilə bağlı deyil. Belə ki, partiyanın bayrağındakı qartal simvolu ətrafında mətbuatda və sosial şəbəkələrdə müzakirələr başlayıb. Çoxları bu simvolu PKK-nın emblemindəki qartal simvolu ilə müqayisə edərək, oradan götürüldüyünü iddia edirlər.

**Bu iddialara aydınlıq gətirmək üçün Azad Demokratlar Partiyasının yeni seçilən sədri Sülhəddin Əkbərlə əlaqə saxladıq. O, bu iddiaların ya "dahi"likdən, ya da qərəzdən irəli gəldiyini bildirdi:** "Qartal ABŞ, Almaniya, Rusiya, İndoneziya və bir sıra ərəb ölkələrinin gerbində var. Hər halda, o iddianı irəli sürənlər ya "dahi"dilər, ya da qərəzlidirlər. Bunlar bayraqlarında gerb olan ölkələrdən xəbərsizdilər. Dahiləri bağışlamaq olar, amma qərəzli olanları heç zaman bağışlamaq olmaz. Qərəzli olanlar hər zaman danışacaqlar. Qartal gücün və azadlığın rəmzidir. Azad Demokratlar Partiyası olaraq güclü inkişaf etmiş Azərbaycan istədiyimizə görə bu rəmzi seçmişik".

❑ Cavanşir ABBASLI

# İnsan amilinə verilən dəyər, məmur-vətəndaş münasibətlərində yenilik: "ASAN xidmət"

**Bakının Sabunçu rayonundakı 4 saylı "ASAN xidmət" mərkəzi bu ilin 15 mayından fəaliyyətə başlayıb. Bununla da ölkə üzrə vətəndaşların işini xeyli asanlaşdıran "ASAN xidmət" mərkəzlərinin sayı 6-ya çatıb. Son açılan mərkəzdə - Sabunçu bölməsində olub vəziyyəti öz gözümüzlə görmək istədik və gördük də...**




Elə giriş qapısından içəri daxil olduqda nizam-intizam, işgüzar şərait, müsbət atmosfer, əməkdaşların vətəndaşla xoş ünsiyyəti diqqətimizi cəlb etdi. Müraciətimizdən sonra bizi məmnunluqla sözügedən ünvanda müşayiət edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnformasiya təminatı şöbəsinin müdiri **Anar Hüseynovun** sözlərinə görə, Sabunçudakı mərkəzin açılmasından sonra Bakı şəhəri 100 faiz "ASAN xidmət"lə təmin olunub: "İlk "ASAN xidmət" mərkəzi 2013-cü ilin 15 yanvarında Nərimanovda pilot layihə çərçivəsində fəaliyyətə başlayanda gündəlik 1500 - 2 min arası vətəndaşa xidmət göstərirdi. İndi isə sistemi elə qurmuşuq ki, gündəlik hər mərkəzdə 2 mindən artıq vətəndaşı da qəbul etmək mümkündür". Hazırda bütün Bakını əhatə edən 4, bölgələrdə isə 20-yədək rayonun əhalisinə xidmət göstərən 2 (Sumqayıt, Gəncə) "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir".

## Vətəndaş məmnunluğu...

Vətəndaş Şəhla Mehrəliyeva deyir şəxsiyyət vəsiqəsinin vaxtı artıq iki il öncə bitsə də, Sabunçuda "ASAN xidmət" mərkəzi açılandan sonra yeni vəsiqə almağa gəlib. Şəxsiyyət vəsiqəsini müvafiq qurğuya yaxınlaşdırmaqla xidmət növünü seçən və növbə götürən vətəndaş sənədlərini təqdim etmək üçün 3-cü mərtəbəyə qalxır və dərhal da növbəsi çatır. İki dəqiqəyə hazırlanan anketi imzaladıqdan sonra üç gün ərzində vəsiqəni almağa görə tələb olunan 10 manatlıq rüsumu ödəmək üçün kassaya yaxınlaşır. Burada da üç dəqiqə vaxt sərf edir və ona iyulun 8-də gəlib vəsiqəsini götürməsi tövsiyə olunur. "Burda başqa ab-hava gördüm, düzü görməsəydim, inanmazdım"-deyib Ş.Mehrəliyeva məmnun halda "ASAN"-ı tərk edir...

**"ASAN xidmət"də yeni doğulan körpələr doğum haqqında şəhadətnamə alınandan onlar üçün şəkilsiz şəxsiyyət vəsiqəsi və ardınca isə pasport almaq da mümkündür. Vətəndaş Araz Aslanlı da 7 və 9 yaşlı uşaqlarına pasport almaq üçün gələnlərdəndir:** "Uşaqlara şəxsiyyət vəsiqəsi almaq və həyat yoldaşımın şəxsiyyət vəsiqəsini dəyişdirmək üçün müraciət etmişdim. Sənədləşmə prosesi yarım saat çəkdi. Bu gün artıq hazır olan şəxsiyyət vəsiqələrini aldım və xarici pasport almaq üçün müraciət etdim. "ASAN xidmət" eşitmişdim, amma düzü, belə asan olduğunu gözləmirdim". Onu da deyir ki, "ASAN" Azərbaycan cəmiyyətinin standartını da dəyişəcək.

***

İlk "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayanda 9 dövlət qurumu tərəfindən 23 xidmət həyata keçirilib. Prezident İlham Əliyevin 18 mart 2013-cü il tarixli fərmanına əsasən 2 hüquqi xidmət, həmçinin 22 yardımçı funksional xidmətlər də əlavə edilib. Bu ilin fevralında imzalanan növbəti fərmanla daşınmaz əmlakla bağlı xidmətlər də "ASAN xidmət"ə verilib. İndi artıq "ASAN xidmət"ə verilən dövlət qurumlarının sayı 10-a çatdırılıb və Hərbi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları da mərkəzdə oturub və artıq o xidmət burdaca həyata keçirilir. Artıq "Azərsu", "Azəriqaz", "Bakıelektrikşəbəkə" və Mərkəzi Bankın xidmətlərindən də "ASAN xidmət" çərçivəsində yararlanmaq mümkündür.

ASAN-ın müasir texnoloji avadanlıqlarla, internetlə, faksla təchiz olunan, məlumat bazalarına çıxış əldə edən iki avtobusu var ki, onlar şimal və cənub istiqamətində hərəkət edərək vətəndaşlara səyyar xidmət edir. 2013-cü ildə 21 məntəqədə 37 rayonun, bu il isə 14 məntəqədə 16 rayon sakinlərinə səyyar xidmət göstərilib. Bu da ümumilikdə 95-100 min vətəndaşa xidmət deməkdir. Ümumilikdə isə yarandığı gündən "ASAN xidmət"ə 2 mln. 120 min müraciət daxil olub.

## Könüllü "ASAN"çılar

"ASAN xidmət"də Avropada geniş yayılan könüllülük fəaliyyətindən də istifadə olunur. İki ay ərzində uğurlu fəaliyyət göstərən könüllülərə sertifikat verilir. İndiyədək 1500-dən artıq könüllü fəaliyyətini uğurla başa vurub. Masalarına yaxınlaşdığımız könüllülər xüsusi zövqlə vətəndaşlara ərizə-anket doldurmaqda kömək edirlər. 4 gündür könüllülərə qoşulan Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər fakültəsinin tələbəsi Tofirə Hüseynova deyir təcrübə topladıqdan sonra dövlət qulluğuna imtahan verib "ASAN"da işləmək niyyətindədir. Yeri gəlmişkən, indiyədək "ASAN"da uğurla fəaliyyət göstərmiş gənclərin bazası - "kadr bankı" da yaradılıb.

## Bir düymə ilə canlı əlaqə...

"ASAN xidmət"in facebook-da, tvitterdə, instoqramda, youtube-də də səhifələri var. A.Hüseynov deyir ki, facebook-da gün ərzində azı 300 müraciət cavablandırılır. Asan.gov.az səhifəsindəki online bölməsi vasitəsilə vətəndaş sualını ünvanlayır və cavab alır. Həmçinin "ASAN"ın bütün mərkəzlərində elektron müraciət köşkü vasitəsilə vətəndaşa 108 Çağrı Mərkəzi ilə videobağlantı imkanı yaradılıb. Biz də müvafiq düyməni basmaqla mərkəzdə yerləşən Çağrı Mərkəzi ilə canlı bağlantı qurub iki aydır burada çalışan Aynurə Quliyeva ilə həmsöhbət olduq.

**Bir çoxları hesab edir ki, "ASAN xidmət"də çalışanlar bu qurumun öz işçiləridir. Ancaq öyrənirik ki, hər mərkəzdə "ASAN"a aid olan cəmi 20-25 işçi çalışır, digər əməkdaşlar isə aidiyyəti orqanların bura ezam olunan nümayəndələridir. A.Hüseynov deyir ki, indiyədək "ASAN xidmət" mərkəzində əməkdaşlarla bağlı hər hansı neqativ hala rast gəlinmədiyi üçün kimsə cəzalandırılmayıb:** "Əməkdaşlara etik davranış, vaxtın, konfliktli halların idarə olunması, məsuliyyət, nəzarətlə bağlı yerli və xarici mütəxəssislər tərəfindən təlim keçilir. Həmçinin dövlət qulluğu ilə bağlı müəyyən olunmuş maaşdan əlavə, "ASAN xidmət" mərkəzi çərçivəsində toplanmış rüsumların 30 faizi əməkdaşların məvacibinə yönəldilir. "ASAN"da nağd ödəniş sistemi olmadığından hər hansı rüşvət və korrupsiya hallarına da rast gəlmək mümkün deyil. Sənədləri toplayan vətəndaş banka ödəniş edir və qəbzi ilə birgə müvafiq orqanın təmsilçisinə yaxınlaşır".

***

"ASAN özünəxidmət" guşəsindən istifadə etmək üçün də xüsusi qurğular var. Vətəndaş evindən mobil telefon vasitəsilə bu qurğuya daxil olmaqla real rejimdə hansı mərkəzdə nə qədər vətəndaşa xidmət göstərildiyini və növbədə duranların sayını öyrənə bilər. Necə ki, biz öyrəndik ki, şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi ilə bağlı 4 saylı "ASAN"da 279 nəfərə xidmət



göstərilib, 9-u isə növbədədir. 2 saylı Mərkəzdə isə bu rəqəmlər müvafiq olaraq 363-89 nisbətində idi.

## Əcnəbilər üçün də asan olacaq

"ASAN xidmət" mərkəzində yeni innovasiyaların tətbiq edilməsi istiqamətində də işlər görülür. Sabunçudakı "ASAN"ın açılışı zamanı dövlət başçısına bir sıra yeni layihələr təqdim olunub. Bu yeniliklərdən biri "ASAN mobil tətbiqetmə"dir. Artıq vətəndaşlar son model telefonlara müvafiq proqram yükləməklə internet çıxışı olan yerlərdən "ASAN"la bağlı bütün xidmətlərdən məlumatlı ola, məsələn, vətəndaş telefon üzərindən online əlaqə yarada, növbə tuta, xidmət mərkəzlərinin yerləşmə ünvanlarını öyrənə bilərlər.

Paytaxtın ayrı-ayrı ünvanlarında qoyulacaq müvafiq qurğunun köməyi ilə şəhərdəki teatr, hotel, restoranlar və s. yerləşdiyi ünvanları dəqiqləşdirmək mümkün olacaq. İlkin olaraq 12 dildə məlumat verəcək xidmət daha çox 2015-ci ildə Bakıda keçiriləcək Avropa Oyunları ilə bağlı gələcək qonaqlar üçün nəzərdə tutulub. Yəni bu innovasiyalar təkcə vətəndaşların deyil, əcnəbilərin də işini asanlaşdırmağa yönəlib.

Vətəndaşlar üçün "ASAN"ın mərkəzləri ilə asan telefon əlaqəsinin yaradılması da nəzərdə tutulur. Həmçinin yeni ideyaları, layihələri olan şəxslərə də öz işlərinin davamı üçün "ASAN"da yer təklif olunacaq. Vətəndaş ən minimal şərtlərlə ofis şəraitində özünə mini iş quracaq.

Barəsində ev dustaqlığı seçilmiş vətəndaşın üzərinə yerləşdiriləcək müvafiq avadanlıq onu nəzarətdə saxlamağa imkan verəcək.

"ASAN xidmət" mərkəzlərinin gələcəkdə günəş, külək enerjisi ilə təminatı, yağış sularının təmizlənməsindən sonra istifadəyə verilməsi də gələcək layihələrdəndir.

"ASAN"ın xeyriyyə aksiyaları da olub. Qarabağ əlillərinə və uşaq evlərinin sakinlərinə ödənişsiz əsaslarla ümumvətəndaş pasportunun verilməsi, qanvermə aksiyaları kimi...

"ASAN"ın Bakı şəhəri üzrə də səyyar xidməti fəaliyyət göstərir. Gözdən əlillərə də ödənişsiz qaydada VİP xidməti göstərilib. "ASAN xidmət" mərkəzlərinin giriş hissəsində gözdən əlillər üçün brayl əlifbası ilə lövhə qoyulub və bölmələrə doğru hərəkət etmələrindən ötrü döşəmə üzərində xüsusi cığırlar açılıb.

***

**"ASAN xidmət"də uşaqlar üçün də şəhərcik yaradılıb. Başı oyunlara qarışan balacaların üzərinə nəzarətçi də qoyulub. Uşaqlarına şəxsiyyət vəsiqəsi və pasport almaq üçün gələn Rüqəyya Məmmədova münasibətdən razıdır:** "Uşaqlar pul-parasız oynayır, üstlərində nəzarət var, özümüz də sənədləşmə ilə məşğuluq". Yeri gəlmişkən, burada BMT-nin Uşaq Fondu (UNİCEF) tərəfindən Uşaq Hüquq Mərkəzi də yaradılıb. Pilot layihə olan bu mərkəzdə valideyn-uşaq münasibətləri ilə bağlı maarifləndirici görüşlər keçirir.

"ASAN"ın balacalar üçün digər bir maraqlı layihəsi mərkəzin həyətindəki Uşaq Avtoşəhərciyidir. 4 saylı "ASAN xidmət" mərkəzinin baş məsləhətçisi Elxan Abdullayev deyir könüllülərin nəzarəti altında uşaq avtomobillərindən istifadə etməklə balacalara qaydalar öyrədilir.

## Ölkəboyu ASAN...

2014-cü ilin sonuna kimi "ASAN"ın əlavə 4 regional - Sabirabad, Bərdə, Masallı və Qəbələ mərkəzi istifadəyə veriləcək. Maketləri bizə göstərilən həmin mərkəzlər həm də ətrafdakı rayonlara xidmət göstərəcək. A.Hüseynov deyir ki, ilin sonuna kimi ölkə üzrə qeydiyyat məhdudiyyətinin aradan götürülməsi planlaşdırılır. "Ancaq cənab prezident deyib ki, gələcəkdə hər bir rayonda "ASAN xidmət" mərkəzinin yaradılması nəzərdə tutulur. Artıq Sabirabad və Bərdədəki "ASAN xidmət" mərkəzlərində çalışmaq istəyənlər üçün dövlət xətti ilə vakansiyalar elan edilib və iyulun 14-nə kimi sənəd qəbulu həyata keçirilir".

**Ekspertlər də "ASAN xidmət"in işinə böyük dəyər verir. Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədova görə, vaxt itkisinin minimum səviyyədə olması ən müsbət amildi:** "Üstəlik, bu xidmət vətəndaş-məmur təmasını minimuma endirməsi baxımından da ciddi əhəmiyyətə malikdir. İndiki xidmət neqativ halların, rüşvət və korrupsiyanın qarşısını alır. Ancaq bu xidmətin fəaliyyətini genişləndirmək lazımdır ki, regionlarda da vətəndaşların işi asanlaşsın". Deputat hesab edir ki, icra hakimiyyətlərinin, Gömrük Komitəsinin və digər qurumların sənədləşmə ilə bağlı səlahiyyətinin "ASAN"a verilməsi daha yaxşı olardı. Rəsmi qurumlardan isə bu məsələnin prezidentin səlahiyyətində olduğunu bildirirlər.

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu da "ASAN xidmət"in fəaliyyətini təqdir edənlərdəndir:** "Özüm də bir neçə dəfə həmin xidmətdən istifadə etmişəm. Bu xidmətin fəaliyyətə başlaması sübut etdi ki, azərbaycanlılar heç də deyildiyi kimi korrupsiyaya tolerant deyillər. Onlar korrupsiya olmayan xidmətlərdən lazımi qaydada bəhrələnmək mədəniyyətinə malikdirlər. İkincisi da sübut olundu ki, korrupsiyaya qarşı mübarizədə idarəçilik və sistem dəyişikliyi çox vacibdir. Bu xidməti idarə edənlər göstərdilər ki, dövlət orqanları rüşvətsiz də fəaliyyət göstərə bilər".

❑ **Elşad PAŞASOY**
**Fotolar müəllifindir**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 22 iyul Milli Mətbuatın yaranmasının 139 illiyi ilə əlaqədar elan etdiyi müsabiqəyə təqdim etmək üçün.*

bakcell

## «KFC» və «Coca Cola»dan Ulduzum istifadəçiləri üçün özəl menyu!

ulduzum

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti abunəçilərin nəzərinə çatdırır ki, «Coca Cola» şirkəti «KFC»restoranlar şəbəkəsi ilə birlikdə Ulduzum proqramı çərçivəsində keçirilən kampaniyaya qoşulub.**

**1 iyul- 30 sentyabr 2014 tarixləri arasında «KFC» və «Coca Cola»dan Ulduzum istifadəçiləri üçün özəl menyu!” adlı kampaniya keçirilir. Ulduzum proqramının istənilən üzvü «KFC» restoranında cəmi 3.90 AZN ödəməklə i-tvister, fri kartofu və çiyələk siroplu dondurma aldığı zaman 0,5 l-lik «Coca Cola» hədiyyə alacaq.**

**Ulduzum proqramına üzv olmaq üçün “1" yazıb 5555 nömrəsinə pulsuz SMS yollamaq yetərlidir.**

**100000 nəfərdən çox üzvü olan bu proqramın partnyorları siyahısında seçilmiş restoranlar, dəbdəbəli geyim, aksessuar, ətriyyat, mebel, məişət cihazları və elektrotexnika mağazaları, sağlamlıq, idman və istirahət mərkəzləri və bir sıra xidmət məntəqələri var. Hər üç ay ərzində bu proqrama orta hesabla 50 yeni partnyor qoşulur və sərfəli güzəştlər təqdim etməklə Ulduzum proqramı üzvlərinə «Bakcell» ilə daha yaxın olur.**

**www.ulduzum.az saytında Ulduzum proqramının partnyorları siyahısı, onların təklif etdiyi endirimlər və daha ətraflı məlumatı əldə etmək olar.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. \Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

# “Haqsızlıqlar məni ölümə vadar edir”

## Türkan sakini ölkənin birinci xanımından kömək istəyir

**“Yaxşı ki, sizlər varsınız, biz sakinlərin üzləşdiyi problemləri dövlət başçımıza, Xəzər rayonunun deputatı Mehriban Əliyevaya çatdırırsınız. İnanıram ki, dövlət başçısı Xəzər rayonunun Türkan qəsəbəsində olanlara münasibət bildirəcək, vətəndaşları dövlətdən narazı salan bəzi dövlət məmurları barədə sərt addımını atacaq”. Bu sözləri “Yeni Müsavat”a üz tutan Türkan qəsəbə sakini Afər Əhmədağa oğlu Əmirov deyib.**

Onun sözlərinə görə, atası Ə.Əmirov illər öncə Keşlə sakini olan Ramiz Musayevdən Türkan qəsəbəsi ərazisində olan bağ sahəsini alıb və orada ev tikiblər: “Ailə qurub həmin evdə yaşamışam. Ramiz yataq xəstəsi olarkən torpağın pulunu bizdən almışdı, demişdi ki, müalicə olunub ayağa qalxdıqdan sonra bizə sənəd verəcək”.

**A.Əmirov deyir ki, R.Musayev dünyasını dəyişdiyindən sənədləşmə məsələsi alınmayıb. Amma R.Musayev bağın pulunu onlardan özünün qardaş və bacılarının yanında aldığından nə vaxtsa onun yaxınlarının bağa iddia edəcəklərini belə düşünməyiblər:** “Ramizin ölümündən sonra həyat yoldaşı Firəngiz Musayeva məndən 2 min manat istədi. Bağın pulunu ödədiyimizdən ona əlavə 2 min manatı vermədim. O da dedi ki, pulu verməsən, evi başına uçuracağam. Qanunsuz olaraq evimi uçurdu, illərdir ki, küçələrdəyəm. Bu müddət ərzində bütün dövlət instansiyalarına müraciət etmişəm. 7-8 ildir ki, torpağım da qalıb orada. 2 il əvvəl də Babək adlı bir nəfər gəlib və bağın ona məxsus olduğunu deyir. Üstümə kriminal keçmişi olan şəxsləri gətirirlər. Onlar da məni hədələyir. Bir dəfə də Qaradağ polisində işləyən Firdovsi adlı polis işçisini gətiriblər. O da mənimlə hədə dilində danışır. Mənim əlimdə Ramiz Musayevin qardaşı Arif Musayevin, bacısı Ağabacının notariat qaydada verdiyi etibarnamə var. Bunların əlində olan isə saxta sənədlərdir. Saxta sənəd məsələsinin araşdırılmasını istəyirəm. Amma heç kim araşdırmır. Çünki mənim pulum yoxdur. Daş karxanasında fəhlə işləyib günü-günə calayıram. Bilirlər ki, rüşvət verməyə pulum yoxdur, ona görə də pulu olan Firəngizin üstümə göndərdiyi adamların tərəfini tuturlar. Bu allahsızlıq haqda Xəzər rayonunun səlahiyyət sahiblərinə yazmışam. Məktublarımın Mehriban Əliyevaya çatmasına imkan verilmir. İcra başçısından da məsələni gizlədirlər”.

**A.Əmirov deyir ki, baş verən haqsızlıqlara atası Əhmədağa Əmirov dözməyib:** “Atam dövlətə inanan adam idi. Deyirdi ki, heç ola bilməz ki, bağı bizə satsınlar, sonra da gəlib desinlər ki, əlavə pul ver, yoxsa evi başına uçuracağıq. Amma gözümüzün qarşısında evi yerlə-yeksan etdilər. Atam bu haqsızlığa dözməyib insult oldu. Üstümə sonuncu dəfə gələn şəxs Firəngizin göndərdiyi Babək oldu. O deyir ki, bağı almışam, vəzifəli şəxsəm, başına oyun açaram. Mən də deyirəm ki, vəzifəli şəxssənsə, gərək qanunsuzluq etməyəsən, saxta sənədlə torpaq almayasan. Prezident də məmurları haqsızlıq etməməyə çağırır. Babək gedib üstümə Xəzər Polis İdarəsinin 1-ci polis bölməsinin Kamandar adlı işçisi ilə gəldi. Məcbur olub Daxili İşlər Nazirliyinin 102 xidmətinə müraciət etdim. Dedim ki, Babək əvvəllər üstümə kriminal keçmişi olan adamları gətirirdi, indi də ikinci dəfədir polis işçilərini gətirir, məni polislə hədələyir. 1-ci polis bölməsinin rəisi Zaur müəllimə məktub da yazdım”.

**A.Əmirov deyir ki, onu torpağından çıxarmaq üçün yolunu da kəsiblər:** “Mənə desinlər ki, bu dövlətdə yaşamaq hüququm var, ya yox! Artıq bezmişəm. Bu haqsızlıqlar, ədalətsizliklər məni ölümə vadar edir”.

***P.S.** Qarşı tərəfin də mövqeyini dərc edə bilərik.*

❑ **E.MƏMMƏDƏLİYEV**









# Metropolitendə nə dəyişdi?



**Vüqar Bayramov:** “Metropolitenə kənar mənbələrdən də maliyyə cəlb edilməlidir”



**Fazil Mustafa:** “Bu qurumda müsbət bir dəyişiklik olduğunu eşitməmişəm”

**Metro istifadəçiləri istidə metrolarda kondisionerin olmamasından və qatarların köhnə olmasından şikayətlənirlər. İnsanlar yeni metro rəisinin özü ilə bərabər yeniliklər gətirəcəyini güman edirdi. Bəziləri metropolitendə xeyli dəyişiklik olduğunu desələr də, bunun əksini düşünənlər də az deyil.**

Maraqlıdır, metropolitenə yeni rəis təyin edildikdən sonra nə dəyişib?

**İqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, metropolitendə ən böyük problemlərdən biri metropolitenin büdcədən kənar maliyyələşdirmə mənbələrinin məhdud olmasıdır: “Ümumiyyətlə, metropolitendəki tıxac probleminin qısa müddətdə həll olunması mümkün deyil. Bunun üçün həm texniki bazanın genişləndirilməsinə, həm də metropolitenə ayrılan vəsaitin artırılmasına ehtiyac var. Yəni burada idarəetmə ilə yanaşı maliyyə imkanlarının genişləndirilməsi də əsas şərtlərdən biridir. Qısa müddətdə metropolitendə vəziyyətin yaxşılaşacağını və basabasın aradan qalxacağını güman etmirik. Bunun üçün yeni qatarların alınmasına ehtiyac var. Orta və uzun müddətli bir dövrdə metropolitenin texniki imkanlarının artırılması vacibdir. Metropolitendə sərnişindaşıma xərci çoxdur. Bu da metropolitenin maliyyə imkanları üçün müəyyən problemlər yaradır. Ona görə də burada idarə etmədən çox metropolitenin texniki bazasının vəziyyətinin necə dəyişməsini qiymətləndirmək lazımdır. Çox təəssüf ki, metropolitenin maliyyə və texniki vəziyyəti ürək açan deyil. Metropolitenin texniki bazasının genişləndirilməsi ilə bağlı real addımlar atılarsa, maliyyə imkanları genişləndirilərsə, sözügedən problemlərin aradan qaldırılması praktiki olaraq mümkündür. Ona görə də güman etmirəm ki, indiki texniki və maliyyə təminatı ilə yaxın zamanlarda metropolitendə yaxşılığa doğru hansısa ciddi dəyişikliklər baş versin. Burada kadrlardan daha çox əsas problem bu istiqamətə ayrılan maliyyənin artırılmasıdır. Yalnız dövlət büdcəsindən deyil, eyni zamanda kənar mənbələrdən də maliyyə cəlb edilməlidir. Təəssüf ki, bu gün ən böyük problemlərdən biri metropolitenin büdcədən kənar maliyyələşdirmə mənbələrinin məhdud olmasıdır. İndiki metropoliten rəhbərinin fəaliyyəti kənar maliyyə mənbələrinin artırılmasına nail olmaq və bununla da metropolitenin texniki imkanlarını genişləndirmək olmalıdır. Əgər metropoliten növbəti illərdə də büdcədən asılılığı qoruyub saxlayacaqsa, biz o zaman metropolitenin fəaliyyətində hər hansısa ciddi bir dəyişiklik müşahidə etməyəcəyik”.

**Deputat Fazil Mustafa da metroda hansısa bir dəyişikliyin olmadığını dedi:** “Mənim yaxın çevrəmdə metrodan istifadə edənlər metroda hansısa dəyişikliklərin olmadığını deyirlər. Düzdür, metro keçidlərindəki ticarət obyektləri yığışdırıldı. Amma bu da layiqincə yerinə yetirilmədi. Hələ ki metropolitendə müsbət bir dəyişiklik olduğunu eşitməmişəm”.

❑ **Günel MANAFLI**

# Braziliyanın qırılmış beli:

# Neymar





## Almaniya ilə yarımfinal oyuna zədə səbəbindən çıxa bilməyən hücumçu kimdir?

**Braziliyada keçirilən XX dünya çempionatı bir sıra ulduz oyunçular üçün çox uğursuz oldu. Əvvəl Uruqvay millisinin forvardı Luis Suares İtaliya ilə oyunda rəqibinin çiynini dişlədiyi üçün mundialdan qovuldu. Belçika ilə oyunda isə Argentina yığmasının aparıcı futbolçusu Anxel di Mariya zədələnərək sıradan çıxdı.**

1/4 finalda Kolumbiya ilə matçın 87-ci dəqiqəsində isə mundialın ən yaxşı oyunçularından biri-Braziliya yığmasının hücumçusu rəqib futbolçunun kobud oyunundan sonra belindən ağır zədə alıb. Ayağa dura bilməyən gənc hücumçunu həkimlər xərəklə meydanın kənarına çıxarıblar. Braziliya yığmasının həkimi Rodriqo Lasmar deyib ki, Neymarın onurğasında sınıq aşkarlanıb: "O, əməliyyat olunmayacaq, ancaq bir müddət hərəkət edə bilməyəcək. Neymar bu zədə ilə futbol oynaya bilməz. Onun bir həftəyə sağalması mümkünsüzdür".

Neymarı isə youtube şəbəkəsində videomüraciəti yayılıb.

Millinin məşqçi heyəti, futbolçular və azarkeşlərə müraciət edən gənc hücumçu qeyd edib ki, ən qısa zamanda yaşıl meydanlara qayıtmağa çalışacaq. **"Siz mənim barəmdə az düşünən vaxt futbola dönəcəm. Hamıya mənə verdiyi dəstəyə görə təşəkkür edirəm. Mənim arzum - dünya çempionu olmaq istəyim hələ gerçəkləşməyib. Amma əminəm ki, komanda yoldaşlarım bunun üçün hər şeyi edəcəklər. Dünya çempionatının finalında oynamağı çox istəyirdim. Amma təəssüf ki, bu dəfə alınmadı. Hərçənd əminəm ki, qalib gələcəyik. Mənən komandamla birgə olacam və biz parlaq qələbəmizi birgə qeyd edəcəyik"** - deyə, o bildirib.

Bu yazıda Braziliyanın ən yaxşı futbolçusu haqda ətraflı danışacağıq.

Neymar da Silva Santos Junior 1992-ci ilin fevral ayının 5-də Braziliyanın Moji-das-Kruzis şəhərində anadan olub. Neymarın atası və anası bahalı daş-qaş alveri ilə məşğul olub. Evin ilk uşağı olan Silva sonradan Rafaela adı verilən bir bacısı da dünyaya gəlib.

Neymar futbolçu kimi karyerasına 7 yaşında-1999-cu ildə Braziliyanın yerli "Santos" klubundan başlayıb. Hələ "Santos"un əsas heyətində yer ala bilməyən Neymar San-Pauloda gənclər arasında keçirilən birincilikdə məşhurlaşmağa başlayır.









Onun xüsusilə heyranedici driblinqləri-aldadıcı hərəkətləri futbol mütəxəssislərinin diqqətini cəlb edir. Ona bu texnikalı oyununa görə "yeni Robinyon" adlandırmağa başlayırlar.

Neymar hələ yeniyetmə yaşına çatmamasına baxmayaraq, dərhal Avropanın məşhur "Mançester-Siti", "Real", "Arsenal", "Barselona", "Çelsi" və "Milan" kimi klublarının menecerlərinin diqqətini çəkməyə başlayır.

12 yaşında o, "Real"ın akademiyasına qəbul edilir. Amma hələ uşaq olan Neymar valideynləri üçün darıxması səbəbindən vətənə qayıdır. Başqa bir məlumata görə, Neymarın Braziliyaya qayıtmasının səbəbi heç də darıxması olmayıb. Belə ki "Santos" klubu Neymarın ailəsinə 1 milyon real ödəyərək "Real"dan doğma kluba qaytarıblar.

2010-cu ilin yazında Neymar "Santos"un heyətində ilk çempionluğunu bayram edir. Aprelin 15-də Braziliya Kubokunun 1/16 finalında Neymar "Quarani" klubunun qapısına 5 qol vurur. Həmin il "Santos" Braziliya kubokunu da qazanır və Neymar da 11 qolla bombardirlər siyahısında birinci olur. Bu uğurlardan sonra Avropa klubları indi daha tez-tez Neymarı transfer etmək üçün əllərində müqavilə "Santos" rəhbərliyinin qapısına gəlirlər. Əvvəl "Vest Xem Yunayted" in 15 milyon avroya transferi təklifinə "yox " cavabı verilir. Bundan sonra "Çelsi"nin Neymar üçün 20 milyon avro təklifi də cavabsız qalır. "Çelsi" təklif edilən məbləği 26 milyona qaldırsa da, futbolçu "Santos"la müqaviləsini daha 5 il uzatmağa qərar verir. Neymar Avropa klublarının təklifindən imtinasını belə izah edirdi: "Yalnız pulla xoşbəxt olmaq mümkün deyil. "Santos"un heyətində qalmağım doğru və müdrik qərarərdır" deyə, o bildirib.

2010-cu ilin sentyabrında isə Neymar əslində çox da müdrik qərar vermədiyini anlayır. Braziliya çempionatında "Santos"un baş məşqçisi Dopivala Juniora penalti zərbəsini vurmağı Neymara etibar etmədiyi üçün aralarında konflikt yaranır. Neymarın bu hərəkəti klub rəhbərliyinin qəzəbinə səbəb olur və hücumçu bir neçə oyun kənarlaşdırılaraq cərimələnir. Amma baş məşqçi bu cür cəzanın yüngül olduğunu dedikdən sonra özü komandadan kənarlaşdırılır.

2011-ci ilin iyununda Avropa klublarından Neymara yenidən təkliflər gəlməyə başlayır. Bu dəfə gənc braziliyalını "Çelsi" ilə yanaşı "Yuventus", "Barselona" və Rusiyanın "Anji" kimi klubları da transfer etmək üçün 45 milyon avro təklif edirlər. 2013-cü ilin 26 mayında "Barselona" öz saytında Neymarın kluba transfer edilməsi barədə xəbər yayır. "Marca" qəzeti isə bu transferin "Barselona" ya 57 milyon avroya başa gəldiyini xəbər verir. Tezliklə Neymar da öz tvitterində bu xəbəri təsdiqləyir. Neymar bu transfer müqaviləsi ilə Zlatan İbrahimbəyoviçdən sonra "Barselona"nın tarixində ən bahalı oyunçu olur.

2013-cü il may ayının 3-də Neymar "Nou-Kampda" ilk oyununa çıxır. Braziliyalı "Barselona"nın heyətində ilk qolunu "Atletiko" ilə oyunda vurur. 2013-2014-cü il Çempionlar Liqasında "Seltik"lə oyunda Neymar üç qola imza ataraq "Barselona"nın heyətində ilk het-trikinin edir.

2010-cu ildə Braziliya futbolunun əfsanəvi ismi Pele Neymarın milli komandaya çağırılmasını tələb edir. CAR-da keçirilən dünya çempionatı ərəfəsi Neymarın milli komandaya götürülməsində tərəddüd edən baş məşqçi Dunqa onun adını heyətə salmır. Dünya çempionatdan sonra nəhayət, Neymar Braziliya milli komandasının heyətində ABŞ-la qarşı ilk oyuna çıxır və qol da vurur. Həmin oyunda isə Neymar rasizimlə üzləşir. Tribunada olan almaniyalı turist ona banan atır...

Braziliyanın heyətində tezliklə əvəzedilməz hücumçuya çevrilən Neymar 2013-cü il Konfederasiya Kuboku yarışının ən yaxşı futbolçusu seçilir. Xatırladaq ki, Konfederasiya Kubokunun finalında Neymar İspaniyanın qapısına vurulan üç qoldan birinin müəllifi olub.

2014-cü il martın 5-də Neymar CAR-la oyunda yığmanın heyətində ikinci dəfə het-trik edir. CAR-ın qapısına vurulan 5 qolun 3-ü Neymarın adına yazılır.

Millinin heyətində Braziliya-Xorvatiya oyununda 50-ci oyununa çıxan Neymar mundialın ilk oyununda komandasının 2 topunu vurur. Kamerunla qrup mərhələsindəki oyunda da Neymar yenidən dubla imza atır.

İyulun 4-də Neymar Kolumbiya ilə görüşdə Xuan Suniqa ilə qarşılaşmada ağır zədə alaraq mundialdakı iştirakını erkən başa vurur.

Neymar inanclı adamdır və həftədə ən azı bir dəfə kilsəyə gedir. Futbolçu bununla bərabər həm də tez-tez xeyriyyə aksiyalarında iştirak edir. 2011-ci ildə "Santos" un heyətində hakimin səhvlərindən bezən Neymar tvitterində Sandro Meyra Riççini "oğru" adlandırdığı üçün məhkəməyə verilib. Neymar isə iddia edib ki, onun səhifəsini kimsə ələ keçirərək onun adından hakimin ünvanına təhqir yazıb.

Neymar 19 yaşında ata olub. Onun Karolina adlı rəfiqəsi isə ana olanda cəmi 17 yaşı varmış. Neymarın oğluna Davida Lukku adı verilib. Neymar "Nike" "Sony" "Red Bull" "Volkswagen" kimi tanınmış bredlərlə əməkdaşlıq edir. Neymar bahalı yaxta və avtomobillər həvəskarı kimi də tanınır.

❑ **Orxan ƏLİYEV**



YENİ MÜSAVAT
Son səhifə
N 173 (5882) 8 iyul 2014

# Dünyanın ən böyük alış-veriş mərkəzi



Dünyanın ən böyük alış-veriş mərkəzi Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ticarət mərkəzi olan Dubayda açılacaq. "Mall of the World" adı veriləcək ticarət mərkəzi 743 min kvadratmetr ərazini əhatə edəcək. BƏƏ-nin hökumət nümayəndələrindən biri ticarət mərkəzində 100 hotel, böyük bir park, müxtəlif səhnələr, tibb mərkəzi olacağını və buranın "Dünyanın ilk temperaturu idarə edilə bilən şəhəri" olacağını açıqlayıb. Projenin tamamı 4,5 milyon kvadrat metrlik əraziyə xidmət edəcək. Ticarət mərkəzi eyni vaxtda 180 milyon nəfər müştərini qəbul edə biləcək.



## İt üçün 3 nəfər öldü

Kambocanın Kratie şəhərində qəribə hadisə baş verib. Ölkə mediasından yayılan məlumatlara görə, quyuya düşən iti xilas etməyə çalışan 3 nəfər həyatını itirib. Faciəvi hadisələrin səbəbi isə Say Phalla adlı gəncin itinin su quyusuna düşməsi olub. 25 yaşlı oğlan iti quyuya düşdükdən sonra onu xilas etmək üçün iplə quya düşüb. Quyunun içində su çox, oksigen az olduğundan S.Phalla nə özünün, nə də itinin həyatını xilas edə bilməyib. Gənc oğlanın qonşusu ondan xəbər ala bilmədiyi üçün su quyusuna düşməyə qərar verib. 10 metr dərinliyi olan quyuya düşən qonşu da orada ölüb. Sonda Say Phallanın anası oğlunu xilas etmək üçün quyuya düşüb. Qadının həyatını itirməsindən sonra ətrafdakılar polislərə xəbər veriblər. Hadisə yerinə gələn polislər üç nəfərin və itin cansız bədənlərini sudan çıxarıblar.

Xatırladaq ki, ötən ay da Kambocanın Siem Reap şəhərində su quyusuna düşən 1 dolları çıxarmaq istəyən 8 nəfər həyatını itirmişdi.

# Boşanmağın ən böyük səbəbi

Son zamanlar aparılan araşdırmalar nəticəsində məlum olub ki, artıq cütlüklər aldadılma səbəbi ilə boşanmırlar. Boşanmaların bir çoxuna məsuliyyətsizlik və diqqətsizlik səbəb olur. 2006-cı ilə ailələrin dağılmasının səbəbi olaraq xəyanət göstərilirdi. 2011-ci ildə aparılan araşdırmalar isə göstərir ki, xəyanət artıq əvvəlki qədər ön planda deyil. Son illərdə boşananlar əsasən 18-20 yaşda evlənənlərdir. O yaşda ailə həyatı quranların bir çoxu qısa müddət sonra boşanmasalar da ayrı yaşamağa başlayırlar. İnsanların birinci evlilikləri daha uzun müddət davam edir. İkinci, üçüncü və daha sonrakı evliliklər isə daha tez bitir. Məhz bu səbəbdən də mütəxəssislər sosial media və telefonla vaxt keçirən cütlüklərə xəbərdarlıq edirlər. Cütlüklər evdə və işdə internetlə bağlı işlərini ön plana çəkdikləri üçün ailədə diqqətsizlik və məsuliyyətsizlik yaranır.





## İşdən çıxarkən 30 milyon qazandı

Rusiyada yaşayan Kelly Trikko adlı kişinin işdən çıxarkən təsadüfən aldığı lotereya bileti 30 milyon dollar qazandırıb. Ev asqı-satqı şirkətində çalışan kişi işdən çıxarkən dostlarına da lotereya almağı tövsiyə edib. Bir neçə nəfər aralarında pul yığaraq lotereya bileti alıblar. 30 milyon dollar udması gözlənilən ümidləri doğrultduğu zaman hər kəs sevincini bölüşmək üçün şirkətdə qışqırmağa başlayıb. Rusiya saytlarında yayılan məlumata görə, şanslı iş yoldaşları qazandıqları pulu almaq üçün qısa zamanda lotereya şirkətinə müraciət edəcəklər. Milyonçu işçilərdən bəziləri bazar ertəsi günü istefa ərizələrini şirkət rəhbərliyinə təqdim edəcəklər.




**QOÇ** - Hər mənada uğurlu təqvim hesab etmək olar. İstər şəxsi büdcəni artırmaq istiqamətində, istərsə də işgüzar sövdələşmələrdə irəliləyişləriniz mümkündür. Bu gün savablarınızı çoxaldın.

**BUĞA** - O qədər də ürəkaçan olmayan maddi durumunuzu dirçəltmək üçün müəyyən imkanlar qazanacaqsınız. Büdcənizi artırmaq istiqamətində dəstək ala bilərsiniz. Kobudluğa yol verməyin.

**ƏKİZLƏR** - Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələr olsa da, özünüzü təmkinli aparmalısınız. Deyilən hər sözə ciddi yanaşmayın. Yaxşı olar ki, bütün gücünüzü fəaliyyətə yönəldəsiniz.

**XƏRÇƏNG** - Nə qədər ki "hakimiyyətdə" öz bürcünüzdür, işlərinizə hopan gərginlik azalmağa doğru gedəcək. Saat 15-dən sonra isə şəxsi işlərinizdə nəzərəçarpacaq irəliləyişlər baş verəcək.

**ŞİR** - Deyəsən, Göy qübbəsi əzablarınızı görüb sizə güzəştə getmək fikrindədir. Bu səbəbdən də əksər məsələlərdə yardımçınız olmaqdadır. Səfərə çıxmaq və varlanmaq ehtimalınız da var.

**QIZ** - Astroloji göstəricilər günün birinci yarısını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı müddətdə isə ətrafınızda olanların rəğbətini qazanacaqsınız. Bu gün kollektivdən ayrı qalmayın.

**TƏRƏZİ** - Saat 14-ə qədər hər bir görüşü təxirə salmağınız məsləhətdir. Əks təqdirdə, gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz. Özünə qapılmağa da dəyməz, günün ikinci yarısını gözləyin.

**ƏQRƏB** - Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki iş səhhətinizə mənfi təsir göstərə bilər. Bu gün intim əlaqəyə girmək, ağır yük qaldırmaq sizin üçün yolverilməzdir.

**OXATAN** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu amil daha çox sevgi zəminində reallaşacaq. İş yerində isə həmkarlarınızla mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.

**OĞLAQ** - Bürcünüzdəki planetar mənzərə neqativ olsa da, təpər tapıb qarşınıza çıxan maneələri dəf edə biləcəksiniz. Günün ikinci yarısında yeni işgüzar əlaqələr yaratmaq üçün əzmkarlığınızı artırmalısınız.

**SUTÖKƏN** - Olduqca uğurlu təqvimdir. Ulduzlar bir tərəfdən əlverişli təkliflər alacağınızı, digər tərəfdənsə maliyyə uğurlarına nail olacağınızı bildirir. Hər mənada nikbin olmağa əsas var.

**BALIQLAR** - Ulduzlar yalnız qarşılıqlı əlaqələr zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu baxımdan gəzintiyə çıxmaq, qonaq getmək səmərəlidir. Riskli işlərdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 4 qollu, 4 ayaqlı uşaq



Əfqanıstanın Maymana şəhərində dünyaya gələn uşaq görənləri heyrətə salıb. Anasının 8 aylıq hamilə olmasına baxmayaraq, dünyaya gələn uşaq 4 qol və 4 ayaqla doğulub. Uşağın doğuşunda iştirak edən Hacı Hava adlı həkim onun gözünün alnında, dodağının yırtıq, başının isə formalaşmadığını deyib. Ölü dünyaya gələn uşağı görən həkimlər də şoka düşüblər. H.Hava 26 illik həkimlik təcrübəsində belə bir hadisə ilə rastlaşmadığını, uşağı gördüyü zaman nə deyəcəyini bilmədiyini deyib. Həkimlərin sözlərinə görə, uşağın anormal halda dünyaya gəlməsinin səbəbi ananın normal yemək yeməməsi və istədiyi kimi dərman qəbul etməməsi olub.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565